EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

**İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİ**

BÖYÜK PALATA

# D.H. VƏ DİGƏRLƏRİ ÇEX RESPUBLİKASINA QARŞI

**(CASE OF D.H. AND OTHERS v. THE CZECH REPUBLIC)**

*(57325/00 nömrəli ərizə)*

QƏRAR

STRASBURQ

13 noyabr 2007-ci il

© Avropa Şurası/İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, 2012. Bu tərcümə Avropa Şurasının "Hyuman Rayts Trast Fondu"nun dəstəyi ilə həyata keçirilmişdir (www.coe.int/humanrightstrustfund). O, Məhkəmə üçün məcburi deyil. Geniş məlumat üçün müəlliflik hüququ ilə bağlı bu sənədin sonundakı tam məlumata bax.

© Council of Europe/European Court of Human Rights, 2012. This translation was commissioned with the support of the Human Rights Trust Fund of the Council of Europe (www.coe.int/humanrightstrustfund). It does not bind the Court. For further information see the full copyright indication at the end of this document.

© Conseil de l'Europe/Cour europeenne des droits de l'homme, 2012. La presente traduction a ete effectuee avec le soutien du Fonds fiduciaire pour les droits de l'homme du Conseil de l'Europe (www.coe.int/humanrightstrustfund'). Elle ne lie pas la Cour. Pour plus de renseignements veuillez lire 1'indication de copyright/droits d'auteur a la fin du present document.

**D.H. və Digərləri Çex Respublikasına qarşı işi üzrə**

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İkinci Bölmə) Böyük Palatası

*sədr* Nikolas Bratsa (*Nicolas Bratza*),
*hakimlər:*
Boştyan M. Zupançiç (*Boštjan M. Zupančič*),
Rıza Türmen (*Rıza Türmen*),
Karel Yunqvirt (*Karel Jungwiert*),
Jozep Kasadeval (*Josep Casadevall*),
Margarita Tsatsa-Nikolovska (*Margarita Tsatsa-Nikolovska*),
Kristaq Traya (*Kristaq Traja*),
Vladimiro Zaqrebelski (*Vladimiro Zagrebelsky*),
Elizabet Şteyner (*Elisabeth Steiner*),
Xavyer Borreqo Borreqo (*Javier Borrego Borrego*),
Alvina Gülumyan (*Alvina Gyulumyan*),
Xanlar Hacıyev (*Khanlar Hajiyev*),
Din Şpilman (*Dean Spielmann*),
Svere Erik Yebens (*Sverre Erik Jebens*),
Yan Şikuta (*Ján Šikuta*),
İneta Ziemele (*Ineta Ziemele*),
Mark Villiger (*Mark Villiger*),
və *məhkəmə katibinin müavini* Maykl O'Boyldan (*Michael O'Boyle*) ibarət tərkibdə

17 yanvar və 19 sentyabr 2007-ci il tarixlərində qapalı müşavirə keçirərək
Yuxarıda qeyd edilmiş son tarixdə aşağıdakı qərarı qəbul etdi:

## PROSEDUR MƏSƏLƏLƏRİ

1. Bu iş 2000-ci il 18 apreldə Çex Respublikasının 18 vətəndaşı ("ərizəçilər") tərəfindən İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın ("Konvensiya") 34-cü maddəsinə uyğun olaraq Çex Respublikasına qarşı ərizənin (57325/00 nömrəli) təqdim edilməsi ilə başlanmışdır. Ərizəçilər barədə məlumatlar bu qərara Əlavədə əks olunmuşdur.

2. Ərizəçiləri Məhkəmədə Budapeştdə yerləşən Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzi, Hern Hilldən olan vəkil Lord Lester, Nyu-York ştatının vəkillər assosiasiyasının üzvü cənab C.Qoldston və Çex Respublikasında fəaliyyət göstərən hüquqşünas cənab D.Strupek təmsil etmişdir. Çex Hökuməti ("Hökumət") səlahiyyətli nümayəndəsi cənab V.A.Şorm tərəfindən təmsil olunmuşdur.

3. Ərizəçilər xüsusilə təhsil hüquqlarının həyata keçirilməsində irqi və etnik əlamətlərinə görə ayrı-seçkiliyə məruz qoyulmalarından şikayət etmişlər.

4. Ərizə baxılması üçün Məhkəmənin İkinci Bölməsinə göndərilmişdir (Məhkəmənin Prosedur Qaydalarının 52-ci qaydasının 1-ci bəndi). 26-cı qaydanın 1-ci bəndinə uyğun olaraq həmin Bölmənin tərkibində işə baxılması üçün Palata yaradılmışdır (Konvensiyanın 27-ci maddəsinin 1-ci bəndi).

5. İşin mümkünlüyü və mahiyyəti ilə bağlı dinləmələrdən sonra Palata 2005-ci il 1 mart tarixində qəbul etdiyi qərar (54-cü qaydanın 3-cü bəndi) ilə ərizəyə baxılmasını qismən mümkün hesab etmişdir.

6. 2006-cı il 7 fevral tarixində həmin Bölmə sədr Jan-Pol Kosta, hakimlər Andras Baka, İreneu Kabral Barreto, Karel Yunqvirt, Volodimir Butkeviç, Antonella Mularoni, Danute Yoçiene və iclas katibi Salli Dolledən ibarət tərkibdə Palata qismində işə baxaraq qərar qəbul etmişdir. Bir səs

əleyhinə altı səslə qəbul edilmiş qərarda 1 saylı protokolun 2-ci maddəsi ilə birlikdə götürülmüş Konvensiyanın 14-cü maddəsinin pozuntusunun baş verməyi qət edilmişdir.

7. 2006-cı il 5 may tarixində ərizəçilər Konvensiyanın 43-cü maddəsinə uyğun olaraq işin Böyük Palataya verilməsini xahiş etmişlər. 2006-cı il 3 iyulda Böyük Palatanın beş üzvündən ibarət məhkəmə kollegiyası xahişi təmin etmişdir.

8. Böyük Palatanın tərkibi Konvensiyanın 27-ci maddəsinin 2-ci və 3-cü bəndləri və 24-cü qayda əsasında müəyyən edilmişdir. Son dinləmələrdə əvəzedici hakimlər Kristaq Traya və Jozep Kasadeval gələcək dinləmələrdə iştirak edə bilməyən Kristos Rozakis və Peer Lorenseni əvəz etmişlər (24-cü qaydanın 3-cü bəndi).

9. Ərizəçilər və Hökumət işin mahiyyəti üzrə qeydlərini təqdim etmişlər. Əlavə olaraq Məhkəmənin sədri tərəfindən üçüncü tərəf kimi yazılı prosedurlarda iştirak etmələrinə icazə verilmiş bir sıra qeyri-hökumət təşkilatlarından, xüsusilə “Addımbaaddım” Beynəlxalq Assosiasiyası, Qaraçıların Təhsil Fondu və Erkən Uşaq Təhsilinin Araşdırılması üzrə Avropa Assosiasiyası; “Interights” və “Human Rights Watch”; Azlıqların Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Qrup, İrqçilik Əleyhinə Avropa Şəbəkəsi və Qaraçıların Vəziyyəti üzrə Avropa İnformasiya Ofisi; və İnsan Hüquqları üzrə Beynəlxalq Federasiyadan qeydlər alınmışdır (Konvensiyanın 36-cı maddəsinin 2-ci bəndi və 44-cü qaydanın 2-ci bəndi). Hökumət bu qeydlərə cavab vermişdir (44-cü qaydanın 5-ci bəndi).

10. Məhkəmə baxışı 2007-ci il 17 yanvar tarixində Strasburqda İnsan Hüquqları Sarayında açıq şəkildə keçirilmişdir (59-cu qaydanın 3-cü bəndi).

Məhkəmədə aşağıdakılar iştirak etmişlər:

a) *Hökumət tərəfindən*

cənab V.A.Şorm, səlahiyyətli nümayəndə
xanım M.Kopsova,
xanım Z.Karpova,
xanım J.Zapletalova,
cənab R.Barinka,
cənab P.Konupka, *vəkillər*;

b) *Ərizəçilər tərəfindən*

Hern Hilldən olan vəkil Lord Lester,
cənab C.Qoldston,
cənab D.Strupek, *vəkillər*.

Məhkəmə Hern Hilldən olan vəkil Lord Lester, cənab Qoldston, cənab Strupek və cənab Şormun çıxışlarını dinlədi.

# FAKTLAR

I. İŞİN HALLARI

11. Ərizəçilərin adları və yaşayış yerlərinə dair məlumat Əlavədə əks olunmuşdur.

## A. İş ilə bağlı tarixi məlumat

12. Avropa Şurasının internet saytının qaraçılar və səyyahlara həsr edilmiş bölməsində yerləşdirilmiş sənədlərə görə qaraçıların əsilləri Hindistanın şimal-qərbi ilə İran yaylası arasında yerləmiş bölgələrdən gəlir. Onların Avropaya gəlməsini təsdiq edən ilk yazılar 14-cü əsrə təsadüf edir. Hazırda Avropada səkkiz-on milyon arasında qaraçı yaşayır. Onlara demək olar ki, Avropa Şurasının üzvü olan bütün dövlətlərdə rast gəlmək mümkündür və əlbəttə, bəzi mərkəzi və şərqi Avropa ölkələrində onlar əhalinin 5 faizindən artıq hissəsini təşkil edirlər. Onların əksəriyyəti bir çox ləhcələrinin olmasına baxmayaraq qaraçıların böyük hissəsi tərəfindən başa düşülən, Hind-Avropa dil qrupuna daxil olan qaraçı dilində danışırlar. Ümumiyyətlə, qaraçılar həmçinin yaşadıqları regionda əhalinin əksər hissəsinin danışdığı dildə, bəzən hissə hətta bir-neçə dildə də danışırlar.

13. Avropada 14-cü əsrdən bəri yaşamalarına baxmayaraq çox zaman cəmiyyətin əksər hissəsi qaraçıları tam hüquqlu avropalı kimi tanımır və tarix boyu qaraçılar inkar edilmiş və təqiblərdən əziyyət çəkmişlər. Bunun kulminasiyası olaraq alman faşistləri qaraçıları aşağı irqin nümayəndələri kimi məhv etməyə çalışmışlar. Əsrlər boyunca onları tanımaqdan imtina olunmasının nəticəsi olaraq hazırda bir çox qaraçı icmaları çox çətin şəraitdə, əksər hallarda məskun saldıqları cəmiyyətlərin əyalətlərində yaşayırlar və onların ictimai həyatda iştirakı son dərəcə məhdudlaşdırılmışdır.

14. Çex Respublikasında qaraçılar azlıq statusuna malikdirlər və müvafiq olaraq bununla bağlı xüsusi hüquqlardan istifadə edirlər. Çex Respublikası Hökumətinin Milli Azlıqlar üzrə Komissiyası icraedici səlahiyyəti olmayan məşvərətçi dövlət orqanıdır və qaraçılar da daxil olmaqla milli azlıqların maraqlarının müdafiə olunmasına görə məsuliyyət daşıyır.

Hazırda Çex Respublikasında yaşayan qaraçıların sayına gəlincə, əhalinin siyahıya alınması barədə göstəricilərə əsaslanan rəsmi rəqəmlər ilə qeyri-rəsmi rəqəmlər arasında ziddiyyət mövcuddur. Çex Respublikası Hökumətinin Azlıqlar üzrə Komissiyasının internet səhifəsində yerləşdirilmiş qeyri-rəsmi rəqəmlərə görə hazırda qaraçı icmasına 150000-300000 arasında əhali daxildir.

## B. Xüsusi məktəblər

15. Çex Hökuməti tərəfindən təqdim edilmiş məlumata görə birinci dünya müharibəsindən sonra xüsusi qayğıya ehtiyacı olan uşaqlar, o cümlədən əqli və ya sosial qüsurlardan əziyyət çəkənlər üçün xüsusi məktəblər (*zvláštní školy*) yaradılmışdır. Bu məktəblərdə yerləşdirilmiş uşaqların sayı artmaqda davam etmişdir (1960-cı ildə bu məktəblərdə 23000 şagird oxuduğu təqdirdə, 1988-ci ildə onların sayı 59301 nəfər olmuşdur). İbtidai məktəblərə (*základní školy*) daxil olmaq üçün müvafiq tələblərin və sonradan seçim prosesinin mövcud olması nəzərə alınaraq 1989-cu ilə qədər qaraçı uşaqlar xüsusi məktəblərdə təhsil almışlar.

16. Hazırkı işdə tətbiq edilmiş qanunvericiliyə, Məktəblər haqqında qanuna (29/1984 nömrəli qanun) görə xüsusi məktəblər ixtisaslaşdırılmış məktəblər (*speciální školy*) olmuş və "ümumtəhsil" və ya xüsusi ibtidai məktəblərdə təhsil alma bilməyən əqli cəhətdən qüsurlu uşaqlar üçün nəzərdə tutulmuşdur. Qanuna görə uşağı xüsusi məktəbə yerləşdirmək haqqında qərar onun intellektual qabiliyyətinin yoxlanılması məqsədilə təhsil-psixologiya mərkəzində keçirilən imtahanların nəticəsi əsasında məktəbin direktoru tərəfindən qəbul edilirdi və bu qərara uşağın qəyyumu razılıq verməli idi.

17. 1990-cı ildə bazar iqtisadiyyatına keçiddən sonra Çex Respublikasında xüsusi məktəblər sistemində bir sıra dəyişikliklər edilmişdir. Bu dəyişikliklər qaraçı şagirdlərin təhsili məsələsinə də təsir etmişdir. 1995-ci ildə Təhsil Nazirliyi xüsusi məktəblərdə məcburi təhsili bitirmiş şagirdlərə əlavə dərslərin keçirilməsi üçün əmr qəbul etmişdir. 1996/97-ci təhsil ilindən başlayaraq məktəbəqədər təhsil müəssisələrində, ibtidai və xüsusi məktəblərdə imtiyazsız sosial statusa malik uşaqlar üçün hazırlıq sinifləri açılmışdır. 1998-ci ildə Təhsil Nazirliyi tərəfindən xüsusi məktəblərdə yerləşdirilmiş qaraçı uşaqlar üçün alternativ təhsil proqramı təsdiq edilmişdir. Həmçinin müəllimlərə kömək etmək və ailələr ilə ünsiyyət qurmağa yardımçı olmaq məqsədilə ibtidai və xüsusi məktəblərə qaraçı dilini tədris edən köməkçilər təyin edilmişdir. 2000-ci il 18 fevral tarixində qüvvəyə minmiş məktəblər haqqında qanuna edilmiş 19/2000 saylı düzəlişə görə xüsusi məktəbdə məcburi təhsili başa vurmuş şagirdlər seçdikləri kursa qəbul üçün müəyyən edilmiş tələblərə cavab verdikləri təqdirdə orta məktəblərə qəbul oluna bilərdilər.

18. Ostrava şəhərində yerləşən 8 xüsusi məktəb və 69 ibtidai məktəb direktorlarına 1999-cu ildə göndərilmiş sorğular vasitəsilə əldə edilmiş və ərizəçilər tərəfindən Məhkəməyə təqdim olunmuş məlumata görə Ostravada fəaliyyət göstərən xüsusi məktəblərdə 1360 şagird təhsil almış, bunların da 762-si (56 %) qaraçı olmuşdur. Bunun əksinə olaraq Ostravadakı ibtidai məktəblərdə təhsil alan 33372 şagirdin yalnız 2,26 faizini qaraçılar təşkil etmişlər. Bundan əlavə, qeyri-qaraçı şagirdlərin yalnız 1,8 faizi xüsusi məktəblərə yerləşdirilsə də, Ostravada belə məktəblərə yerləşdirilmiş qaraçı şagirdlərin faiz nisbəti 50,3 faiz olmuşdur. Beləliklə, göründüyü kimi Ostravada xüsusi məktəblərə yerləşdirilmiş qaraçı şagirdlərin sayı qaraçı olmayan şagirdlərin sayından 27 dəfə artıq olmuşdur.

İrqçilik və Ksenofobiya üzrə Avropa Monitorinq Mərkəzindən (hazırda Əsas Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi) verilmiş məlumata görə Çex Respublikasında qaraçı uşaqların yarıdan çoxu xüsusi məktəblərdə təhsil almışdır.

Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitə 2005-ci il 26 oktyabr tarixli hesabatında bildirmişdir ki, qeyri-rəsmi məlumatlara görə xüsusi məktəblərdə təhsil alan şagirdlərin 70 faizinə qədərini qaraçılar təşkil edir.

Nəhayət, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən Avropa, Asiya və Şimali Amerika da daxil olmaqla on beş ölkədən əldə edilərək 1999-cu ildə ümumiləşdirilmiş və "Addımbaaddım" Beynəlxalq Assosiasiyasının, Qaraçıların Təhsil Fondu və Erkən Uşaq Təhsilinin Araşdırılması üzrə Avropa Assosiasiyasının iradlarında istinad edilmiş müqayisəli məlumata[1] əsasən Çex Respublikası psixoloji qüsurları olan uşaqların xüsusi məktəblərdə yerləşdirilməsinə görə ikinci və təhsilində çətinlikləri olan uşaqların belə məktəblərdə yerləşdirilməsinə görə üçüncü yeri tutur. Bundan başqa, çətinlikləri sosial amillərdən irəli gələn uşaqların məktəb təhsili ilə bağlı məlumat təqdim etmiş səkkiz ölkə arasında Çex Respublikası xüsusi məktəbləri olan yeganə ölkə olmuşdur; digər ölkələrdə belə uşaqlar demək olar ki, müstəsna olaraq ümumtəhsil məktəblərində təhsil alırlar.

## C. Hazırkı işin faktiki halları

19. 1996-1999-cu illərdə ərizəçilər birbaşa və ya bir müddət adi ibtidai məktəbdə təhsil aldıqdan sonra Ostravadakı xüsusi məktəblərə yerləşdirilmişlər.

20. Məhkəmənin sərəncamında olan iş materiallarından göründüyü kimi ərizəçilərin valideynləri uşaqlarının xüsusi məktəblərə göndərilməsinə razılıq vermiş, bəzi hallarda isə bunu açıq şəkildə özləri xahiş etmişlər. Razılıq əvvəlcədən doldurulmuş formanı imzalamaq yolu ilə verilirdi. Siyahıda 12 və 16-cı sıralarda göstərilmiş ərizəçilər ilə bağlı forma üzərindəki tarixlər uşaqları xüsusi məktəblərə yerləşdirmək barədə qərarların qəbul edilməsi tarixindən sonra qoyulmuşdur. Hər iki halda tarixdə əl ilə düzəliş aparılmış və bir halda isə müəllim tərəfindən çap səhvinin edilməsi barədə qeyd edilmişdir.

Yerləşdirmək haqqında qərar sonradan ərizəçilərin psixoloji imtahanlardan keçdiyi təhsil-psixologiya mərkəzlərinin tövsiyələri əsasında müvafiq xüsusi məktəbin direktoru tərəfindən qəbul edilirdi. Ərizəçilərin oxuduqları məktəblərin arxiv sənədlərində onların verdikləri imtahanlar, o

---

[1] P. Evans (2004), "Educating students with special needs: A comparison of inclusion practices in OECD countries", Education Canada 44 (1): 32-35.

cümlədən bu imtahanların nəticələri, imtahan götürənlərin qeydləri, uşaqların çəkdikləri şəkillər və bir sıra hallarda valideynlər üçün sorğu kitabçaları mövcuddur. Məktəbdə yerləşdirmək barədə yazılı qərar uşaqların valideynlərinə göndərilirdi. Bu qərarda şikayət etmək hüququnun həyata keçirilməsinə dair təlimatlar əks olunurdu. Lakin bu hüquqdan heç kim istifadə etməmişdi.

21. 1999-cu ilin 29 iyununda ərizəçilərə məktəbin rəhbərliyi tərəfindən ünvanlanmış məktubda onların xüsusi məktəbdən ibtidai məktəbə keçirilməsinin mümkünlüyü bildirilmişdir. Belə görünür ki, ərizəçilərdən dördü (Əlavədə 5, 6, 11 və 16-cı sıralarda göstərilmiş ərizəçilər) keçid imtahanlarını uğurla vermiş və ümumtəhsil məktəblərinə keçirilmişlər.

22. Aşağıda qeyd edilmiş şikayət prosedurlarında ərizəçilər valideynlərinin imzaladıqları yazılı etibarnamə əsasında fəaliyyət göstərən hüquqşünas vasitəsilə təmsil olunmuşlar.

### *1. İşə formal şikayət prosedurları çərçivəsindən kənar baxılması haqqında vəsatət*

23. 1999-cu il 15 iyun tarixində Əlavədə 1, 2, 10 və 12-ci sıralarda göstərilmiş ərizəçilərdən başqa bütün digər ərizəçilər Ostrava Təhsil İdarəsinə (*Školský úřad*) müraciət edərək onların xüsusi məktəblərdə yerləşdirilməsinə dair inzibati qərarlara formal şikayət prosedurları çərçivəsindən (*přezkoumání mimo odvolací řízení*) kənar baxılmasını xahiş etmişlər. Onlar bildirmişlər ki, intellektual qabiliyyətləri düzgün qiymətləndirilməmiş və xüsusi məktəblərə yerləşdirməyə razılıq verilməsinin nəticələri barədə onların nümayəndələrinə lazımı məlumat verilməmişdir. Buna görə də onlar Təhsil İdarəsindən sözü gedən qərarların ləğv edilməsini xahiş etmiş, bu qərarların qanunvericiliyin tələblərinə cavab vermədiyini və ayrı-seçkilik olmadan təhsil almaq hüquqlarını pozduğunu bildirmişlər.

24. 1999-cu ilin 10 sentyabrında Təhsil İdarəsi ərizəçilərə məlumat vermişdir ki, sözü gedən qərarlar qanunvericiliyin tələblərinə uyğun olduğundan onların işləri üzrə şikayət proseduru çərçivəsindən kənar prosesin başlanılması üçün şərtlər mövcud deyil.

### *2. Konstitusiya Məhkəməsinə şikayət*

25. 1999-cu ilin 15 iyununda Əlavədə 1-dən 12-yə qədər olan sıralarda göstərilmiş ərizəçilər Konstitusiya Məhkəməsinə müraciət edərək, əsas etibarı ilə xüsusi təhsil sisteminin ümumi fəaliyyətində *de facto* ayrı-seçkiliyin mövcud olmasından şikayət etmişlər. Bununla bağlı onlar xüsusilə Konvensiyanın 3-cü və 14-cü maddələrinə və 1 saylı protokolun 2-ci maddəsinə istinad etmişlər. Xüsusi məktəblərdə yerləşdirilmələri barədə qərardan şikayət vermədiklərini etiraf etmələri ilə yanaşı ərizəçilər xüsusi məktəblərə yerləşdirilmələrinin nəticələri barədə onlara kifayət qədər məlumat verilmədiyini iddia etmiş və (hüquq müdafiə vasitələrinin tükəndirilməsi məsələsi ilə bağlı) işlərinin davam edən pozuntu və şəxsi maraqlarından kifayət qədər kənara çıxan məsələlər ilə bağlı olduğunu bildirmişlər.

Şikayətlərinin əsaslandırılması zamanı ərizəçilər bildirmişlər ki, onlar qanunvericilik ilə müəyyən edilmiş müvafiq qaydanın həyata keçirilməsinin təmin edilməsi məqsədilə yaradılmış təcrübəyə uyğun olaraq xüsusi məktəblərdə yerləşdirilmişlər. Onların mövqeyinə görə bu təcrübə faktiki olaraq irqi seqreqasiya və ayrı-seçkiliyin yaranması ilə nəticələnmişdir ki, bu da özünü müxtəlif irqi qruplar üçün iki ayrı təhsil sisteminin, xüsusilə qaraçılar üçün xüsusi məktəblərin və əhalinin əksər hissəsi üçün "adi" ibtidai məktəblərin təşkil edilməsində əks etdirmişdir. Bu fərqli rəftar heç bir obyektiv və ağlabatan mülahizələr ilə əsaslandırılmamış, alçaldıcı olmuş və onları təhsil hüququndan məhrum etmişdir (belə ki, xüsusi məktəblərdəki təhsil proqramı aşağı səviyyədə olmuş və bu məktəblərin şagirdləri ibtidai məktəbə qayıtmaq və ya texniki-peşə təhsil müəssisələrindən başqa digər ümumtəhsil məktəblərində təhsil almaq imkanına malik olmamışlar). Qeyri-adekvat təhsil aldıqlarını və insan ləyaqətlərinin alçaldığını bildirən ərizəçilər Konstitusiya Məhkəməsindən (*Ústavní soud*) hüquqlarının pozulduğunu təsbit edilməsini, xüsusi məktəblərə yerləşdirilmək barədə qərarların ləğv olunmasını, cavabdehlərə (müvafiq xüsusi məktəblər, Ostrava Təhsil İdarəsi və Təhsil Nazirliyi) hüquqlarının gələcəkdə də pozulmasına yol verməmək barədə

göstəriş verməyi və kompensasiya kimi onlar üçün əlavə məşğələlər təşkil etməklə əvvəlki vəziyyəti bərpa etməyi xahiş etmişlər.

26. Konstitusiya Məhkəməsinə yazılı izahatlarında müvafiq xüsusi məktəblər göstərmişlər ki, bütün ərizəçilər təhsil-psixologiya mərkəzinin tövsiyəsi əsasında və nümayəndələrinin razılığı ilə məktəbə daxil edilmişlər. Bundan əlavə, müvafiq qərarların qəbul edilməsi barədə məlumat almalarına baxmayaraq onların nümayəndələrindən heç biri bu qərarlardan şikayət verməmişdir. Məktəblərdən verilmiş məlumata görə ərizəçilərin nümayəndələrinə xüsusi məktəblərin təhsil proqramları ilə ibtidai məktəblərin təhsil proqramları arasındakı fərqlər barədə məlumat verilmişdir. Şagirdlərin biliklərinin qiymətləndirilməsi (onların ibtidai məktəbə keçirilməsinin mümkünlüyünün yoxlanılması məqsədilə) üçün müəllim heyətinin daimi iclasları keçirilmişdir. Onlar əlavə etmişlər ki, ərizəçilərdən bəzilərinə (Əlavədə 5 və 11-ci sıralarda göstərilənlər) ibtidai məktəbə keçirilmək imkanları barədə tövsiyələr verilmişdir.

Təhsil İdarəsi yazılı izahatlarında bildirmişdir ki, xüsusi məktəblər özləri hüquqi şəxsdir, sözü gedən qərarlarda şikayət vermək hüququ barədə tövsiyələr əks olunmuşdur və ərizəçilər bir dəfə də olsun məktəblərin müfəttişliyinə müraciət etməmişlər.

Təhsil Nazirliyi hər hansı ayrı-seçkiliyin həyata keçirildiyini inkar etmiş və qaraçı uşaqların valideynlərində məktəb işlərinə qarşı daha neqativ münasibət olduğunu bildirmişdir. O, qeyd etmişdir ki, hər bir uşaq xüsusi məktəbə yerləşdirilməzdən qabaq onun intellektual qabiliyyəti qiymətləndirilmiş və valideynlərin razılığı qərarın qəbul edilməsi üçün həlledici amil rolunu oynamışdır. Bundan başqa, o bildirmişdir ki, Ostrava məktəblərində qaraçı əsilli on səkkiz təhsil məsələləri üzrə köməkçi fəaliyyət göstərir.

27. Son yazılı izahatlarında ərizəçilər (i) məktəblərin arxivlərində ibtidai məktəbə köçürülmə mümkünlüyünün yoxlanılması məqsədilə şagirdin nailiyyətlərinin müntəzəm qaydada monitorinqinin aparıldığını təsdiq edən heç bir sənədin olmadığını, (ii) təhsil-psixologiya mərkəzlərinin hesabatlarında tətbiq edilən imtahanlar barədə heç bir məlumatın olmadığını və (iii) onların xüsusi məktəblərə yerləşdirilmək barədə tövsiyələrinin Çex dilini kifayət qədər yaxşı bilməmə, valideynlərinin hər şeyi etməyə icazə vermələri, pis adaptasiya olunmuş sosial mühitdə tərbiyə alma və başqa bu kimi mülahizələrə əsaslandığını bildirmişlər. Ərizəçilər həmçinin qeyd etmişlər ki, onların təhsilləri arasında mövcud olan fərq ibtidai məktəbə köçürülməni mümkünsüz etmişdir və sosial və ya mədəni fərqlər belə fərqli rəftara haqq qazandıra bilməz.

28. 1999-cu il 20 oktyabrda Konstitusiya Məhkəməsi açıq-aşkar əsassız olması və işə baxmaq üçün səlahiyyətinin olmaması səbəbləri ilə ərizəçilərin şikayətini təmin etməmişdir. Bununla yanaşı, o, aidiyyəti dövlət orqanlarını ərizəçilərin təkliflərinə diqqətlə və konstruktiv şəkildə yanaşmağa dəvət etmişdir.

a) Xüsusi məktəblərə yerləşdirilmək nəticəsində ərizəçilərin hüquqlarının pozulması ilə bağlı şikayətlə əlaqədar Konstitusiya Məhkəməsi bildirmişdir ki, şikayətdə yalnız beş qərara istinad edildiyi üçün o, müvafiq qərarlardan şikayət verməmiş ərizəçilərin işləri üzrə qərar qəbul edə bilməz.

Xüsusi məktəblərə yerləşdirilmələri ilə bağlı qərarlardan Konstitusiya Məhkəməsinə şikayət vermiş beş ərizəçiyə (Əlavədə 1, 2, 3, 5 və 9-cu sıralarda göstərilmiş ərizəçilər) gəlincə, Konstitusiya Məhkəməsi onların bu qərarlardan adi qaydada şikayət verməmələrini nəzərə almamaq barədə qərar qəbul edərək, Konstitusiya Məhkəməsinə verilmiş şikayətin predmetinin ərizəçilərin şəxsi maraqlarından kifayət qədər kənara çıxması fikri ilə razılaşmışdır. Lakin məhkəmə qət etmişdir ki, iş üzrə materiallarda müvafiq qanunvericilik normalarının Konstitusiyaya zidd şəkildə təfsir və ya tətbiq edildiyini təsdiq edən heç bir sübut yoxdur, belə ki, qərarlar məktəb direktorları tərəfindən təhsil-psixologiya mərkəzlərinin tövsiyələri əsasında və ərizəçilərin nümayəndələrinin razılığı ilə qəbul edilmişdir.

b) Ərizəçilərin məktəbdə əldə etdikləri nailiyyətlərin kifayət edici səviyyədə yoxlanılmaması və irqi ayrı-seçkilik ilə bağlı şikayətlərə gəlincə, Konstitusiya Məhkəməsi ümumi sosial kontekstə qiymət verilməsinin onun səlahiyyəti xaricində olduğunu bildirmiş və ərizəçilərin iddialarını əsaslandırmaq üçün konkret sübutlar irəli sürmədiklərini bildirmişdir. Bundan əlavə, Məhkəmə qeyd etmişdir ki, ərizəçilərin xüsusi məktəblərdə yerləşdirilmək barədə qərarlardan şikayət etmək

hüququ olsa da, onlar bu hüquqdan istifadə etməmişlər. Xüsusi məktəblərə yerləşdirilməyin nəticələri barədə kifayət qədər məlumat verilməməsi ilə bağlı etiraza gəlincə, Konstitusiya Məhkəməsi hesab etmişdir ki, ərizəçilərin nümayəndələri məktəblər ilə əlaqə saxlamaqla bu barədə məlumat ala bilərdilər və işdə onların ibtidai məktəblərə köçürülməyə maraq göstərdiklərini təsdiq edən heç bir sübut yoxdur. Buna görə də Konstitusiya Məhkəməsi qərara almışdır ki, bu hissədə şikayət açıq-aşkar əsassızdır.

## II. MİLLİ HÜQUQ VƏ TƏCRÜBƏ

### A. 1984-cü il tarixli Məktəblər haqqında qanun (29/1984 nömrəli qanun – 2005-ci il 1 yanvar tarixində qüvvəyə minmiş 561/2004 nömrəli qanun ilə ləğv edilmişdir)

29. 2000-ci il 18 fevral tarixinə qədər Məktəblər haqqında qanunun 19-cu maddəsinin 1-ci bəndi orta məktəbdə təhsil almaq üçün şagirdlərin ibtidai məktəbdə təhsillərini uğurla başa vurmalarının zəruri olduğunu təsbit edirdi.

2000-ci ilin 18 fevralında qüvvəyə minmiş 19/2000 nömrəli dəyişikliyin edilməsindən sonra 19-cu maddənin 1-ci bəndində düzəlişlər edildi və bu maddəyə görə orta məktəbdə təhsil almaq üçün şagirdlər məcburi təhsillərini başa vurmalı və qəbul prosesində seçdikləri kursa daxil olmaq üçün zəruri sayılan şərtlərə cavab verdiklərini nümayiş etdirə bilməli idilər.

30. Qanunun 31-ci maddəsinin 1-ci bəndinə görə xüsusi məktəblər adi ibtidai məktəblərdə və ya hissiyyat orqanlarında qüsurları, xəstəliyi, yaxud əlilliyi olan uşaqlar üçün nəzərdə tutulmuş ixtisaslaşdırılmış ibtidai məktəblərdə (*speciální základní škola*) təhsil proqramını qavraya bilməyən "əqli qüsurları" olan (*rozumové nedostatky*) uşaqlar üçün nəzərdə tutulmuşdur.

### B. 2004-cü il Məktəblər haqqında qanun (561/2004 nömrəli qanun)

31. Məktəb təhsili haqqında bu qanun xüsusi məktəblərin qanunun qüvvəyə minməsindən öncə mövcud olmuş formada saxlanılmasını təsbit etmir. Hazırda ibtidai təhsil ibtidai məktəblər və ciddi əqli qüsurları və ya bir neçə qüsuru olan uşaqlar və autizm xəstəliyindən əziyyət çəkən uşaqlar üçün nəzərdə tutulan ixtisaslaşdırılmış ibtidai məktəblər tərəfindən verilir.

32. Qanunun 16-cı maddəsi təhsildə xüsusi qayğıya ehtiyacı olan uşaqların və şagirdlərin təhsili məsələlərini tənzim edir. 1-ci bənddə bu kateqoriya uşaqlara əlilliyi, səhhətində qüsurları olan və ya sosial cəhətdən imtiyazsız uşaqlar aid edilmişdir. 16-cı maddənin 4-cü bəndinə görə qanunun məqsədləri üçün sosial cəhətdən imtiyazsız uşaq dedikdə xüsusilə aşağı sosial-mədəni statusa malik ailədən çıxmış və ya sosial patologiya baxımından risk qrupuna aid olan uşaq başa düşülür. 5-ci maddəyə görə təhsildə xüsusi qayğıya ehtiyacın olması məşvərətçi təhsil mərkəziləri tərəfindən qiymətləndirilməlidir.

33. Qanun o cümlədən təhsil üzrə köməkçilər, fərdi təhsil layihələri, sosial cəhətdən imtiyazsız uşaqlar üçün məcburi məktəb təhsili almamışdan qabaq hazırlıq məşğələləri və baza təhsili almamış şagirdlər üçün əlavə məşğələlər kimi məsələləri tənzim edir.

### C. İxtisaslaşdırılmış məktəblər haqqında 127/1997 nömrəli fərman (2005-ci il 17 fevralda qüvvəyə minmiş 73/2005 nömrəli fərmanla ləğv edilmişdir)

34. Fərmanın 2-ci maddəsinin 4-cü bəndinə görə əqli cəhətdən qüsurları olan uşaqlar aşağıdakı məktəblərdə təhsil ala bilərdilər: ixtisaslaşdırılmış uşaq bağçaları (*speciální mateřské školy*), xüsusi məktəblər, köməkçi məktəblər (*pomocné školy*), texniki-peşə məktəbləri (*odborná učiliště*) və praktiki təlim məktəbləri (*praktické školy*).

35. 6-cı maddənin 2-ci bəndinə görə əgər məktəbdə təhsil aldığı müddətdə şagirdin əlillik vəziyyətində dəyişiklik baş verirdisə və ya ixtisaslaşdırılmış məktəb daha əlillik səviyyəsinə uyğun

gəlmirdisə, şagirdin təhsil aldığı məktəbin direktorundan şagirdin nümayəndəsi ilə sorğu keçirdikdən sonra onun başqa ixtisaslaşdırılmış məktəbə və ya ümumtəhsil məktəbinə keçirilməsi barədə tövsiyə etməsi tələb olunurdu.

36. 7-ci maddənin 1-ci bəndinə görə şagirdi o cümlədən xüsusi məktəbə yerləşdirmək və ya keçirmək barədə qərar şagirdin qəyyumunun razılığı ilə direktor tərəfindən qəbul edilməli idi. 7-ci maddənin 2-ci bəndinə görə şagirdi xüsusi məktəbə yerləşdirmək barədə təklif məktəbin direktoruna şagirdin qəyyumu, şagirdin təhsil aldığı məktəb, təhsil-psixologiya mərkəzi, xəstəxana və ya klinika, ailə və uşağın rifahı üçün məsuliyyət daşıyan dövlət orqanı, tibb mərkəzi və digərləri tərəfindən edilə bilərdi. Şagird xüsusi məktəbdə yerləşdirilmədiyi təqdirdə məktəb direktoru 7-ci maddənin 3-cü bəndinə uyğun olaraq onun qəyyumu və aidiyyəti məktəb idarəsinə, yaxud şagirdin daimi yaşadığı ərazinin bələdiyyəsinə qəbul edilmiş qərar barədə məlumat verməli idi. Bu zaman təhsil idarəsi bələdiyyə ilə məsləhətləşmələrdən sonra şagirdin məcburi təhsil almalı olduğu məktəbə dair təklif verməli idi. 7-ci maddənin 4-cü bəndi təhsil-psixologiya mərkəzindən qərarın qəbul edilməsi üçün zəruri olan bütün sənədləri toplamağı və seçiləcək məktəbin növü barədə direktora tövsiyə verməyi tələb edirdi.

### D. Təhsildə xüsusi qayğıya ehtiyacı olan və istedadlı uşaqların, şagirdlərin və tələbələrin təhsili haqqında 73/2005 nömrəli fərman

37. Fərmanın 1-ci bəndinə görə təhsildə xüsusi qayğıya ehtiyacı olan şagirdlər və tələbələr ümumtəhsil məktəblərində mövcud olan fərdi təhsil və təşkilati tədbirlərdən artıq və ya onlardan fərqli olan tədbirlərin dəstəyi ilə təhsil almalıdırlar.

38. 2-ci maddəyə görə təhsildə xüsusi qayğıya ehtiyacı olması məşvərətçi təhsil mərkəzləri tərəfindən həyata keçirilən təhsil imtahanı və ya psixoloji imtahan vasitəsilə müəyyən edilmiş uşaqlar xüsusi təhsil sistemində yerləşdirilmələri üçün əsas verən açıq və zəruri ehtiyaclar olduğu təqdirdə xüsusi məktəbdə təhsil alırlar.

### E. Şikayətin aid olduğu dövrdə ölkə daxili təcrübə

#### *1. Psixoloji imtahan*

39. Uşağın qəyyumunun razılığı ilə təhsil-psixologiya mərkəzində onun intellektual qabiliyyətinin yoxlanılması məcburi və ya avtomatik deyildi. Uşağın imtahandan keçməsi ilə bağlı tövsiyə əsas etibarı ilə o, məktəbə qəbul olunan zaman müəllim və ya adi ibtidai məktəbdə təhsil aldığı vaxt çətinliklər üzə çıxdığı təqdirdə həkim-pediatr tərəfindən verilirdi.

40. Bu sahədə mütəxəssislərə istinad edən ərizəçilərin sözlərindən belə görünür ki, ən çox istifadə olunmuş imtahanlar Uşaqların İntellektinin Yoxlanılması üçün Veksler Şkalası (PDW və WISC-III) və Stənford-Bine İntellekt Şkalasının müxtəlif variantları olmuşdur. Müxtəlif rəylərə, o cümlədən müəllim və psixoloqların, Çex Təhsil Nazirliyinin Xüsusi Məktəblər şöbəsinin rəhbərinin rəyinə (1999-cu ilin fevralı) istinadən ərizəçilər qeyd etmişlər ki, istifadə edilən imtahanlar obyektiv və ya etibarlı olmamışdır, belə ki, onlar yalnız Çex uşaqlar üçün tərtib edilmiş və qaraçı uşaqların istifadəsi üçün standartlaşdırılmamış və ya təsdiq edilməmişdir. Bundan əlavə, qaraçı uşaqların imtahanlar zamanı mədəniyyət və ya dil sahəsində düşdükləri əlverişsiz vəziyyətin öhdəsindən gəlmələri üçün heç bir tədbir görülməmişdir. Eyni zamanda imtahanların keçirilməsi və nəticələrin şərhi ilə bağlı administrasiyaya verilmiş sərbəstliyin məhdudlaşdırılması üçün də hər hansı təlimat verilməmişdir. Ərizəçilər həmçinin ciddi əqli qüsurları olmayan uşaqların hələ də xüsusi məktəblərdə yerləşdirilməsinin qeyd olunduğu və 2002-ci ildə Çex Məktəbləri Müfəttişliyi tərəfindən hazırlanmış hesabata da diqqət çəkmişlər.

41. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyanın 25-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq Çex Respublikası tərəfindən 1999-cu ilin 1 aprel tarixində təqdim edilmiş hesabatda

qeyd edilmişdir ki, psixoloji imtahanlar "əhalinin əksəriyyəti üçün nəzərdə tutulmuş və burada qaraçıların xüsusiyyətləri diqqətə alınmamışdır".

Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitə 2002-ci ilin 25 yanvar tarixində dərc edilmiş Çex Respublikası üzrə birinci hesabatında bildirmişdir ki, bu məktəblər əqli cəhətdən qüsurlu olan uşaqlar üzün nəzərdə tutulsa da, belə görünür ki, əqli cəhətdən qüsuru olmayan bir çox qaraçı uşaqlar qaraçılar ilə əhalinin əksəriyyəti arasında dil və mədəniyyətdə mövcud olan və ya mövcud olması ehtimal edilən fərqlərə görə bu məktəblərdə yerləşdiriliblər. Komitə vurğulamışdır ki, "uşaqlar yalnız bunun tam zəruri olduğu hallarda və daim ardıcıl, obyektiv və hərtərəfli imtahanlar əsasında belə xüsusi məktəblərdə yerləşdirilməlidirlər".

Çex Respublikasına dair 2005-ci ilin 26 oktyabr tarixində dərc edilmiş ikinci hesabatında Məşvərətçi Komitə qeyd etmişdir: "Məktəbə qəbul zamanı uşaqların intellektual qabiliyyətlərinin qiymətləndirilməsi üçün istifadə olunan imtahanlar və metodlara artıq dəyişiklik edilərək onlardan qaraçı uşaqların zərərinə istifadə edilməsinin qarşısının alınması təmin olunmuşdur". Lakin o, narahatlıq hissi ilə qeyd etmişdir ki, "bu kontekstdə istifadə olunan psixoloji testlərdə dəyişiklik edilməsi əhəmiyyətli təsirə malik olmamışdır. Qeyri-rəsmi hesablamalara görə xüsusi məktəblərdə təhsil alan şagirdlərin 70 faizinə qədərini qaraçılar təşkil edir və qaraçıların əhalinin digər hissəsinə münasibətdəki faiz nisbətinə nəzər saldıqda təcrübədə istifadə olunan imtahanların etibarlılığı və müvafiq metodologiya ilə bağlı şübhələr yaranır".

42. 2000-ci ilin 21 mart tarixində Çex Respublikası ilə bağlı hesabatını dərc edən İrqçilik və Dözümsüzlük əleyhinə Avropa Komissiyası (İDAK) qeyd etmişdir ki, məlumatlara görə qaraçı uşaqların xüsusi məktəblərə göndərilməsi tez-tez demək olar ki, avtomatik surətdə baş verir. İDAK-a görə bu uşaqlar tərəfindən məktəbəqədər qabiliyyət imtahanlarında zəif nəticələr göstərilməsi Çex Respublikasında qaraçı uşaqların əksəriyyətinin uşaq bağçalarında təhsilə cəlb olunmamağı ilə izah edilə bilər. Buna görə də İDAK hesab etmişdir ki, qaraçı uşaqların əqli qüsurları olan uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərə göndərilməsi praktikası imtahanların ədalətli keçirilməsi və hər bir uşağın əsl qabiliyyətinin lazımı qaydada qiymətləndirilməsinin təmin olunması üçün hərtərəfli surətdə araşdırılmalıdır.

2004-cü ilin iyununda dərc edilmiş Çex Respublikası ilə bağlı növbəti hesabatında İDAK qeyd etmişdir ki, uşağın intellektual səviyyəsinin qiymətləndirilməsi üçün Çex Təhsil Nazirliyi tərəfindən hazırlanmış test imtahanları məcburi xarakter daşımır və məşvərətçi təhsil mərkəzlərinə tövsiyə olunan vasitə və metodlar kompleksidir.

43. İnsan Hüquqları üzrə Komissarlığın Qaraçılar, Sintilər və Səyyahların insan hüquqlarının vəziyyətinə dair 2006-cı ilin 15 fevral tarixində dərc edilmiş son hesabatında qeyd olunmuşdur: "Qaraçı uşaqlar çox vaxt adekvat psixoloji və ya pedaqoji qiymətləndirmə aparılmadan xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş məktəblərə yerləşdirilirlər və bu zaman real meyar kimi açıq-aşkar onların etnik mənşəyi götürülür."

44. "Addımbaaddım" Beynəlxalq Assosiasiyası, Qaraçıların Təhsil Fondu və Erkən Uşaq Təhsilinin Araşdırılması üzrə Avropa Assosiasiyası tərəfindən təqdim edilmiş qeydlərdə göstərilmişdir ki, şərqi-mərkəzi və cənub-şərqi Avropa ölkələrində "qüsur" (tələbələrin xüsusi məktəblərdə yerləşdirilməsi ilə bağlı kontekstdə) anlayışı yoxdur və burada qüsurun müəyyən formalarının uşağın sosial-mədəni mənşəyi ilə bağlı olduğu anlayışlardan istifadə edilir ki, bu da ayrı-seçkilik xarakteri daşıyan təcrübənin tətbiqini mümkün edir. Qüsurları olan uşaqlar barədə məlumat əsasən uşağın əsl xarakteristikasının hərtərəfli qiymətləndirilməsi nəticəsində deyil, inzibati mənbələrdən əldə edilmişdir. Beləliklə, ayrıca təhsil təcrübəsi və vahid imtahanlardan istifadə edilməsi 1990-cı ildə adi hal olmuşdur.

Qeydlərdə iddia edilmişdir ki, qaraçı uşaqların Ostrava bölgəsində xüsusi məktəblərdə yerləşdirilməsi üçün istifadə olunmuş qiymətləndirmə mexanizmi 1990-cı ilin ortalarında çox tanınan səmərəli qiymətləndirmə göstəricilərinə, misal üçün 1987-ci ildə Gənc Uşaqların Təhsili üzrə Milli Assosiasiya (ABŞ) tərəfindən dərc edilmiş göstəricilərə zidd olmuşdur. Hazırda bu göstəricilər Avropanın, o cümlədən Çex Respublikasının təşkilatlarının da daxil olduğu Gənc Uşaqların Təhsili üzrə Qlobal Alyans ilə əlaqələndirilir. Bu göstəricilərə aşağıdakılar daxildir: qiymətləndirmənin həyata keçirilməsi zamanı etik prinsiplər; qiymətləndirmə vasitələrindən

nəzərdə tutulmuş məqsədlər üçün və peşəkar keyfiyyət meyarlarına cavab verəcək tərzdə istifadə edilməsi; qiymətləndirilən uşaqların yaşına və digər xüsusiyyətlərinə uyğun qiymətləndirmənin aparılması; qiymətləndirmə predmetinin inkişaf və təhsil baxımından əhəmiyyətinin tanınması; təhsil prosesinin başa düşülməsi və təkmilləşdirilməsi üçün qiymətləndirmə nəticəsində əldə edilmiş məlumatlardan istifadə edilməsi; real kontekstdə və uşaqların real göstəricilərini əks etdirən vəziyyətlərdə qiymətləndirməyə dair məlumatların əldə olunması; müəyyən dövr ərzində qiymətləndirmək üçün toplanmış məlumatların müxtəlif mənbələrindən istifadə olunması; yoxlamaların təkrar yoxlamalar ilə əlaqəsinin olması; fərdi qaydada həyata keçirilən normativ meylli testlərdən istifadənin məhdudlaşdırılması; qiymətləndirmə prosesinə cəlb olunmuş heyət və ailələrə adekvat informasiyanın verilməsi.

Belə ki, Ostrava bölgəsində qaraçı uşaqların qabiliyyətlərinin qiymətləndirilməsi zamanı onların dil və mədəni xüsusiyyətləri, əvvəlki təhsil təcrübələri, imtahan vəziyyətinin tələbləri ilə tanış olmamaları nəzərə alınmamışdır. Bir deyil, bir neçə məlumat mənbəyindən istifadə olunmuşdur. İmtahan müəyyən müddət ərzində deyil, bir dəfə həyata keçirilmişdir. Məlumatlar uşaqların əsl vərdişlərini göstərə biləcəkləri real və ya etibarlı kontekstdə əldə edilməmişdir. İmtahanlar əsasən fərdi qaydada keçirilmiş və əhalinin digər qrupu üçün tərtib olunmuş normativlər əsasında standartlaşdırılmışdır.

Bu qeydlərdə istinad edilmiş araşdırmalara görə (UNICEF Innocenti Insight (2005); Save the Children (2001),*Denied a future? The right to education of Roma/Gypsy and Traveller children*; D.J. Losen and G. Orfield (2002)) tələbələrin müəyyən qrupunun qeyri-mütənasib şəkildə xüsusi təhsil müəssisələrinə yerləşdirilməsi bir sıra amillərdən, o cümlədən "məktəb rəhbərliyinin instinktiv irqi qərəzliliyi, resursların bölünməsində əhəmiyyətli qeyri-bərabərlik, intellekt səviyyəsinə (IQ) və digər qiymətləndirmə vasitələrinə əsassız dərəcədə verilən böyük önəm və uşağın gələcək taleyi üçün mühüm əhəmiyyət kəsb edən imtahanların keçirilməsi zamanı yaranan stress vəziyyətlərinə məktəb əməkdaşlarının lazımı qaydada reaksiya verə bilməməsi və azlığın valideynləri ilə məktəb rəhbərliyinin əməkdaşlarının imkanları arasında mövcud olan bərabərsizlikdən irəli gəlmişdir". Beləliklə də, psixoloji imtahanlar vasitəsilə məktəbdə yerləşdirmə əsasən müvafiq cəmiyyətdə mövcud olan irqi zəmindəki qərəzliliyi əks etdirir.

45. Hökumət bildirmişdir ki, hazırda psixoloqlar tərəfindən istifadə edilən Avropa normativlərinin unifikasiyası prosesi getməkdədir və dövlət orqanları psixoloji imtahanların universitet təhsili almış müvafiq ixtisaslı ekspertlər tərəfindən ixtisaslaşdıqları sahədə ən son peşəkar və etik standartlar tətbiq edilməklə həyata keçirilməsinin təmin olunması üçün bütün zəruri addımları atmışlar. Bundan əlavə, Təhsil Nazirliyinin xahişi ilə Çex ekspertləri tərəfindən 1997-ci ildə həyata keçirilmiş araşdırma göstərmişdir ki, intellektin yoxlanılması üçün keçirilmiş standart test imtahanlarında (WISC-III) qaraçı uşaqlar qaraçı olmayan Çex uşaqları ilə müqayisədə kifayət qədər aşağı nəticələr əldə etmişlər (IQ şkalası üzrə bir bal).

*2. Xüsusi məktəbdə yerləşdirilməyə razılığın verilməsi*

46. İxtisaslaşdırılmış məktəblər haqqında 127/1997 nömrəli fərmana görə qəyyumun razılığı uşağın xüsusi məktəbdə yerləşdirilməsi üçün zəruri şərt kimi çıxış edirdi. Ərizəçilər qeyd etmişlər ki, Çex qanunvericiliyi razılığın yazılı formada olmasını tələb etmir. Eyni zamanda xüsusi məktəblər tərəfindən verilmiş təhsilə və ya uşağın xüsusi məktəbə yerləşdirilməsinin nəticələrinə dair informasiyanın əvvəlcədən verilməsi də tələb olunmurdu.

47. Çex Respublikası ilə bağlı 2000-ci ilin matında dərc edilmiş hesabatında İDAK bildirmişdir ki, qaraçı valideynlər qismən uşaqlarının ümumtəhsil məktəblərində qeyri-qaraçı uşaqlar tərəfindən incidilməsinin və uşağın digər qonşu qaraçı uşaqlardan təcrid olunmasının qarşısını almaq, qismən isə təhsilə nisbətən az maraq göstərdikləri üçün uşaqlarını xüsusi məktəblərə göndərməyin tərəfdarı olmuşlar.

Çex Respublikası ilə bağlı 2004-cü ilin iyununda dərc edilmiş hesabatında İDAK bildirmişdir ki, razılıq verib-verməmək barədə qərar qəbul edən zaman qaraçı uşaqların valideynləri "uşaqlarını belə məktəblərə göndərməyin uzun müddətli nəticələri barədə məlumata malik olmurlar" və bu,

"əsasən valideynlərə uşaqlarına xüsusi qayğı göstərilməsi və digər qaraçı uşaqlar ilə birlikdə təhsil almaq imkanı kimi təqdim edilir".

48. İnsan Hüquqları üzrə Beynəlxalq Federasiyanın Çex filialından əldə etdiyi informasiyaya görə Çex Respublikasındakı bir çox məktəblər qaraçı uşaqları qəbul etməyə meylsiz olurlar. Belə meylsizlik qeyri-qaraçı uşaqların valideynlərinin reaksiyası ilə izah olunur. Belə ki, bu reaksiya bir çox halda valideynlərin qaraçı uşaqların gəlməsi ilə məktəbin səviyyəsinin aşağı düşəcəyindən qorxmaları, bəzən isə sadəcə olaraq qaraçılara qarşı qərəzli münasibət göstərmələri ilə bağlı olaraq ümumi məktəblərdən uşaqlarını geri götürmələri formasında ifadə olunmuşdur. Məhz bu kontekstdə qaraçı uşaqlar qabiliyyət imtahanlarından keçirlər ki, bunun da nəticəsində onların valideynləri uşaqlarını xüsusi məktəblərə göndərməyə təşviq edilirlər. Valideynlər uşaqlarını xüsusi məktəbə göndərmək ilə bağlı seçim etdikləri təqdirdə bu seçim məktəb rəhbərliyinin məktəbə çox qaraçı uşaq qəbul etməmək arzusu ilə üst-üstə düşür, belə ki, məktəb rəhbərliyinin fikrincə qaraçı uşaqların onların məktəblərinə qəbulu qeyri-qaraçı uşaqların valideynlərinin uşaqlarını məktəbdən çıxarmağa sövq edə bilər.

### 3. *Nəticələr*

49. Xüsusi məktəblərin şagirdləri intellektual qabiliyyətlərinə uyğunlaşdırılması güman edilən xüsusi təhsil proqramına uyğun olaraq təhsil alırlar. Bu cür məktəbdə məcburi təhsil kurslarını başa vurduqdan sonra onlar təhsillərini texniki-peşə mərkəzlərində və ya 2000-ci ilin 18 fevralından başlayaraq başqa növ orta məktəbdə (bir şərtlə ki, onlar seçdikləri kursa daxil olmaq üçün mövcud olan tələblərə cavab versinlər) davam etdirə bilərlər.

Bundan əlavə, 127/1997 nömrəli fərmanın 6-cı maddəsinin 2-ci bəndində müəyyən edilmişdir ki, əgər şagirdin məktəbdə təhsil aldığı müddətdə onun qüsurlarının təbiətində dəyişiklik baş verərdisə və ya ixtisaslaşdırılmış məktəb artıq şagirdin qüsur səviyyəsinə uyğun gəlmirdisə, uşağın və ya şagirdin təhsil aldığı məktəbin direktoru onun qəyyumu ilə sorğu apardıqdan sonra şagirdin başqa bir ixtisaslaşdırılmış məktəbə, yaxud da ümumtəhsil məktəbinə keçirilməsi barədə qərar qəbul etməli idi.

50. İnsan Hüquqları üzrə Komissarlığın Qaraçı, Sinti və Səyyahların insan hüquqlarının vəziyyətinə dair 2006-cı il 15 fevralda dərc etdiyi son hesabatda bildirilirdi: "Xüsusi məktəblərə və ya kurslara göndərilmək çox zaman o deməkdir ki, bu uşaqlar əsas siniflərə nisbətdə daha aşağı təhsil proqramı üzrə təhsil alırlar və bu da ki, onların gələcəkdə təhsil və iş tapmaq imkanlarını azaldır. Qaraçı uşaqların avtomatik olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş siniflərə yerləşdirilməsi qaraçı uşaqların intellekt və qabiliyyət baxımdan daha aşağı səviyyədə olmaları barədə yanlış mülahizələri daha da gücləndirir. Eyni zamanda, belə ayrı-seçkilik xarakteri daşıyan təhsil sistemi həm qaraçı, həm də qaraçı olmayan uşaqları bir-birini tanımaq və bərabər hüquqlu vətəndaşlar kimi yaşamaq imkanından məhrum edir. Bu, qaraçı uşaqları həyatlarının lap əvvəlindən cəmiyyətin həyatından kənarda qoyur və onların tilsimlənmiş marginallaşma mühitinə düşməsi təhlükəsini artırır."

51. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitənin Çex Respublikasına dair 2005-ci ilin 26 oktyabr tarixində dərc edilmiş ikinci hesabatında qeyd edilmişdir ki, xüsusi məktəblərə yerləşdirmə "qaraçı uşaqların başqa təhsil səviyyəsinə keçməsini daha da çətinləşdirir və bununla da onların cəmiyyətə inteqrasiya olunmaq imkanlarını azaldır. Qanunvericiliyin artıq uşaqların "xüsusi məktəblərdən" adi orta məktəblərə keçidi üçün heç bir maneə yaratmadığına baxmayaraq, "xüsusi məktəblər" tərəfindən təklif olunan təhsilin səviyyəsi orta məktəbin tələblərinə uyğun gəlməyə imkan vermir, buna görə də çoxları bu məktəbləri tərk edirlər".

52. "Addımbaaddım" Beynəlxalq Assosiasiyası, Qaraçıların Təhsil Fondu və Erkən Uşaq Təhsilinin Araşdırılması üzrə Avropa Assosiasiyası tərəfindən təqdim edilmiş qeydlərə görə uşaqların ayrı-seçkilik xarakteri daşıyan xüsusi məktəblərdə yerləşdirilməsi tələbələrin çox erkən mərhələdə "taleyinin həll edilməsi" xarakteri daşıyır. Konkret halda bu, özünü "aşağı qabiliyyətli" və ya "aşağı potensiallı" hesab edilən uşaqların erkən yaşlardan xüsusi məktəblərə

yerləşdirilməsində təzahür olunur. Belə təcrübələr təhsil sahəsində mövcud olan bərabərsizliyi artırır, belə ki, onlar imtiyazsız vəziyyətdə olan uşaqların nailiyyətlərinə mənfi təsir göstərir (o cümlədən bax: Avropa Birliyi Komissiyasının Avropada təhsil və təlim sistemlərində səmərəlilik və bərabərlik mövzusunda Şuraya və Avropa Parlamentinə ünvanlanmış Komyunikesi (COM/2006/0481, 8 September 2006)). "Talenin müəyyən edilməsinin" uzun müddətli nəticələrinə şagirdlərin təhsilin və təlimin az nüfuza malik olan formalarına yönəldilmələri və şagirdlərin erkən vaxtlarda məktəbləri tərk etmələri də daxildir. Beləliklə, bu, uğursuzluğun sosial konstruksiyasını yarada bilər.

53. Azlıqların Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Qrup, İrqçilik Əleyhinə Avropa Şəbəkəsi və Qaraçıların Vəziyyəti üzrə Avropa İnformasiya Ofisi öz qeydlərində bildirmişlər ki, xüsusi məktəblərdə şagirdlər sadə təhsil proqramına uyğun olaraq təhsil alırdılar və bu da onların aşağı inkişaf səviyyəsinə uyğun hesab edilirdi. Belə ki, Çex Respublikasında xüsusi məktəblərdə təhsil alan uşaqlardan üçüncü və ya dördüncü sinfə qədər əlifbanı bilmələri və ya birdən ona qədər saymağı bacarmaları tələb olunmurdu, halbuki onların ümumtəhsil məktəblərində oxuyan həmyaşıdları bu bilikləri birinci sinifdə alırdılar.

## III. AVROPA ŞURASININ SƏNƏDLƏRİ

### A. Nazirlər Komitəsi

*Avropada qaraçı uşaqların təhsilinə dair Nazirlər Komitəsinin üzv dövlətlərə R (2000) 4 nömrəli Tövsiyəsi (Nazir Müavinlərinin 2000-ci il 3 fevral tarixində keçirilmiş 696-cı iclasında qəbul edilmişdir)*

54. Tövsiyədə qeyd olunur:

"Nazirlər Komitəsi Avropa Şurasının Statutunun 15.*b* maddəsinin əsasında,

Avropa Şurasının məqsədinin onun üzvləri arasında daha sıx birliyə nail olmaq olduğunu və təhsil sahəsində birgə fəaliyyət həyata keçirməklə bu məqsədə çatmağın xüsusilə mümkün olduğunu nəzərə alaraq,

Xüsusilə qaraçı əhalisi arasında savadsızlığın və ya orta savadlılığın yüksək səviyyədə olması, təhsildən bir çox hallarda uzaqlaşmaları, məcburi ibtidai təhsili başa vuran tələbələrin faizinin aşağı olması və məktəbdə davamiyyətin daim aşağı səviyyədə olması fonunda onların Avropada gələcək təhsil strategiyaları üçün yeni əsasların qoyulmasına böyük ehtiyac duyulduğunu qəbul edərək,

Qaraçıların təhsil sahəsində üzləşdikləri problemlərin keçmişdə təhsil sahəsində uzun müddət ərzində yürüdülmüş və onların assimilyasiyasına, yaxud "sosial və ya mədəni qüsurlarının" olması mülahizəsi ilə məktəbdə ayrı-seçkiliyə məruz qalmasına səbəb olmuş siyasətin nəticəsi olduğunu qeyd edərək,

Təhsil sahəsində qaraçılar üçün bərabər imkanlar yaradılmadan qaraçıların Avropadakı əlverişsiz vəziyyətdə olmasının aradan qaldırılmasının mümkün olmadığını nəzərə alaraq,

Qaraçıların təhsilinin milli siyasətdə onlara münasibətdə prioritet məsələ olmalı olduğunu nəzərə alaraq,

Qaraçıların üzləşdikləri problemlərin həll edilməsinə yönələn siyasətin hərtərəfli olması, qaraçı uşaqların təhsil məsələsinin çoxlu sayda başqa amillər və zəminlər ilə, xüsusilə iqtisadi, sosial və mədəni aspektlər və irqçiliyə və ayrı-seçkiliyə qarşı mübarizə ilə bağlı olduğunun başa düşülməsinə əsaslanmalı olduğu nəzərə alınaraq,

Qaraçı uşaqlara münasibətdə həyata keçirilən siyasətin fəal yeniyetmə təhsili və texniki-peşə təhsili siyasəti ilə dəstəklənməli olduğunu nəzərə alaraq;

...

Tövsiyə edir ki, üzv dövlətlər təhsil sahəsində siyasətlərini həyata keçirən zaman:

- bu Tövsiyəyə əlavə edilmiş prinsipləri əsas tutmalı;
- müvafiq milli kanallar vasitəsilə bu Tövsiyəni öz ölkələrinin aidiyyəti dövlət orqanlarının nəzərinə çatdırmalıdırlar.”

55. R (2000) 4 nömrəli Tövsiyəyə Əlavənin müvafiq maddələrində qeyd edilir:
“Avropada qaraçıların təhsil siyasətləri üçün rəhbər prinsiplər
I. Qurumlar

1. Qaraçı uşaqlar üçün təhsil siyasəti Avropada qaraçı əhalinin müxtəlifliyinə cavab vermək üçün zəruri olan və köçəri, yaxud yarım köçəri həyat tərzi yaşayan qaraçı qrupların mövcudluğunu nəzərə alan adekvat resurslar və çevik qurumlar ilə müşayiət olunmalıdır. Bu baxımdan, yeni kommunikasiya texnologiyalarına əsaslanaraq məsafədən təhsildən istifadə edilməsi nəzərdən keçirilə bilər.

2. Səylərin səpələnməsinin qarşısının alınması və qarşılıqlı əlaqənin inkişaf etdirilməsi məqsədilə beynəlxalq, milli, regional və yerli səviyyələrdə daha yaxşı əlaqələndirmənin həyata keçirilməsi zəruriliyinə diqqət verilməlidir.

3. Bu məqsədlə üzv dövlətlər təhsil nazirliklərinin qaraçı uşaqların təhsili məsələsinə həssas yanaşmalarını təmin etməlidirlər.

4. Qaraçı uşaqların məktəbə qəbul edilməsini təmin etmək məqsədilə məktəbəqədər təhsil kursları geniş şəkildə inkişaf etdirilməli və onların bu kurslara daxil olmaları mümkün olmalıdır.

5. Zəruri olduqda qaraçı icmasından olan vasitəçilərdən istifadə etməklə valideynlər ilə daha yaxşı əlaqənin qurulması işinə xüsusi diqqət verilməlidir. Bu, xüsusi karyera imkanlarının yaranmasına səbəb ola bilər. Valideynlər ilə məktəblər arasında qarşılıqlı anlaşma olmalıdır. Valideynlərin prosesdən kənarda saxlanılması, onların savadı və təhsilinin olmaması (hətta savadsızlığı) da uşaqları təhsil sistemindən yararlanmaqdan çəkindirir.

6. Qaraçı uşaqların xüsusilə pozitiv hərəkətlər vasitəsilə məktəbdə bərabər imkanlardan istifadə etmələrinə imkan yaratmaq məqsədilə müvafiq dəstək verən qurumlar təsis edilməlidir.

7. Qaraçı uşaqlar ilə əksəriyyəti təşkil edən uşaqlar arasında fərqi aradan qaldırmaq məqsədilə üzv dövlətlər yuxarıda qeyd olunan siyasət və tədbirlərin həyata keçirilməsi üçün zəruri vasitələr təqdim etməyə dəvət olunurlar.

II. Təhsil proqramı və təhsil materialı

8. Qaraçı uşaqlara münasibətdə təhsil siyasəti qaraçı mədəniyyətinin özünə məxsusluğu və qaraçıların əksəriyyətinin üzv dövlətlərdə əlverişsiz vəziyyətdə olmaları nəzərə alınaraq, daha geniş mədəniyyətlər arası siyasət çərçivəsində həyata keçirilməlidir.

9. Buna görə də təhsil proqramı və təhsil materialı elə tərtib olunmalıdır ki, qaraçı uşaqların mədəni özünə məxsusluğu nəzərə alınsın. Qaraçı uşaqların mədəni özünə məxsusluğunun əks etdirilməsi üçün təhsil materiallarında qaraçıların tarixi və mədəniyyəti təqdim olunmalıdır. Qaraçıların tarixi, mədəniyyəti və ya dili üzrə təhsil materialının hazırlanmasında qaraçıların nümayəndələrinin iştirakı təşviq edilməlidir.

10. Bununla belə, üzv dövlətlər təmin etməlidirlər ki, bu, ayrı siniflərin yaradılmasına gətirib çıxaracaq əlahiddə təhsil proqramının formalaşmasına səbəb olmasın.

11. Üzv dövlətlər həmçinin qaraçı uşaqlar ilə gündəlik işində müəllimlərə yardımçı olmaq üçün müsbət təcrübələrə əsaslanan təhsil materialının hazırlanmasını təşviq etməlidirlər.

12. Qaraçı dilinin danışıldığı ölkələrdə qaraçı uşaqlara məktəbdə ana dilində təhsil almaq imkanları təklif olunmalıdır.

III. Müəllimlərin işə qəbulu və təlimi

13. Qaraçı uşaqları daha yaxşı başa düşmək üçün gələcək müəllimlərə xüsusi bilik verilməsi və təlim keçirilməsi vacibdir. Bununla belə, qaraçı uşaqların təhsili ümumi təhsil sisteminin tərkib hissəsi olaraq qalmalıdır.

14. Qaraçı icması bu təhsil proqramlarının tərtib olunması işində iştirak etməli və gələcək müəllimlərə məlumatın çatdırılması işinə birbaşa cəlb olunmalıdır.

15. Qaraçı icmasından müəllimlərin işə qəbul olunması və onlara təlim keçirilməsinə də dəstək verilməlidir.

... ”

**B. Parlament Assambleyası**

*1. Avropada qaraçıların vəziyyətinə dair 1203 (1993) nömrəli Tövsiyə*

56. Parlament Assambleyası digər məsələlər ilə yanaşı aşağıdakı qeydləri etmişdir:

“1. Avropa Şurasının məqsədlərindən biri həqiqi Avropa mədəni özünə məxsusluğunun yaranmasına təkan verməkdir. Avropada bir çox mədəniyyətlər, o cümlədən azlıqların mədəniyyəti sığınacaq taparaq Avropanın mədəni müxtəlifliyini zənginləşdirmiş və ona töhfə vermişdir.

2. Azlıqlar arasında qaraçılar xüsusi yer tutur. Bütün Avropada səpələnmiş şəkildə yaşayan və özlərinə məxsus hesab olunacaq ölkəyə malik olmayan qaraçılar Avropanın əsl azlıqda qalan, lakin milli və ya dil azlığı anlayışına uyğun gəlməyən əhalisidir.

3. Hər hansı əraziyə bağlılığı olmayan azlıq kimi qaraçılar Avropanın mədəni müxtəlifliyinə böyük töhfə verir. Bu töhfə Avropanın fərqli məkanlarında fərqli şəkildə, dil və musiqi və ya ticarət və sənətkarlıq vasitəsilə verilir.

4. Mərkəzi və şərqi Avropa ölkələrinin Avropa Şurasının üzvü olmasından sonra bu məkanda yaşayan qaraçıların sayı əhəmiyyətli dərəcədə artmışdır.

5. Qaraçılara qarşı başqalarının dözümsüzlüyü illərlə mövcud olmuşdur. Bununla belə, irqi və ya sosial nifrətin qızışması daha da müntəzəm surətdə baş verir və icmalar arasındakı gərgin münasibətlər hazırda qaraçıların əksəriyyətinin acınacaqlı vəziyyətdə yaşaması ilə nəticələnmişdir.

6. Vəziyyətin yaxşılaşdırılması üçün qaraçıların hüquqlarına, fərdi, əsas və insan hüquqlarına və onların azlıq kimi hüquqlarına hörmət edilməsi mühüm əhəmiyyət kəsb edir.

7. Onların vəziyyətinin yaxşılaşdırılması üçün bərabər hüquqlar, imkanlar, rəftar və tədbirlərin təmin olunması qaraçı dili və mədəniyyətinin dirçəlməsini mümkün edəcək, beləliklə də, Avropanın mədəni müxtəlifliyini zənginləşdirəcəkdir.

8. Hüquq və azadlıqlardan istifadənin İnsan Hüquqları haqqında Avropa Konvensiyasının 14-cü maddəsində təsbit olunmuş təminatları qaraçılar üçün vacibdir, belə ki, bu, onlara fərdi hüquqlarını qorumaq imkanı verir.

.... ”

57. Təhsil ilə bağlı Tövsiyədə qeyd olunur:

“...

vi. qaraçılara tədris verən müəllimlərin təlim keçməsi üçün Avropada mövcud olan proqramlar genişləndirilməlidir;

vii. ümumilikdə qadınların təhsilinə və anaların gənc övladları ilə birgə təhsilinə xüsusi diqqət verilməlidir;

viii. istedadlı gənc qaraçılar təhsil almağa və qaraçılar ilə münasibətlərdə vasitəçi rolunu oynamağa təşviq edilməlidirlər;

...”

*2. Avropada qaraçıların hüquqi vəziyyətinə dair 1557 (2002) nömrəli Tövsiyə*

58. Tövsiyədə digər məsələlər ilə yanaşı qeyd olunur:

“...

3. Hazırda qaraçılar hələ də ayrı-seçkiliyə, marginallaşmağa və seqreqasiyaya məruz qalırlar. Ayrı-seçkilik ictimai və şəxsi həyatın bütün sahələrində, o cümlədən ictimai yerlərə daxil olma, təhsilə, işə qəbul olma, səhiyyə xidmətlərindən və mənzillərdən istifadə, həmçinin sərhəd keçmə və sığınacaq verilməsi prosedurlarından istifadə kimi sahələrdə geniş yayılmışdır. Qaraçıların marginallaşması, iqtisadi və sosial seqreqasiyası etnik ayrı-seçkiliyə çevrilir ki, bu da adətən əhalinin ən zəif sosial qruplarına təsir göstərir.

4. Qaraçılar ikili azlıq statusuna malik olduqları üçün xüsusi azlıq qrupunu təşkil edirlər. Onlar etnik icmadırlar və əksəriyyəti cəmiyyətin sosial cəhətdən imtiyazsız qrupuna daxildir.

...

15. Avropa Şurası qaraçıların hüquqi statusu, bərabər hüquqluluğu və həyat şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynaya bilər və bu rolu oynamalıdır. Assambleya üzv dövlətləri Avropada qaraçıların vəziyyətinin yaxşılaşdırılması üçün zəruri olan altı ümumi şərtə əməl etməyə çağırır:

...

*c*. təhsil, iş və yaşayış yeri ilə təminat, səhiyyə və ictimai xidmətlər sahələrində qaraçı azlığı ilə etnik və milli azlıq kimi bərabər rəftar edilməsinin təmin olunması. Üzv dövlətlər aşağıdakılara xüsusi diqqət yetirməlidirlər:

i. əmək bazarında qaraçılar üçün bərabər imkanlar yaradılmasına təkan verilməsi;

ii. qaraçı uşaqlara bağçadan başlayaraq universitetə qədər bütün təhsil mərhələlərində iştirak etmək üçün imkan yaradılması;

iii. ibtidai və orta məktəblər, sosial rifah mərkəzləri, yerli ilkin tibbi xidmət mərkəzləri və yerli idarəçilik kimi qaraçı icması ilə birbaşa bağlılığı olan ictimai xidmət sahələrinə qaraçıların işə qəbul edilməsi məqsədilə pozitiv addımların atılması;

iv. qaraçı uşaqların ayrı məktəblərdə yerləşdirilməsi ilə bağlı bütün təcrübənin, xüsusilə onların əqli cəhətdən qüsurlu uşaqlar üçün nəzərdə tutulmuş məktəblərə və siniflərə yönəldilməsinin aradan qaldırılması;

*d*. təhsil, iş və mənzil təminatı sahələrində sosial məhrumiyyətlərə məruz qalmış təbəqə, o cümlədən sosial cəhətdən əlverişsiz vəziyyətdə olan icma kimi qaraçılar üçün pozitiv xarakterli tədbirlərin və güzəştli rəftarın müəyyən edilməsi və həyata keçirilməsi;

...

*e*. qaraçıların dili, mədəniyyəti, adət-ənənələri və özünə məxsusluğunun qorunması üçün xüsusi tədbirlərin görülməsi və xüsusi təsisatların yaradılması:

...

ii. qaraçı valideynləri uşaqlarını ibtidai məktəbə, orta məktəbə və ali təhsil almağa, o cümlədən kollec və universitetə göndərməyə təşviq etmə və təhsilin zəruriliyi barədə onlara adekvat məlumat vermə;

...

v. xüsusilə qaraçı əhalisinin çox saylı olduğu bölgələrdə qaraçı əsilli müəllimlərin işə qəbulu;

*f*. irqçilik, ksenofobiya və dözümsüzlüyə qarşı mübarizə aparmaq və yerli, regional, milli və beynəlxalq səviyyələrdə qaraçılara qarşı davranışın ayrı-seçkilik xarakteri daşımamasını təmin etmək;

...

vi. xüsusilə təhsil və əmək sahəsində qaraçılara qarşı ayrı-seçkilik məsələsinə xüsusi diqqət vermək;

...”

### C. İrqçilik və Dözümsüzlük əleyhinə Avropa Komissiyası (İDAK)

*1.* İDAK-ın 3 nömrəli Əsas Siyasi Tövsiyəsi: Qaraçılara qarşı irqçilik və dözümsüzlük ilə mübarizə (İDAK tərəfindən 1998-ci il 6 mart tarixində qəbul edilmişdir)

59. Bu Tövsiyənin müvafiq maddələrində qeyd olunur:

“İrqçilik və Dözümsüzlük əleyhinə Avropa Komissiyası:

...

İrqçilik, ksenofobiya, anti-semitizm və dözümsüzlük ilə mübarizənin insan hüquqlarının qorunması və ona təkan verilməsinin tərkib hissəsi olduğunu, bu hüquqların ümumi və ayrılmaz xarakter daşıdığını və hər hansı fərq qoyulmadan bütün insanlara aid olduğunu xatırladaraq;

İrqçilik, ksenofobiya, anti-semitizm və dözümsüzlük ilə mübarizənin hər şeydən öncə cəmiyyətin zəif üzvlərinin hüquqlarının müdafiəsi məsələsi olduğunu vurğulayaraq;

İrqçilik və ayrı-seçkilik ilə mübarizə çərçivəsində istənilən addımın həyata keçirilməsində əsas diqqətin zərər çəkənə və onun vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməli olduğuna inanaraq;

Qaraçıların bütün Avropada qalmaqda davam edən qərəzli münasibətdən əzab çəkdiklərini, cəmiyyətdə dərin kök salmış irqçiliyin qurbanları olduqlarını, bəzən irqçiliyin və dözümsüzlüyün zorakı təzahürlərinin hədəfi olduqlarını və əsas hüquqlarının müntəzəm şəkildə pozulduğunu, yaxud təhlükə altında qoyulduğunu qeyd edərək;

Qaraçılara qarşı qalmaqda davam edən qərəzli münasibətin sosial və iqtisadi həyatın bir çox sahələrində onlara qarşı ayrı-seçkiliyə səbəb olduğunu və belə ayrı-seçkiliyin qaraçıların əksəriyyətinin cəmiyyətdən təcrid edilməsi işində əsas amil kimi çıxış etdiyini də qeyd edərək;

Dözümlülük prinsipinin dinc birgəyaşayışa imkan verən açıq və plüralist cəmiyyətlərin qorunub saxlanması üçün təminat rolunda çıxış etdiyinə inanaraq;

üzv dövlətlərin Hökumətlərinə aşağıdakıları etməyi tövsiyə edir: ...

– zəruri qanunvericilik vasitəsilə ayrı-seçkiliyə, həmçinin ayrı-seçkilik xarakteri daşıyan təcrübələrə qarşı mübarizə aparılmasını təmin etmək və bu məqsədlə mülki qanunvericiliyə xüsusilə iş və mənzil ilə təminat və təhsil sahələrində yeni müddəalar daxil etmək;

...

- məktəblərdə qaraçı uşaqlara qarşı ayrı-seçkiliyə yol verilməsinin bütün formaları ilə qətiyyətli mübarizə aparmaq və onların bərabər təhsil hüququndan səmərəli şəkildə istifadə edilməsini təmin etmək;

...”

*2. İrqçilik və irqi diskriminasiyaya qarşı mübarizəyə dair milli qanunvericilik barədə İDAK-ın 7 nömrəli Əsas Siyasi Tövsiyəsi (İDAK tərəfindən 2002-ci il 13 dekabr tarixində qəbul edilmişdir)*

60. Bu tövsiyənin məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

“9a) “irqçilik” dedikdə irq, dərinin rəngi, dil, din, milliyyət və milli, yaxud etnik mənşə kimi əlamətlərin insana və ya insanlar qrupuna nifrət edilməsinə bəraət qazandırmasına olan inam və ya bir insan və ya insanlar qrupunun üstünlüyünə əsaslanan mövqe başa düşülür.

b) “birbaşa irqi ayrı-seçkilik” dedikdə heç bir obyektiv və ya ağlabatan əsaslandırılma olmadan irq, dərinin rəngi, dil, din, milliyyət və milli, yaxud etnik mənşə kimi əlamətlər əsasında

istənilən fərqli rəftar başa düşülür. Fərqli rəftarın, o, qanuni məqsədə xidmət etmədikdə və ya istifadə olunan vasitələr ilə nail olunmasına səy göstərilən məqsəd arasında ağlabatan mütənasiblik olmadıqda, obyektiv və ağlabatan əsaslandırılması olmur.

c) "dolayı irqi ayrı-seçkilik" o zaman mövcud olur ki, irq, dərinin rəngi, dil, din, milliyyət və milli, yaxud etnik mənşə əlaməti üzrə müəyyən edilən qrupa mənsub olan şəxslər norma, meyar və ya təcrübə kimi tamamilə neytral bir amilə əməl edə bilmirlər və ya bu amil belə kateqoriya şəxsləri əlverişsiz vəziyyətə salır (bunun obyektiv və ağlabatan əsaslandırılması olduğu hallardan başqa). Obyektiv və ağlabatan əsaslandırılma o zaman mövcud olur ki, o, qanuni məqsədə xidmət etsin və istifadə olunan vasitələr ilə nail olunmasına səy göstərilən məqsəd arasında ağlabatan mütənasiblik olsun."

61. Bu Tövsiyəyə izahedici memorandumda qeyd edilmişdir ki (8-ci hissə), Tövsiyənin 1-ci bəndinin b) və c) yarımbəndlərində əks olunmuş birbaşa və dolayı irqi ayrı-seçkilik anlayışları Şuranın irqi və etnik mənşəyindən asılı olmayaraq insanlarla rəftarda bərabərlik prinsiplərini həyata keçirən 2000/43/EC nömrəli direktivi və əmək və məşğulluq sahəsində bərabər rəftar üçün ümumi çərçivəni müəyyənləşdirən 2000/78/EC nömrəli direktivində əks olunmuş anlayışlar nəzərə alaraq təsbit edilmişdir.

### *3. Çex Respublikası ilə bağlı 1997-ci ilin sentyabrında dərc olunmuş hesabat*

62. Hesabatın təhsil və təlimin siyasi aspektləri ilə bağlı bölməsində İDAK bəzi qruplar, xüsusilə qaraçı icması ilə bağlı ictimai rəyin müəyyən hallarda neqativ olduğunu bildirmiş və irqçilik və dözümsüzlük ilə əlaqədar məsələlərə dair əhalinin məlumatlandırılması və cəmiyyətdəki bütün qruplara münasibətdə dözümlülüyün yaxşılaşdırılması üçün əlavə tədbirlərin görülməsini təklif etmişdir. O əlavə etmişdir ki, azlıq qruplarının, xüsusilə qaraçı icmasının üzvlərinin təhsili və təlimi ilə bağlı xüsusi tədbirlər görülməlidir.

### *4. Çex Respublikası ilə bağlı 2000-ci ilin martında dərc olunmuş hesabat*

63. Bu hesabatda İDAK bildirmişdir ki, qaraçı icmasının üzvlərinin təhsil sahəsində üzləşdikləri əlverişsiz vəziyyət və ayrı-seçkilik xüsusilə ciddi narahatçılıq yaradır. Qeyd edilmişdir ki, xüsusi məktəblərdə qaraçı uşaqların sayı həddindən çoxdur və onların bu məktəblərdə yerləşdirilməsi əsasən avtomatik şəkildə həyata keçirilir. Qaraçı valideynlər qismən ümumtəhsil məktəblərində övladlarının qeyri-qaraçı uşaqlar tərəfindən təhqirə məruz qalmasının və digər qonşu qaraçı uşaqlardan təcrid olunmasının qarşısının alınması və qismən də təhsilə maraqlarının aşağı səviyyədə olması səbəbindən belə qərarın lehinə olurlar. Sonradan qaraçı uşaqların böyük əksəriyyəti başqa məqsədlər üçün yaradılmış, aşağı səviyyədə təhsil imkanları təklif edən və buna görə də gələcək təhsil və ya məşğulluq üçün məhdud imkanlar yaradan təhsil müəssisələrinə yönəldilmişlər. Çox nadir hallarda qaraçı uşaqlar ibtidai məktəb səviyyəsindən yuxarı səviyyədə təhsillərini davam etdirmişlər.

64. Buna görə də İDAK hesab etmişdir ki, qaraçı uşaqların əqli cəhətdən zəif uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərə yönəldilməsi təcrübəsi tam araşdırılmalı və bütün imtahanların ədalətli şəkildə keçirilməsi və hər bir uşağın əsl qabiliyyətinin lazımi qaydada qiymətləndirilməsi təmin olunmalıdır. İDAK eyni zamanda hesab etmişdir ki, qaraçı valideynlərə uşaqlarının normal təhsil almasının zəruriliyi barədə məlumat verilməlidir. İDAK qeyd etmişdir ki, ümumiyyətlə təhsil ilə bağlı məsələlərin həllinə qaraçı icmasının üzvlərinin daha yaxından cəlb edilməsinə ehtiyac duyulur. Başlanğıc kimi dövlət orqanları qaraçı valideynlərin görülən tədbirlər barədə tam olaraq məlumatlandırılması və uşaqlarının təhsili ilə bağlı qərarların qəbul edilməsi prosesində iştiraka təşviq olunmasının təmin etməlidirlər.

5. *Çex Respublikası ilə bağlı 2004-cü ilin iyununda dərc olunmuş hesabat*

65. Qaraçı uşaqların təhsili ilə bağlı İDAK öz hesabatında bildirmişdir ki, o, qaraçı uşaqların xüsusi məktəblərə göndərilməsinin davam etdirilməsindən narahatçılıq keçirir, belə ki, bu, onları cəmiyyətdən təcrid etməklə yanaşı, həyatları boyu əlverişsiz vəziyyətə düşməsinə səbəb olur. Uşağın intellektual səviyyəsinin qiymətləndirilməsi məqsədilə Çex Təhsil Nazirliyi tərəfindən hazırlanmış standart test imtahanları məcburi xarakter daşımırdı və yalnız məşvərətçi psixologiya mərkəzləri tərəfindən tövsiyə olunmuş vasitə və metodlardan biri kimi çıxış edirdi. Uşağı xüsusi məktəbə göndərmək üçün tələb olunan digər elementə, uşağın qəyyumunun razılığına gəlincə, İDAK müəyyənləşdirmişdir ki, bununla bağlı qərar qəbul edən valideynlərin uşaqlarını belə məktəblərə göndərməyin uzun müddətli mənfi nəticələri barədə məlumatı olmur, belə ki, çox zaman bu, valideynlərə uşaqlarının xüsusi kömək almaq və digər qaraçı uşaqlar ilə birlikdə qalmaq imkanı kimi təqdim edilir. İDAK həmçinin bildirmişdir ki, onlarda qaraçı valideynlərin ümumtəhsil məktəblərindən geri qaytarılmaları barədə də məlumatlar var.

İDAK həmçinin qeyd etmişdir ki, Məktəblər haqqında qanun 2000-ci ilin yanvarında qüvvəyə minmişdir və bu qanuna görə xüsusi məktəbləri bitirmiş şagirdlər orta məktəblərə qəbul üçün müraciət edə bilərlər. Bir çox mənbələrin məlumatına görə bir çox hallarda bu imkan nəzəri xarakter daşımışdır, belə ki, xüsusi məktəblərdə uşaqlar orta məktəb təhsil proqramını qavramaq üçün zəruri olan bilikləri almırlar. Xüsusi məktəb təhsili almış uşaqların adi orta məktəblərə qəbul olmaq üçün zəruri hazırlıq keçməsini təmin edəcək əlavə təhsil almaları məqsədilə reallıqda heç bir tədbir görülməmişdir.

Məktəbəqədər təhsil müəssisələrindəki "sıfır sinif kursları"nın (hazırlıq məşğələlərinin) ümumtəhsil məktəblərinə gedən qaraçı uşaqların sayının artırılmasında qazandığı uğur barədə İDAK-a çox müsbət rəylər daxil olmuşdur. Bununla belə, o, ayrı-seçkilik xarakteri daşıyan təhsilin yeni formada, əsas məktəblərdə xüsusi siniflərin olması formasında saxlanılması meylindən də narahatçılıq keçirir. Bununla bağlı bir çox maraqlı tərəflər yeni təklif edilmiş Məktəblər haqqında qanunun "sosial cəhətdən əlverişsiz vəziyyətdə olanlar" üçün nəzərdə tutulmuş xüsusi proqramların həyata keçirilməsi vasitəsilə qaraçıların daha da ayrı-seçkiliyə məruz qoyulmalarına imkan yaradacağından narahatçılıq keçirdiklərini ifadə etmişlər.

Sonda İDAK bildirmişdir ki, Təhsil Nazirliyi tərəfindən müəyyən təşəbbüslərin həyata keçirilməsinə (sinif otaqları köməkçiləri, müəllimlər üçün təlim proqramları, ibtidai məktəblərin təhsil proqramlarına yenidən baxılması) baxmayaraq, İDAK-ın ikinci hesabatında təsvir edilmiş qaraçıların orta və ali təhsildə aşağı səviyyədə iştirakı problemi qalmaqda davam edir.

## D. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya

1. *Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyanın 25-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq Çex Respublikası tərəfindən 1999-cu ilin 1 aprelində təqdim edilmiş hesabat*

66. Hesabatda bildirilmişdir ki, hökumət ibtidai və xüsusi məktəblərdə hazırlıq məşğələləri açmaqla əsasən sosial və mədəni cəhətdən əlverişsiz mühitdən çıxmış, xüsusilə qaraçı icmasından olan uşaqlar üçün münasib şəraitin yaradılması məqsədilə təhsil sahəsində tədbirlər həyata keçirmişdir. Qeyd olunur ki, "orta və ya ortadan da artıq intellektual səviyyəyə malik olan qaraçı uşaqlar çox zaman psixoloji test imtahanlarının nəticəsində xüsusi məktəblərə yerləşdirilirlər (bu həmişə valideynlərin razılığı ilə baş verir). Bu imtahanlar əhalinin əksər hissəsi üçün nəzərdə tutulmuş və burada qaraçıların xüsusiyyətləri nəzərə alınmamışdır. Bu imtahanların yeni qaydada həyata keçirilməsi üçün iş aparılmaqdadır". Bəzi xüsusi məktəblərdə qaraçılar şagirdlərin ümumi sayının 80 faizindən 90 faizinə qədərini təşkil edirlər"

*2. Çex Respublikası tərəfindən 2004-cü ilin 2 iyul tarixində təqdim edilmiş hesabat*

67. Çex Respublikası qaraçıların ayrı-seçkiliyə və sosial təcridə xüsusilə məruz qaldıqlarını qəbul etmiş və bildirmişdir ki, Şuranın rəftarda bərabərlik prinsipinə dair direktivinin həyata keçirilməsi ilə əlaqədar onun tərəfindən ayrı-seçkiliyə qarşı hərtərəfli tədbirlər hazırlanmaqdadır. Yeni qanunun 2004-cü ildə qüvvəyə minməsi gözlənilir (561/2004 nömrəli qanun 2004-cü il 24 sentyabr tarixində qəbul edilmiş və 2005-ci il 1 yanvarda qüvvəyə minmişdir).

Hesabatda qaraçıların təhsili ilə bağlı qeyd olunmuşdur ki, dövlət qaraçı uşaqlar ilə bağlı hazırkı vəziyyətdə əsaslı dəyişiklik etmək məqsədilə müsbət xarakterli müxtəlif tədbirlər həyata keçirmişdir. Hökumət böyük sayda qaraçı uşaqların xüsusi məktəblərə göndərilməsini qəbul edilməz hesab etmişdir. Müsbət xarakterli tədbirlərin həyata keçirilməsi zərurəti yalnız qaraçı uşaqların qarşılaşdığı sosial-mədəni maneələr ilə deyil, bütünlükdə təhsil sisteminin xüsusiyyətləri və onun mədəniyyətlər arası fərqləri kifayət qədər əks etdirə bilməməsi ilə bağlı idi. Məktəblər haqqında yeni təklif edilmiş qanun “xüsusi məktəbləri” “xüsusi ibtidai məktəblər” ilə əvəz etməklə xüsusi təhsil sisteminə dəyişiklik edəcək və beləliklə də, uşaqlara sosial-mədəni xarakterli maneələri dəf edə bilmələri üçün məqsədli yardım göstərilməsini nəzərdə tutacaqdır. Bura hazırlıq məşğələləri, xüsusi məktəblərdə təhsil alan uşaqlar üçün nəzərdə tutulan fərdi təhsil proqramları, məktəbəqədər təhsil ilə bağlı tədbirlər, qaraçı icmasından olan köməkçilərin rolunun artırılması və müəllimlər üçün xüsusi təlim proqramları daxildir. Qaraçı şagirdlərin üzləşdikləri əsas problemlərdən birinin çex dilini pis bilmələri olduğundan, Təhsil Nazirliyi hesab etmişdir ki, bu sahədə problemlərin ən yaxşı (və yeganə ən real) həlli yolu əlverişsiz sosial-mədəni mühitdən gələn uşaqların məktəbəqədər təhsil mərhələsində hazırlıq məşğələlərinə cəlb edilmələri olardı.

Hesabatda həmçinin ölkədə bu sahədə həyata keçirilmiş bir sıra layihə və proqramların adları (Qaraçıların inteqrasiyasına dəstək, Qaraçıların inteqrasiyası üçün proqram/Çox mədəniyyətli təhsil islahatı və Xüsusi məktəblərdə təhsil alan qaraçı uşaqların ibtidai məktəblərə reinteqrasiyası) çəkilirdi.

*3. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitənin Çex Respublikasına dair 2002-ci il 25 yanvar tarixli rəyi*

68. Məşvərətçi Komitə qeyd etmişdir ki, xüsusi məktəblərin əqli cəhətdən qüsurlu uşaqlar üçün nəzərdə tutulmasına baxmayaraq, belə görünür ki, əqli cəhətdən qüsuru olmayan qaraçı uşaqların çoxu qaraçılar ilə əhalinin əksəriyyəti arasında dil və mədəniyyətdəki real və ya güman edilən fərqlər ilə bağlı olaraq bu məktəblərdə yerləşdirilmişlər. O, bu təcrübənin Çərçivə Konvensiyasına uyğun gəlmədiyini hesab etmiş və vurğulamışdır ki, uşaqların belə məktəblərdə yerləşdirilməsi yalnız buna mütləq zərurət olduqda və daim ardıcıl, obyektiv və hərtərəfli imtahanlar əsasında baş verməlidir.

69. Xüsusi məktəblər qaraçı uşaqların digərlərindən yüksək dərəcədə ayrılmasına və qaraçı icmasının təhsilinin aşağı səviyyədə olmasına səbəb olmuşdur. Bu, Çex hakimiyyət orqanları tərəfindən də etiraf edilmişdir. İstər hökumət orqanları, istərsə də vətəndaş cəmiyyətinin iştirakçıları mühüm islahata ehtiyac olması barədə razılığa gəlmişlər. Bununla belə, həyata keçiriləcək islahatın dəqiq təbiəti, istifadə ediləcək resursların miqdarı və islahatların hansı tezliklə həyata keçirilməli olması barədə fikir ayrılığı mövcud olmuşdur. Məşvərətçi Komitənin fikrinə görə Çex hakimiyyət orqanları islahatı Avropada qaraçı uşaqların təhsilinə dair Nazirlər Komitəsinin R (2000) 4 nömrəli Tövsiyəsinə uyğun olaraq qaraçı uşaqların məktəblərə digərləri ilə bərabər əsasda qəbul olunmasının və ümumi təhsil sahəsində bərabər hüquqluluğun təmin edilməsi üçün maraqlı şəxslər ilə məsləhətləşmələr aparmaqla həyata keçirməlidirlər.

70. Məşvərətçi Komitə digər vasitələr ilə yanaşı qaraçıların çex dili vərdişlərini təkmilləşdirmək yolu ilə əsas məktəb təhsilinə hazırlaşdırılmasına imkan verən sıfır siniflərin təsis edilməsi istiqamətində irəli sürülmüş təşəbbüsləri bəyəndiyini qeyd etmiş və hakimiyyət orqanlarını bu vasitələrdən daha geniş istifadə edilə bilinməsi üçün şərait yaratmağa təşviq etmişdir. O, eyni zamanda məktəblərdə vətəndaş cəmiyyətinin təşəbbüsü əsasında qaraçılardan olan müəllim köməkçiləri vəzifəsinin yaradılmasını ən müsbət addım hesab etmişdir. Məşvərətçi Komitə dövlət

hakimiyyət orqanlarını belə vəzifələri artırmağa və inkişaf etdirməyə təşviq etmişdir. Başqa bir mühüm məqsəd orta məktəbə daxil olan və onu uğurla başa vuran qaraçı uşaqların sayında əhəmiyyətli artıma nail olmaqdır.

### *4. Məşvərətçi Komitənin Çex Respublikası ilə bağlı 2005-ci ilin 26 oktyabrında dərc edilmiş rəyi*

71. Bu rəyində Məşvərətçi Komitə bildirmişdir ki, hakimiyyət orqanları həqiqətən də qaraçı uşaqların təhsili sahəsində vəziyyətin yaxşılaşdırılması ilə bağlı üzərilərinə öhdəlik götürmüş və müxtəlif yollarla bu məqsədi təcrübədə reallaşdırmağa çalışırlar. Bununla bağlı olaraq o qeyd etmişdir ki, Məktəblər haqqında yeni qanunun (561/2004 nömrəli qanun) qaraçı uşaqların xüsusi məktəblərdə və ya xüsusi siniflərdə sayının həddən artıq olması ilə bağlı hazırkı vəziyyətdə əhəmiyyətli dəyişiklik edə bilib-bilməyəcəyini müəyyənləşdirmək hələ çox tezdir.

72. Məşvərətçi Komitə qeyd etmişdir ki, hakimiyyət orqanları qaraçı uşaqların əsassız olaraq xüsusi məktəblərə yerləşdirilməsi məsələsinə xüsusi diqqət ayırır. Məktəbə qəbul zamanı uşaqların intellektual qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə istifadə edilən test imtahanları və metodlardan qaraçı uşaqların ziyanına istifadə edilməməsinin təmin olunması üçün artıq bu imtahan və metodlara yenidən baxılmışdır. Qaraşı uşaqların üzləşdikləri problemlərin həll olunmasına kömək göstərilməsi məqsədilə xüsusi təhsil proqamları tətbiq edilmişdir. Bura məktəbəqədər təhsilin son ili üçün ödənişin ləğvi, sinfin minimal say tərkibinə dair qaydaların sadələşdirilməsi, daha fərdi xarakter daşıyan təhsil, təhsil üzrə köməkçilərin təyin olunması (əsasən qaraçıların sırasından), həmçinin qaraçı uşaqlarla çalışan müəllimlər üçün metodoloji dərsliklər və təlimatların hazırlanması daxildir. Qaraçı uşaqlar üçün məktəbəqədər hazırlıq sinifləri təşkil edilmişdir və bu siniflər kifayət qədər məhdud səviyyədə də olsa, yaxşı fəaliyyət göstərmişlər. Bütün maraqlı uşaqlara aid edilə bilməsi üçün bu tədbirlər daha geniş miqyasda tətbiq edilməlidir. Məşvərətçi Komitə həmçinin qaraçı uşaqların orta və ali təhsilə qəbuluna xüsusi dəstək proqramını və qaraçılardan ibarət ixtisaslı müəllim kollektivinin və təhsil üzrə köməkçilərin formalaşdırılması üçün göstərilən səyləri qeyd etmişdir.

73. Bununla belə Məşvərətçi Komitə qeyd etmişdir ki, qaraçı uşaqların məktəblərdə təhsili vəziyyətinin daimi əsasda monitorinqi və qiymətləndirilməsinin hökumətin prioritetlərindən biri olmasına baxmayaraq, Çex Respublikası tərəfindən təqdim edilmiş hesabatda qaraçı uşaqların hazırda məktəblərə hansı səviyyədə inteqrasiya olunmaları və ya onlar üçün həyata keçirilmiş bir çox tədbirlərin səmərəliliyi və təsirliliyi barədə az məlumat verilmişdir. O, narahatlıq hissi ilə qeyd etmişdir ki, həyata keçirilmiş tədbirlər cüzi irəliləyişlərə səbəb olmuşdur və yerli hakimiyyət orqanları hökumətin məktəbə dəstək proqramını sistematik şəkildə həyata keçirmirlər və onların bu sahədə səmərəli fəaliyyət göstərilməsi üçün zəruri olan qətiyyəti daim mövcud olmur.

74. Məşvərətçi Komitə narahatlıq hissi ilə qeyd etmişdir ki, qeyri-hökumət mənbələrinin verdikləri məlumatlara görə hələ də əhəmiyyətli sayda qaraçı uşaqlar çox erkən yaşlarında xüsusi məktəblərə yerləşdirilirlər və bu kontekstdə istifadə olunan psixoloji test imtahanlarına yenidən baxılması heç də böyük təsirə malik olmamışdır. Qeyri-rəsmi hesablamalara görə bu məktəblərdəki şagirdlərin 70 faizə qədərini qaraçılar təşkil edir və qaraçıların əhalinin ümumi say tərkibindəki faiz nisbəti nəzərə alınarsa, imtahanların və istifadə olunan metodologiyanın mötəbərliyini şübhə altına alır. Bunun qaraçı uşaqların digər təhsil səviyyələrinə keçidinə çətinlik yaratması və beləliklə də, onların cəmiyyətə inteqrasiyası imkanlarını azaltması nəzərə alınarsa, bu vəziyyət daha çox narahatlıq doğurur. Qanunvericilikdə uşaqların xüsusi məktəblərdən ümumtəhsil orta məktəblərinə keçidi üçün məhdudiyyət müəyyən olunmasa da, xüsusi məktəblərin tədris etdiyi təhsilin səviyyəsi ümumilikdə orta təhsilə qəbul tələblərinə uyğun gəlməyə imkan vermir və bu da bir çox hallarda uşaqların məktəbdən çıxmaları ilə nəticələnir. Məktəb təhsilindən kənarda qalan qaraçı uşaqların sayı ilə bağlı məlumatlar fərqli olsa da, məlumdur ki, məktəbə daxil olanlar nadir hallarda ibtidai məktəb səviyyəsindən yuxarı qalxa bilmişlər.

75. Bundan əlavə, Məşvərətçi Komitə qeyd etmişdir ki, Təhsil Nazirliyi tərəfindən maarifləndirmə işinin gücləndirilməsi üçün təşəbbüslərin həyata keçirilməsinə baxmayaraq, orta

məktəblərdə təhsil almış qaraçı uşaqlar digər uşaqlar və müəllim kollektivi tərəfindən təcrid edilmiş, hətta ayrı siniflərə yerləşdirilmişlər. Eyni zamanda, etiraf edilmişdir ki, bəzi məktəblər qaraçıların kompakt şəkildə yaşadıqları ərazilərə yaxın yerləşdiyindən, bu məktəblərdə şagirdlərin əksəriyyəti qaraçı uşaqlar olmuşdular. Digər mənbələrin məlumatlarına görə qaraçıların təhsil aldıqları bəzi məktəblərdə maddi-texniki vəziyyət aşağı səviyyədədir və əksər hallarda onların aldıqları təhsil vəziyyətlərinə kifayət qədər uyğunlaşdırılmamışdır. Bu məktəblərdə də keyfiyyətli təhsilin verilməsinin təmin olunması vacibdir.

76. Məşvərətçi Komitənin fikrincə qaraçı uşaqların ümumtəhsil məktəblərinə yerləşdirilməsi, hazırlıq siniflərinə, həmçinin təhsil üzrə köməkçilərə dəstək və təkan verilməsi prioritet məsələlər olmalıdır. Qaraçı müəllim kollektivinin iş ilə təmin olunması və bütün müəllim heyətinə qaraçı uşaqların spesifik vəziyyəti barədə məlumat verilməsi məsələsinə də diqqət artırılmalıdır. Qaraçıların təhsili ilə bağlı vəziyyətin ümumilikdə yaxşılaşdırılmasının zəruri şərti kimi valideynlərin bu işə, xüsusilə Məktəblər haqqında qanunun həyata keçirilməsi ilə bağlı işlərə fəal surətdə cəlb olunması zəruridir. Son olaraq, istər ümumtəhsil məktəblərində, istərsə də xüsusi məktəblərdə qaraçı uşaqların təcrid olunması ilə mübarizə aparılması üçün daha qətiyyətli addımlar atılmasına ehtiyac var. Əqli qüsurları olan uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərə bu uşaqların əsassız şəkildə yerləşdirilməsinə son qoyulması üçün bütün səviyyələrdə təlimatların verilməsi və təxirəsalınmaz tədbirlərin görülməsi ilə birgə daha aydın yanaşma ifadə olunmalıdır.

## E. İnsan Hüquqları üzrə Komissar

*Avropada Qaraçıların, Sintilərin və Səyyahların İnsan Hüquqlarının Vəziyyətinə dair cənab Alvaro Gil-Roblesin Yekun Hesabatı (2006-cı il 15 fevral)*

77. Hesabatın təhsil sahəsində ayrı-seçkiliyə həsr olunmuş üçüncü bölməsində İnsan Hüquqları üzrə Komissar qeyd etmişdir ki, qaraçı uşaqların əksəriyyətinin digər uşaqlar üçün mövcud olan standartlara oxşar təhsildən yararlana bilməməsi müəyyən mənada ayrı-seçkilik xarakteri daşıyan təcrübənin və qərəzli münasibətin nəticəsi olmuşdur. Bu baxımdan o qeyd etmişdir ki, məktəblərdə ayrı-seçkiliyə yol verilməsi Avropa Şurasının üzvü olan dövlətlərin bir çoxunda rast gəlinən ümumi cəhətdir. Bəzi ölkələrdə ayrı yaşayış məntəqələrində ayrı-seçkiliyə əsaslanan məktəblər, digərlərində isə ümumtəhsil məktəblərində qaraçı uşaqlar üçün xüsusi siniflər fəaliyyət göstərir, yaxud burada qaraçı uşaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş siniflərdə təhsil alırlar. Qaraçı uşaqlar çox zaman müvafiq psixoloji və ya pedaqoji qiymətləndirmə aparılmadan, açıq-aşkar etnik mənşə əsas meyar kimi götürülərək xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş siniflərə yerləşdirilirlər. Xüsusi məktəblərə və ya siniflərə göndərilmə çox zaman o demək idi ki, bu uşaqlar digər siniflərə münasibətdə daha aşağı səviyyəli proqram əsasında təhsil alırdılar, bu isə onların gələcəkdə təhsillərini davam etdirmə və iş yeri tapma imkanlarını azaldırdı. Qaraçı uşaqların avtomatik şəkildə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş siniflərə yerləşdirilməsi onların daha zəif intellektə və qabiliyyətə malik olmaları ilə bağlı yanlış fikirləri daha da gücləndirir. Bununla yanaşı, ayrı təhsil istər qaraçı, istərsə də qeyri-qaraçı uşaqların bir-birlərini tanımaq və bərabər hüquqlu vətəndaşlar kimi yaşamağı öyrənmək imkanlarının qarşısını alır. Bu, qaraçı uşaqları həyatlarının lap başlanğıcından cəmiyyətdən təcrid edir və yanlış marginallaşma mühitinə düşmələri riskini artırır.

78. Komissara bildirilmişdir ki, Çex Respublikasında cüzi əqli qüsuru olan uşaqlar üçün nəzərdə tutulmuş "xüsusi" məktəblərdə və siniflərdə qaraçı icmasının gənc üzvlərinin sayı həddən artıq çoxdur. Eyni zamanda o qeyd etmişdir ki, hakimiyyət ümumtəhsil məktəblərində qaraçı əsilli müəllim köməkçiləri vəzifəsini və ibtidai sinifləri təsis etmişdir və bu təşəbbüslərin zəruri resursların olmaması səbəbindən kiçik miqyasda həyata keçirilməsinə baxmayaraq, çox ümidlər verən nəticələri var. Xüsusilə, sosial cəhətdən əlverişsiz vəziyyətdə olan uşaqlar üçün hazırlıq sinifləri qaraçı uşaqların xüsusi məktəblərə həddən artıq sayda göndərilməsi ilə mübarizə səylərində mərkəzi yer tutmuşdur. Çex hakimiyyət orqanları hesab edirlər ki, uşaq bağçalarına təhkim edilmiş

hazırlıq məktəbləri qaraçı uşaqların ümumtəhsil məktəblərinə inteqrasiyasının asanlaşdırılması işində xüsusi uğur qazanmışdır. 2004-cü ildə Çex Respublikasında qaraçı şagirdlərin xüsusi ehtiyaclarının ödənilməsi üçün 332 müəllim köməkçisi fəaliyyət göstərmişdir.

79. Həmçinin qeyd olunmuşdur ki, qaraçılar üçün xüsusi siniflərin və təhsil proqramlarının yaradılması xoş niyyətdən irəli gəlmiş, dil ilə bağlı əngəllərin aradan qaldırılması, yaxud qaraçı uşaqların məktəbəqədər təhsil müəssisələrində təhsil almamalarının kompensasiya edilməsi məqsədi daşımışdır. Bu çağırışlara cavab verilməsi açıq-aşkar zəruri olmuşdur, lakin bununla belə, qaraçı uşaqların sistematik qaydada sadələşdirilmiş və ya xüsusi qaraçı dilli siniflərə yerləşdirilməsi və bununla da onların digər şagirdlərdən təcrid olunması bariz şəkildə səhv cavab olmuşdur. Seqreqasiyaya yol verməkdənsə, məktəbəqədər və məktəb təhsilinə, linqvistik dəstəyə, həmçinin məktəb köməkçilərinin müəllimlər ilə birgə çalışmasına şərait yaradılması kimi tədbirlərə xüsusi diqqət verilməlidir. Bəzi icmalarda özlərinin məktəbdə təhsil almaq imkanları olmamış qaraçı valideynlərə uşaqlarının lazımı təhsil almalarının zəruriliyi və faydası izah edilməlidir.

80. Sonda Komissar təhsil ilə bağlı bir sıra tövsiyələr irəli sürmüşdür. Ayrı-seçkilik əsasında təhsilin bu və ya digər formada hələ də mövcud olduğu yerlərdə bu təhsil adi ümumi təhsil ilə əvəz olunmalı, münasib olduğu yerlərdə isə qanun vasitəsilə qadağan olunmalıdır. Seqreqasiyaya qarşı səylərin uğurunun təmin olunması məqsədilə məktəbəqədər təhsilin, dil üzrə təlimlərin və məktəb köməkçilərinin təliminin təşkili üçün zəruri resurslardan istifadə olunmalıdır. Xüsusi siniflərə yerləşdirmənin yeganə meyarının uşağın etnik mənşəyi deyil, obyektiv ehtiyacları olmasının təmin edilməsi üçün onu belə sinfə yerləşdirmədən öncə adekvat qiymətləndirmə həyata keçirilməlidir.

## IV. AVROPA BİRLİYİ HÜQUQU VƏ TƏCRÜBƏSİ

81. Ayrı-seçkiliyi qadağan edən və ya rəftarda bərabərliyi tələb edən prinsip Birlik hüququnun bir çox mənbələrində əks olunmuşdur və Avropa Birliyinin təsis edilməsi haqqında müqavilənin 13-cü maddəsinə əsaslanır. Bu müddəa Şuraya Komissiyanın təklifi/tövsiyəsi əsasında və Avropa Parlamenti ilə məsləhətləşmələrdən sonra yekdilliklə qərar qəbul etməklə cins, irq və ya etnik mənşə, din və ya etiqad, əlillik, yaş və ya cinsi orientasiya əlamətləri əsasında ayrı-seçkiliyə qarşı mübarizə istiqamətində zəruri tədbirlər görmək səlahiyyəti verir.

82. Cinsi ayrı-seçkilik ilə bağlı işlərdə sübut etmə vəzifəsi ilə bağlı Şuranın 1997-ci il 15 dekabr tarixli 97/80/EC nömrəli direktivinin 2-ci maddəsinin 2-ci bəndinə görə "dolayı ayrı-seçkilik o halda mövcud olur ki, açıq aşkar neytral müddəa, meyar və ya təcrübə bir cinsin nümayəndələrinin əhəmiyyətli dərəcədə böyük bir hissəsini əlverişsiz vəziyyətə salsın, bir şərtlə ki, bu müddəa, meyar və ya təcrübə münasib və zəruri olmasın və cins ilə bağlı olmayan obyektiv amillər ilə əsaslandırıla bilməsin". Sübut etmə vəzifəsini tənzim edən 4-cü maddənin 1-ci bəndində qeyd olunur: "Üzv dövlətlər milli məhkəmə sistemlərində təsbit olunmuş qaydalara uyğun olaraq zəruri olan bütün tədbirləri görərək təmin etməlidirlər ki, rəftarda bərabərlik prinsipinin onlara münasibətdə tətbiq edilmədiyinə görə özlərini zərərçəkmiş hesab edən şəxslər məhkəmədə və ya digər səlahiyyətli orqan qarşısında birbaşa və ya dolayı ayrı-seçkiliyin olmasını güman etməyə əsas verən faktlar irəli sürdükdə, rəftarda bərabərlik prinsipinin pozulmadığını sübut etmək vəzifəsi cavabdeh tərəfin üzərinə düşsün."

83. Analoji olaraq Şuranın irqindən və etnik mənşəyindən asılı olmayaraq insanlar arasında rəftarda bərabərlik prinsipini həyata keçirən 2000-ci il 29 iyun tarixli 2000/43/EC nömrəli direktivinin və əmək və məşğulluq sahəsində rəftarda bərabərlik üçün ümumi çərçivə müəyyən edən 2000-ci il 27 noyabr tarixli 2000/78/EC nömrəli direktivinin məqsədi müvafiq sahələrdə irq, etnik mənşə, din, yaxud etiqad, əlillik, yaş və ya cinsi orientasiya əlamətlərinə əsaslanan bütün birbaşa və ya dolayı ayrı-seçkilik hallarının qadağan edilməsidir. Bu direktivlərin preambulalarında qeyd olunur: "Birbaşa və ya dolayı ayrı-seçkili hallarının mövcudluğunu müəyyən edə biləcək faktların qiymətləndirilməsi milli hüquq və təcrübə ilə təsbit edilmiş qaydalara uyğun olaraq ölkənin məhkəmə və ya digər aidiyyəti orqanlarının səlahiyyətinə daxil olan məsələdir. Bu qaydalar xüsusilə dolayı ayrı-seçkiliyin istənilən yollarla, o cümlədən "statistik sübutlar" əsasında müəyyən

olunmasının mümkünlüyünü təsbit edə bilər və "sübut etmə vəzifəsi ilə bağlı qaydalar *prima facie* ayrı-seçkilik hallarına uyğunlaşdırılmalı və rəftarda bərabərlik prinsipinin səmərəli şəkildə tətbiq edilə bilməsi üçün ayrı-seçkilik ilə bağlı sübut təqdim ediləndə sübut etmə vəzifəsi cavabdeh tərəfindən üzərinə qoyulmalıdır."

84. Xüsusilə 2000/43/EC nömrəli direktivdə qeyd edilir:

**Maddə 2**

**Ayrı-seçkilik konsepsiyası**

"1. Bu direktivin məqsədləri üçün rəftarda bərabərlik prinsipi dedikdə irqi və ya etnik mənşə əlamətinə əsaslanan birbaşa və ya dolayı ayrı-seçkiliyin olmaması başa düşülür.

2. 1-ci bəndin məqsədləri üçün:

a) birbaşa ayrı-seçkilik o zaman baş vermiş hesab olunur ki, irqi və ya etnik mənşə əlamətlərinə görə bir şəxslə keçmişdə və ya hazırda onunla eyni vəziyyətdə olan digər şəxs ilə müqayisədə daha az əlverişli formada rəftar edilsin və ya gələcəkdə belə bir rəftarın edilməsi mümkün olsun;

b) dolayı ayrı-seçkilik o halda mövcud olur ki, açıq aşkar neytral müddəa, meyar və ya təcrübə bir irqə və ya etnik mənşəyə mənsub olan insanları digərləri ilə müqayisədə xüsusilə əlverişsiz vəziyyətə salsın, bir şərtlə ki, bu müddəa, meyar və ya təcrübə qanuni məqsədə yönəlmə kimi obyektiv səbəb ilə əsaslandırılmasın və bu məqsədə nail olmaq üçün istifadə olunan vasitələr adekvat və zəruri olmasın.

..."

**Maddə 8**
**Sübut etmə vəzifəsi**

"1. Üzv dövlətlər milli məhkəmə sistemlərində təsbit olunmuş qaydalara uyğun olaraq zəruri olan bütün tədbirləri görərək təmin etməlidirlər ki, rəftarda bərabərlik prinsipinin onlara münasibətdə tətbiq edilmədiyinə görə özlərini zərərçəkmiş hesab edən şəxslər məhkəmədə və ya digər səlahiyyətli orqan qarşısında birbaşa və ya dolayı ayrı-seçkiliyin olmasını güman etməyə əsas verən faktlar irəli sürdükdə, rəftarda bərabərlik prinsipinin pozulmadığını sübut etmək vəzifəsi cavabdeh tərəfin üzərinə düşsün.

2. 1-ci bənd üzv dövlətlərin iddiaçılar üçün daha əlverişli sübut etmə qaydası müəyyənləşdirməsinə mane olmur.

3. 1-ci bənd cinayət işlərinə tətbiq olunmur.

...

5. Məhkəmənin və ya aidiyyəti orqanın iş üzrə faktları özü araşdırmalı olduğu proseslərdə 1-ci bənd tətbiq edilməyə bilər.

85. Avropa Birliyi Məhkəməsinin (ABM) presedent hüququna görə oxşar vəziyyətlərdə fərqli qaydaların tətbiq edilməsi və ya eyni qaydaların müxtəlif vəziyyətlərə tətbiq edilməsində ifadə olunan ayrı-seçkilik açıq və ya gizli şəkildə, birbaşa və ya dolayı yolla həyata keçirilə bilər.

86. "*Covanni Mariya Sotcu Almaniyanın Federal Poçt İdarəsinə qarşı"* (*Giovanni Maria Sotgiu v. Deutsche Bundespost)* işi üzrə 1974-cü il 12 fevral tarixli qərarında (Case 152-73, point 11), Avropa Birliyi Məhkəməsi qeyd etmişdir:

"Rəftarda bərabərlik ilə bağlı qaydalar...milliyyət əlaməti üzrə açıq ayrı-seçkiliyi deyil, digər fərqləndirmə meyarları tətbiq edilməklə həyata keçirilən və eyni nəticələrə səbəb olan bütün gizli ayrı-seçkilik formalarını da qadağan edir.

..."

87. Məhkəmənin *"Bilka-Kaufhaus" məhdud məsuliyyətli cəmiyyəti Karin Veber fon Hartsa qarşı"* (*Bilka-Kaufhaus GmbH v. Karin Weber von Hartz)* işi üzrə 1986-cı il 13 may tarixli qərarında (Case 170/84, point 31) qeyd edilir:

"... Avropa İqtisadi Birliyinin təsis edilməsi haqqında müqavilənin 119-cu maddəsi tam iş günü çalışmayan işçiləri əmək pensiyasından məhrum etmiş universal mağaza tərəfindən pozulmuşdur və belə məhrum etmənin cins ilə əlaqəsi olmayan obyektiv amillərlə əsaslandırılması saziş ilə nəzərdə tutulmadığı halda bu, kişilərdən çox qadınlara təsir göstərir."

88. Məhkəmə *"Kraliça Məşğulluq məsələləri üzrə nazirə qarşı, ex parte Nikol Seymur-Smit və Laura Peres" (Regina v. Secretary of State for Employment, ex parte Nicole Seymour-Smith and Laura Perez)* işi üzrə 1999-cu il 9 fevral tarixli qərarında qeyd etmişdir (Case C-167/97, points 51, 57, 62, 65 and 77):

"... milli məhkəmə üzv dövlət tərəfindən həyata keçirilmiş tədbirin kişi və qadınlar üçün dolayı ayrı-seçkiliyə bərabər tutula biləcək dərəcədə fərqli nəticələrə səbəb olub-olmadığını müəyyənləşdirmək üçün hüquqi meyarı təsbit etməyə çalışır...

...

... Komissiya "statistik cəhətdən əhəmiyyətli" test təklif edir və burada statistika müqayisə aparılması üçün adekvat baza rolunda çıxış etməlidir və milli məhkəmə konkret işin hallarının statistikanı təhrif etmədiyini təmin etməlidir. Statistik cəhətdən əhəmiyyətli sübutun mövcud olması qeyri-mütənasib təsiri müəyyən etmək və sübut etmə vəzifəsini ayrı-seçkilik xarakteri daşıyan tədbiri həyata keçirmiş şəxsin üzərinə qoymaq üçün kifayətdir.

... Vəziyyət ilə bağlı olan statistik göstəricilərin mötəbər olub-olmadığını və nəzərə alınmasının mümkün olub-olmadığını, başqa sözlə onların kifayət sayda fərdləri əhatə edib-etmədiyini, təsadüfi xarakter daşıyan və ya uzun müddətli hadisələri əks etdirib-etdirmədiyini və ümumilikdə, əhəmiyyətli xarakter daşıyıb-daşımadığını qiymətləndirmək də milli məhkəmənin vəzifəsidir (bax: Case C-127/92 *Enderby* [1993] ECR I-5535, paragraph 17). ...

...

... Beləliklə, üzv dövlət tərəfindən həyata keçirilmiş tədbirin kişi və qadınlar üçün fərqli nəticələr doğurub-doğurmadığını və bunun müqavilənin 119-cu maddəsinin məqsədləri üçün dolayı ayrı-seçkilik hesab edilə bilib-bilməyəcəyini müəyyənləşdirmək üçün milli məhkəmə sərəncamında olan statistik göstəricilərin tədbirin təsbit etdiyi tələblərə əməl edə bilən qadınların faiz nisbətinin kişilərə nisbətən əhəmiyyətli dərəcədə az olduğuna dəlalət edib-etmədiyini yoxlamalıdır. Əgər bu belədirsə və qeyd olunan tədbir cins əlaməti üzrə ayrı-seçkilik ilə bağlı olmayan obyektiv amillər ilə əsaslandırılmayıbsa, bu halda dolayı ayrı-seçkilik mövcuddur.

...

... əgər mübahisə edilən qayda ilə təsbit edilmiş tələbə kişilərə münasibətdə əhəmiyyətli dərəcədə az sayda qadın riayət edə bilirsə, qeyd olunan qaydanın sosial siyasətinin qanuni məqsədinə xidmət göstərdiyini, bu məqsədin cinsi əlamətə əsaslanan hər hansı ayrı-seçkilik ilə bağlı olmadığını və seçilmiş vasitələrin bu məqsədə nail olunması üçün uyğunluğuna ağlabatan şəkildə inandığını sübut etmək vəzifəsi ayrı-seçkilik xarakteri daşıyan qaydanın müəllifi kimi üzv dövlətin üzərinə düşür."

89. *"Hilde Şenhayt Frankfurt Mayn şəhərinə qarşı"* (*Hilde Schönheit v. Stadt Frankfurt am Main* (Case C-4/02)) və "*Silviya Beker Hessen Torpağına qarşı" (Silvia Becker v. Land*

*Hessen* (Case C-5/02)) işləri üzrə 2003-cü il 23 oktyabr tarixli qərarının 67-69 və 71-ci bəndlərində Avropa Birliyi Məhkəməsi qeyd etmişdir:

"... nəzərə alınmalıdır ki, Avropa İqtisadi Birliyinin təsis edilməsi haqqında müqavilənin 119-cu maddəsi və 141-ci maddəsinin 1-ci və 2-ci bəndlərində təsbit edilmiş prinsipə görə kişi ilə qadın eyni əməyə görə eyni məbləğdə əmək haqqı almalıdırlar. Bu prinsip yalnız cinsinə görə birbaşa ayrı-seçkiliyə səbəb olan müddəaların tətbiqini deyil, eyni zamanda cins əlaməti ilə bağlı olmayan, iş yerlərində kişi və qadınlar ilə fərqli rəftar standartlarını müəyyən edən (bir şərtlə ki, fərqli rəftar cinsinə görə ayrı-seçkilik ilə bağlı olmayan obyektiv amillər ilə əlaqəli olmasın) müddəaların da tətbiqinin qarşısını alır...

Hamı tərəfindən qəbul edilmişdir ki, Almaniya Federativ Respublikasının "Dövlət qulluqçularının pensiyaları və müavinətləri haqqında" qanununun nəzərdən keçirilən müddəaları cinsinə görə birbaşa ayrı-seçkiliyi nəzərdə tutmur.

Bunun dolayı ayrı-seçkilik olub-olmadığını müəyyənləşdirmək üçün qeyd olunan müddəaların kişilərlə müqayisədə qadınlar üçün daha əlverişsiz şərait yaradıb-yaratmadığını aydınlaşdırmaq zəruridir.

...

Buna görə də mövcud statistik göstəricilərin Almaniya Federativ Respublikasının "Dövlət qulluqçularının pensiyaları və müavinətləri haqqında" qanununun əmək karyerasının heç olmasa bir hissəsini natamam iş günü qrafikində çalışmış dövlət qulluqçularının əmək pensiyalarının azaldılmasını nəzərdə tutan müddəalarının kişilərlə müqayisədə əhəmiyyətli sayda çox qadına təsir göstərdiyinə dəlalət edib-etmədiyini müəyyənləşdirmək zəruridir. Nəzərdən keçirilən müddəalar cinsinə görə hər hansı ayrı-seçkilik ilə bağlı olmayan obyektiv amillər ilə əsaslandırılmadığı halda belə vəziyyət cinsinə görə açıq-aşkar ayrı-seçkiliyin həyata keçirildiyinin sübutu olardı."

90. *"Debra Allonbi Akkrinqton və Rossendeyl Kollecinə, Təhsil üzrə Mühazirələr Xidmətinə...və Təhsil və məşğulluq məsələləri üzrə nazirə qarşı" (Debra Allonby v. Accrington & Rossendale College, Education Lecturing Services ... and Secretary of State for Education and Employment)* işi üzrə qərarında məhkəmə qeyd etmişdir (13 yanvar 2004-cü il, Case C-256/01) (81-ci bənd):

"... müəyyən edilməlidir ki, qadın dövlətin qanunvericiliyindəki müddəanın qadın işçilərə münasibətdə ayrı-seçkiliyə yol verdiyi üçün Avropa İqtisadi Birliyinin təsis edilməsi haqqında müqavilənin 141-ci maddəsinin 1-ci bəndinə zidd olduğunu sübut etmək məqsədilə statistik göstəricilərə istinad edə bilər. ..."

91. Son olaraq, *"Avropa Birliyi Komissiyası Avstriya Respublikasına qarşı"* (*Commission of the European Communities v. Republic of Austria* (7 iyul 2005-ci il, Case C-147/03)) işi üzrə qərarında Avropa Birliyi Məhkəməsi qeyd etmişdir (41 və 46-48-ci bəndlər):

"Mövcud presedent hüququna görə rəftarda bərabərlik prinsipi yalnız milliyyətinə görə açıq-aşkar ayrı-seçkiliyi deyil, eyni zamanda digər fərqləndirici meyarları tətbiq etməklə faktiki olaraq eyni nəticəyə səbəb olan bütün gizli ayrı-seçkilik formalarını da qadağan edir (xüsusilə bax: Case 152/73 *Sotgiu* [1974] ECR 153, 11-ci bənd; yuxarıda qeyd edilmiş Case C-65/03 *Commission v. Belgium*, 28-ci bənd; və Case C-209/03 *Bidar* [2005] ECR [I-02119], 51-ci bənd).

...

... nəzərdən keçirilən qanunvericilik Avstriya Respublikasından başqa digər üzv ölkələrin orta təhsilə dair diplomunun sahiblərini əlverişsiz vəziyyətə qoyur, belə ki, bu şəxslər ekvivalent Avstriya diplomuna malik olan şəxslər ilə eyni şərtlərlə Avstriyada ali təhsil mərhələsinə daxil ola bilmirlər.

Beləliklə, ....bəndin heç bir fərq qoyulmadan bütün tələbələrə tətbiq edilməsinə baxmayaraq, onun müddəaları Avstriya vətəndaşlarından daha çox digər üzv dövlətlərin vətəndaşlarına təsir edir və buna görə də bu müddəadan irəli gələn rəftardakı fərqlilik dolayı ayrı-seçkiliyə səbəb olur.

Buna görə də burada qeyd olunmuş fərqli rəftar yalnız o zaman əsaslı hesab oluna bilər ki, o, maraqlı şəxslərin milliyyəti ilə bağlı olmayan obyektiv mülahizələrlə bağlı olsun və milli qanunvericilik normalarının xidmət etdiyi qanuni məqsədə mütənasib olsun (Case C-274/96 *Bickel and Franz* [1998] ECR I-7637, 27-ci bənd və yuxarıda qeyd edilmiş *D'Hoop işi*, 36-cı bənd)."

## V. BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ MÜVAFİQ SƏNƏDLƏRİ

### A. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt

92. Paktın 26-cı maddəsində qeyd edilir:

"Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkilik olmadan qanun tərəfindən bərabər şəkildə müdafiə olunurlar. Bu baxımdan qanun irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və ya digər baxışına, milliyyətinə və ya sosial mənşəyinə, mülkiyyətinə, doğumuna və ya digər statusuna görə ayrı-seçkiliyi qadağan edir və bütün şəxslərin belə ayrı-seçkilik formalarından bərabər və səmərəli şəkildə müdafiə olunmalarını təmin edir."

### B. BMT-nin İnsan Hüquqları üzrə Komitəsi

93. Ayrı-seçkiliyə qarşı 1989-cu il 10 noyabr tarixli Baş Rəyinin 7 və 12-ci bəndlərində Komitə aşağıdakı fikri ifadə etmişdir:

"... Komitə hesab edir ki, Paktda istifadə olunmuş "ayrı-seçkilik" termini irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və ya digər baxışına, milliyyətinə və ya sosial mənşəyinə, mülkiyyətinə, doğumuna və ya digər statusuna görə edilən və insanların bütün hüquq və azadlıqlardan bərabər əsasda istifadə etmələri və ya onları həyata keçirmələrinin ləğv edilməsi və ya pisləşdirilməsi məqsədi güdən və ya bununla nəticələnmiş istənilən fərq qoymanı, istisna etməni, məhdudlaşdırmanı və ya üstünlük verməni nəzərdə tutur.

...

dövlət tərəfindən qəbul edilən qanunun məzmunu 26-cı maddənin tələbinə uyğun olaraq ayrı-seçkilik xarakteri daşımamalıdır... "

94. Çex Respublikası ilə bağlı 516/1992 nömrəli komyunikedə əks olunmuş 1995-ci il 31 iyul tarixli Rəyinin 11.7-ci bəndində Komitə qeyd etmişdir:

"... Bununla belə Komitə hesab edir ki, Paktın 26-cı maddəsinin pozulduğunun təsbit edilməsi üçün qanunun məqsədi yeganə amil deyil. Siyasi mülahizələrə görə fərqli rəftar göstərmə çətin ki, 26-cı maddənin tələblərinə uyğun gəlsin. Lakin siyasi mülahizələrlə bağlı olmayan akt belə, nəticələri ayrı-seçkilik xarakteri daşıdıqda, 26-cı maddəyə ziddiyyət təşkil edə bilər."

### C. İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsinə dair Beynəlxalq Konvensiya

95. Konvensiyanın 1-ci maddəsində qeyd olunur:

"... "irqi ayrı-seçkilik" termini irqinə, dərisinin rənginə, əslinə, milli və ya etnik mənşəyinə görə edilən və siyasi, iqtisadi, sosial-mədəni sahədə və ya ictimai həyatın digər sahəsində insan hüquq və azadlıqlarından bərabər əsasda istifadə edilməsi və ya onların həyata keçirilməsinin ləğv edilməsi

və ya pisləşdirilməsi məqsədi güdən, yaxud bununla nəticələnmiş istənilən fərq qoymanı, istisna etməni, məhdudlaşdırmanı və ya üstünlük verməni nəzərdə tutur."

..."

### D. İrqi Ayrı-Seçkiliyin Ləğv Edilməsi üzrə Komitə

96. Ayrı-seçkiliyin anlayışına dair 1993-cü il 22 mart tarixli 14 nömrəli Baş Tövsiyəsində Komitə digər məsələlər ilə yanaşı aşağıdakıları qeyd etmişdir:

"1. ... Fərqli rəftar konkret hüquq və azadlıqların pozulması məqsədi daşıdıqda və ya bununla nəticələndikdə, konvensiyaya zidd hesab olunur. Bu, irqi ayrı-seçkiliyin ortaya çıxması və ya qorunub saxlanması ilə nəticələnən istənilən qanunun və ya təcrübənin ləğv edilməsini bir vəzifə kimi üzv dövlətlərin üzərinə qoyan 2-ci maddənin 1-ci bəndi ilə də təsdiq olunur.

2....Hər hansı hərəkətin Konvensiyaya zidd olub-olmadığını müəyyənləşdirən zaman Komitə irqinə, dərisinin rənginə, əslinə, milli və ya etnik mənşəyinə görə fərqləndirilən qrup üçün əsassız, müqayisə oluna bilməyən nəticələr doğurub-doğurmadığını nəzərə alacaq.

..."

97. İrqi seqreqasiya və aparteid ilə bağlı 1995-ci il 18 avqust tarixli 19 nömrəli Baş Tövsiyəsində Komitə qeyd etmişdir:

"3. ...bəzi ölkələrdə irqi seqreqasiya tam şəkildə və ya qismən hökumətin siyasətinin nəticəsi olaraq meydana çıxsa da, qismən seqreqasiya üçün şərait fiziki şəxslərin qəsdən edilməmiş hərəkətləri nəticəsində də orta çıxa bilər. Bir çox şəhərlərdə ayrı-ayrı qrupların müvafiq rayonda yaşayış yeri seçməsinə gəlirlərindəki fərq ilə yanaşı, irqinə, dərisinin rənginə, əslinə və milli və ya etnik mənşəyinə görə fərqlər də təsir göstərir, buna görə də əhali stiqmatizmləşə, insanlar isə irqi və digər əlamətlərinə görə ayrı-seçkiliyə məruz qala bilərlər.

4. Buna görə də Komitə təsdiq edir ki, irqi seqreqasiya üçün şərait dövlət orqanlarının hər hansı təşəbbüsü və ya birbaşa müdaxiləsi olmadan da yarana bilər..."

98. Qaraçılara qarşı ayrı-seçkiliyə dair 2000-ci il 16 avqust tarixli 27 nömrəli Baş Tövsiyəsində Komitə təhsil sahəsi ilə bağlı digər tövsiyələr ilə yanaşı aşağıdakı tövsiyələri vermişdir:

"17. Bütün qaraçı uşaqları məktəb sisteminə daxil etmək və onların, xüsusilə qaraçı qızların məktəbi tərk etmələri hallarının azaldılması istiqamətində tədbirlər görmək və bu məqsədlər üçün fəal surətdə qaraçı valideynlər, birliklər və yerli icmalar ilə əməkdaşlıq etmək;

18. İki dildə və ya ana dilində təhsil almaq imkanları saxlanılmaqla, qaraçı tələbələrin seqreqasiyasının qarşısını mümkün olduğu qədər almaq; bu məqsədlə bütün məktəblərdə təhsilin keyfiyyətinin və məktəblərdə azlıqda olan icmaların nümayəndələrinin nailiyyətlərinin artırılmasına səy göstərmək, qaraçı icmasının üzvlərini müəllim kimi işə qəbul etmək və mədəniyyətlər arası təhsilə təkan vermək;

19. Qaraçı valideynlər ilə əməkdaşlıq şəraitində qaraçı uşaqların təhsili sahəsində tədbirlər görülməsi məsələsinə baxmaq."

99. Çex Respublikası tərəfindən təqdim edilmiş hesabat ilə bağlı 1998-ci il 30 mart tarixli yekun rəyində Komitə digər məsələlər ilə yanaşı aşağıdakıları qeyd etmişdir:

"13. Qaraçı icmasının təhsil sahəsində marginallaşması narahatçılıq hissi ilə qeyd olunur. Kifayət qədər çox sayda qaraçı uşaqların xüsusi məktəblərə yerləşdirilməsi, bunun isə faktiki olaraq irqi seqreqasiyaya səbəb olması və bu uşaqların orta və ali təhsil müəssisələrində kifayət

qədər aşağı səviyyədə təmsil olunmaları Konvensiyanın 5-ci maddəsinə tam şəkildə əməl edilib-edilmədiyi ilə bağlı şübhələr doğurur."

## E. Uşaq Hüquqlarına dair Konvensiya

100. Konvensiyanın 28 və 30-cu maddələrində qeyd edilir:

### Maddə 28

"1. İştirakçı dövlətlər uşaqların hüquqlarını tanıyırlar və bu hüquqların həyata keçirilməsinə tədricən və bərabər imkanlar əsasında nail olmaq məqsədilə onlar xüsusilə:

a) Hamı üçün ibtidai təhsilin məcburi və pulsuz olmasını təmin edəcək;

b) Orta təhsilin müxtəlif formalarını, o cümlədən ümumi və texniki-peşə təhsilin inkişafını təşviq edəcək, onun hər bir uşağın qəbul oluna bilməsi üçün mümkünlüyünü təmin edəcək, pulsuz təhsilin təmin olunması və ehtiyac olduğu təqdirdə maliyyə yardımının edilməsi kimi tədbirləri görəcək;

c) Bütün münasib vasitələrdən istifadə etməklə hər bir şəxsin qabiliyyətindən asılı olaraq ali təhsil ala bilməsi üçün tədbirlər görəcək;

d) Hər bir uşağın təhsil və peşə hazırlığı ilə bağlı məlumat və material əldə edə bilməsini təmin edəcək;

e) Uşaqların məktəblərə müntəzəm olaraq gəlməsi və məktəblərdən çıxma hallarının qarşısının alınması üçün tədbirlər görəcək.

2. İştirakçı dövlətlər məktəbdə intizamın uşağın insani ləyaqətinə və bu Konvensiyanın tələblərinə uyğun şəkildə təmin olunması üçün bütün zəruri tədbirləri görməlidirlər.

3. İştirakçı dövlətlər təhsil ilə bağlı olan məsələlərdə, xüsusilə bütün dünyada savadsızlığın aradan qaldırılması işinə töhfə vermək və elmi, texniki biliklərə və müasir təhsil metodlarına yiyələnmə işinə kömək etmək üçün beynəlxalq əməkdaşlığa təkan verməli və onu təşviq etməlidirlər. Bu baxımdan inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına xüsusi diqqət ayrılmalıdır."

### Maddə 30

"Etnik, dini və ya dil azlığı, yaxud yerli əhalinin olduğu dövlətlərdə bu azlığa və ya yerli əhali qrupuna mənsub olan uşağın bu qrupun digər üzvləri ilə birgə öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad etmək və dini ayinləri yerinə yetirmək, yaxud öz dilindən istifadə etmək hüququnun həyata keçirilməsinə maneçilik törədilməməlidir."

## F. YUNESKO

101. Təhsil sahəsində ayrı-seçkilik əleyhinə konvensiyanın 1-3-cü maddələrində qeyd edilir:

### Maddə 1

"1. Bu konvensiyanın məqsədlərinə görə "ayrı-seçkilik" termini irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və ya digər baxışına, milli və ya sosial mənşəyinə, iqtisadi vəziyyətinə və ya doğumuna görə edilən və təhsildə bərabər rəftarı aradan qaldırmaq və ya bu sahədə vəziyyəti pisləşdirmək məqsədi daşıyan, yaxud bununla nəticələnən istənilən şəkildə fərq qoymanı, istisna etməni, məhdudlaşdırmanı və ya üstünlük verməni nəzərdə tutur. Bura xüsusilə aşağıdakılar daxildir:

a) İstənilən şəxsi və ya şəxslər qrupunu istənilən növ və ya istənilən səviyyədə təhsildən məhrum etmək;

b) Hər hansı şəxsi və ya şəxslər qrupunun təhsilini aşağı standartlı təhsil ilə məhdudlaşdırmaq;

c) Konvensiyanın 2-ci maddəsi ilə nəzərdə tutulmuş hallardan başqa şəxslər və ya şəxslər qrupu üçün ayrı təhsil sistemini yaratmaq və ya onu saxlamaq;

d) Hər hansı şəxsin və ya şəxslər qrupunun üzərinə insan ləyaqətinə sığmayan şərtlər qoymaq.

..."

**Maddə 2**

"Dövlətdə icazə verildiyi təqdirdə aşağıdakı vəziyyətlər Konvensiyanın 1-ci maddəsinin mənasında ayrı-seçkilik hesab olunmayacaq:

a) İki cinsin nümayəndələri üçün ayrı-ayrı təhsil sistemlərinin və ya institutlarının yaradılması və ya saxlanması, bir şərtlə ki, bu sistemlər və institutlar təhsilə qəbul üçün bərabər şərait yaratsın, müəllim heyəti eyni ixtisas dərəcəsinə, həmçinin məktəb binaları və avadanlığı eyni keyfiyyətə malik olsun və eyni, yaxud ekvivalent təhsil kursu keçməyə imkan versin;

b) Din və dil ilə bağlı səbəblərə görə şagirdlərin valideynləri və ya qanuni nümayəndələrinin arzularına uyğun olaraq təhsil proqramı təklif edən ayrıca təhsil sistemləri və institutlarının yaradılması və ya saxlanması, bir şərtlə ki, bu sistemlərdə iştirak və ya belə institutlara daxil olma könüllü olsun və burada verilən təhsil səlahiyyətli orqanlar tərəfindən eyni səviyyəli təhsil mərhələsi üçün hazırlanmış və ya təsdiq edilmiş standartlara uyğun gəlsin;

c) Özəl təhsil müəssisələrinin yaradılması və ya saxlanılması, bir şərtlə ki, müəssisənin məqsədi hər hansı qrupun istisna edilməsi deyil, dövlət orqanları tərəfindən yaradılmış təhsil imkanlarına əlavə imkanlar təmin etmək olsun, müəssisə bu məqsədə xidmət etsin və burada verilən təhsil səlahiyyətli orqanlar tərəfindən eyni səviyyəli təhsil mərhələsi üçün hazırlanmış və ya təsdiq edilmiş standartlara uyğun gəlsin."

**Maddə 3**

"Konvensiyanın mənasında ayrı-seçkiliyin ləğv edilməsi və ya aradan qaldırılması məqsədi ilə iştirakçı dövlətlər aşağıdakı öhdəlikləri üzərilərinə götürürlər:

a) Təhsil sahəsində ayrı-seçkilik xarakterli istənilən qanunu və inzibati təlimatı ləğv etmək və istənilən inzibati təcrübənin davam etdirilməsinin qarşısını almaq;

b) Zəruri hallarda qanunvericilik vasitəsilə şagirdlərin təhsil müəssisələrinə qəbulunda ayrı-seçkiliyin olmamasının təmin etmək;

..."

102. 1978-ci il 27 noyabr tarixində YUNESKO-nun Baş Konfransında qəbul edilmiş İrq və İrqi qərəzlilik haqqında bəyannamədə qeyd edilir:

**Maddə 1**

"1. Bütün insanlar eyni kökdəndirlər və ümumi mənşəyə malikdirlər. Onlar ləyaqətlərinə və hüquqlarına görə bərabər doğulurlar və hamısı bəşəriyyətin tərkib hissəsini təşkil edirlər.

2. Bütün fərdlərin və qrupların fərqli olmaq, özlərini fərqli hesab etmək və fərqli hesab olunmaq hüquqları vardır. Lakin həyat tərzindəki fərqlilik və fərqli olmaq hüququ heç bir halda irqi qərəzlilik üçün bəhanə kimi çıxış edə bilməz; onlar qanunda və ya faktiki olaq hər hansı

ayrı-seçkilik xarakteri daşıyan təcrübəyə bəraət qazandıra və ya irqçiliyin ən mürtəce forması olan aparteid siyasətinə əsas verə bilməz.

...”

**Maddə 2**

“...

2. İrqçilik irqi bərabərsizlik ilə nəticələnən irqi ideologiyanı, qərəzli münasibəti, ayrı-seçkilik xarakteri daşıyan davranışı, struktur təsisatlarını və institutlaşdırılmış təcrübəni, həmçinin qruplar arasındakı ayrı-seçkilik xarakteri daşıyan münasibətlərin mənəvi və elmi cəhətdən əsaslı olması barədə yanlış təsəvvürü ehtiva edir; bu, qanun və qaydaların ayrı-seçkilik xarakteri daşıyan müddəalarında, ayrı-seçkilik xarakteri daşıyan təcrübədə, həmçinin anti-sosial fikir və hərəkətlərdə əks olunur; o, qurbanlarının inkişafının qarşısını alır, onu həyata keçirənlərin mənəviyyatını pozur, beynəlxalq əməkdaşlığın qarşısını alır və insanlar arasında siyasi gərginliyi artırır; o, beynəlxalq hüququn əsas prinsiplərinə ziddir və beləliklə də, beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi hədədir.

3. Hakimiyyətdəki bərabərsizlik ilə tarixi cəhətdən bağlılığı olan, fərdlər və qruplar arasında mövcud olan iqtisadi və sosial xarakterli fərqlər ilə güclənən və bu gün də belə qeyri-bərabərliyə haqq qazandırmağa səy göstərilən irqi qərəzlilik tamamilə əsassızdır.

**Maddə 3**

“Dövlətlərin suveren bərabərliyini və xalqların öz müqəddəratını təyin etməsini pozan və ya təhlükə altına alan, yaxud istənilən insanın və ya qrupun hərtərəfli inkişaf etmək hüququnu əsassız, yaxud ayrı-seçkilik salaraq məhdudlaşdıran irqinə, dərisinin rənginə, etnik və ya milli mənşəyinə görə istənilən şəkildə fərq qoyma, istisna etmə, məhdudiyyət qoyma və ya üstünlük müəyyən etmə, yaxud irqi mülahizələrə əsaslanan dini dözümsüzlük ədalətli təbiətə malik və insan hüquqlarına hörməti təmin edən beynəlxalq qaydanın tələblərinə uyğun gəlmir; hərtərəfli inkişaf hüququ milli və dünya sivilizasiyasına və mədəni dəyərlərinə hörmət şəraitində şəxsi və kollektiv tərəqqi və rifah vasitələrindən bərabər şəkildə istifadə edə bilməyi nəzərdə tutur.”

**Maddə 5**

“1. Bütün insanların məhsulu və bəşəriyyətin ümumi irsi olan mədəniyyət və geniş mənada təhsil kişi və qadınlara bərabər ləyaqətli və bərabər hüquqlu doğulduqlarını təsdiq etməklə yanaşı, bütün qrupların öz mədəni xüsusiyyətlərinə malik olmaq, milli və beynəlxalq kontekstdə fərqli mədəni həyatlarını inkişaf etdirmək hüququna hörmət etməli olduqlarını qəbul etmək imkanı verməklə adaptasiya olmaq üçün son dərəcə səmərəli vasitələr təklif edir. Bu belə başa düşülməlidir ki, özünəməxsusluğu üçün mühüm hesab etdiyi dəyərlərin qorunub saxlanılması və zəruri olduğu təqdirdə adaptasiya olunması və ya zənginləşdirilməsi ilə bağlı tam sərbəst şəkildə qərarlar qəbul etmək hər bir qrupun hüququdur.

2. Konstitusiya prinsiplərinə və qaydalarına uyğun olaraq dövlətlər, həmçinin bütün aidiyyəti dövlət orqanları və pedaqoji heyət bütün ölkələrdə aşağıdakılar vasitəsilə təhsil resurslarından istifadə edilərək irqçiliyə qarşı mübarizə aparıldığının təmin olunması üçün məsuliyyət daşıyırlar: xüsusilə təhsil proqramları və dərsliklərə insanların birliyinə və müxtəlifliyinə dair elmi və etik baxışları daxil etmək və hər hansı xalqa qarşı ədalətsiz şəkildə fərq qoyulmamasına nail olmaqla; bu məqsədlərə çatmaq üçün müəllimlərə təlimlər keçməklə; əhalinin bütün qruplarının nümayəndələrinin irqi məhdudiyyət və ya ayrı-seçkilik qoyulmadan təhsil sisteminin resurslarından istifadə edə bilmələrinə şərait yaratmaqla; təhsil səviyyəsi və həyat tərzi ilə bağlı müəyyən irqi və ya etnik qrupların üzləşdikləri məhdudiyyətləri aradan

qaldırmaq, xüsusilə bu məhdudiyyətlərin uşaqlara tətbiq olunmasının qarşısını almaq məqsədilə zəruri tədbirlər görməklə.

...”

**Maddə 6**

“1. Dövlət bütün fərdlərin və qrupların ləyaqətdə və hüquqlarda tam bərabərlik şəraitində insan hüquqları və əsas azadlıqlardan istifadə edə bilmələri üçün ilk növbədə məsuliyyət daşıyır.

2. Dövlət öz səlahiyyətləri çərçivəsində və konstitusiya prinsiplərinə və qaydalarına uyğun olaraq irqçiliyin, irqçi təbliğatın, irqi seqreqasiyanın və aparteidin qarşısının alınması, qadağan edilməsi və aradan qaldırılması, İnsan Hüquqları haqqında Ümumi Bəyannamə və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda əks olunmuş prinsipləri nəzərə almaqla irqi qərəzlilik və irqçi münasibətin qarşısının alınması ilə bağlı biliklərin və təbiət və sosial elmlər sahəsində müvafiq tədqiqatların yayılmasını təşviq etmək məqsədilə xüsusilə təhsil, mədəniyyət və informasiya sahələrində bütün zəruri addımları atmalı, o cümlədən qanunvericilik aktları qəbul etməlidir.

3. İrqi ayrı-seçkiliyi qadağan edən qanunların qəbul edilməsi özü-özlüyündə kifayət etmədiyi üçün, dövlətlər həmçinin buna əlavə olaraq irqi ayrı-seçkilik xarakteri daşıyan aktlar əleyhinə hərtərəfli hüquqi baza, irqi qərəzlilik və irqi ayrı-seçkilik ilə mübarizə aparmaq üçün nəzərdə tutulmuş geniş təhsil və tədqiqat proqramları, qruplar arasında əsl qarşılıqlı hörmətə təkan verilməsi üçün müsbət xarakterli siyasi, sosial, təhsil və mədəni tədbirlər vasitəsilə irqi ayrı-seçkilik hallarının müntəzəm araşdırılması üçün inzibati mexanizm də təsis etməlidir. Zəruri olan hallarda əlverişsiz şəraitdə olan qrupların tərəqqi əldə etməsinə təkan vermək və milli qrupların isə icma ilə bağlı qərarların qəbul edilməsi prosesində səmərəli iştirakını təmin etmək üçün xüsusi proqramlar hazırlanmalıdır.”

**Maddə 9**

“1. Bütün insanların və xalqların irqindən, dərisinin rəngindən və mənşəyindən asılı olmayaraq ləyaqət və hüquqlar baxımından bərabərliyi prinsipi beynəlxalq hüququn hamılıqla tanınmış və qəbul edilmiş prinsipidir. Buna görə də dövlət tərəfindən irqi ayrı-seçkiliyin istənilən formada həyata keçirilməsi beynəlxalq hüququn pozuntusu olmaqla onun beynəlxalq məsuliyyəti məsələsini ortaya çıxarır.

2. Zəruri olan hallarda fərdlərin və qrupların ləyaqətdə və hüquqlarda bərabərliyini təmin etmək üçün xüsusi tədbirlər görülməli və bu zaman bu tədbirlərin irqi baxımdan ayrı-seçkiliyə səbəb olmaması təmin olunmalıdır. Bu baxımdan sosial və iqtisadi cəhətdən əlverişsiz vəziyyətdə olan irqi və ya sosial qruplara xüsusi diqqət verilməli və onların tamamilə bərabər əsasda, heç bir ayrı-seçkilik və ya məhdudiyyət olmadan qanun və qaydalar ilə müdafiə olunmaları və xüsusilə mənzil, məşğulluq və səhiyyə sahəsində mövcud olan sosial nemətlərdən istifadə etmələri təmin olunmalı, onların mədəni xüsusiyyətlərinə və dəyərlərinə hörmətlə yanaşılmalı və xüsusilə təhsil vasitəsilə sosial və peşəkar tərəqqilərinə kömək edilməlidir.

...”

VI. DİGƏR SƏNƏDLƏR

**A. İrqçilik və Ksenofobiya üzrə Avropa Monitorinq Mərkəzi (hazırda Əsas Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi)**

103. Avropa Monitorinq Mərkəzinin internet səhifəsində yerləşdirilmiş Çex Respublikasında təhsil sahəsi ilə bağlı məlumatda aşağıdakılar qeyd olunmuşdur:

> "Çex Respublikasında təhsil sahəsində irqçilik və ayrı-seçkilik ilə bağlı rəsmi və ya qeyri-rəsmi informasiya əldə etmək mümkün deyil. "
>
> Çex təhsil sisteminin ən ciddi problemi sosial cəhətdən əlverişsiz mühitdən olan uşaqların (əsas etibarı ilə qaraçıların) hələ də ayrı-seçkilik salınaraq xüsusi məktəblərə yerləşdirilməsidir. Qaraçı uşaqların yarıdan çoxu bu məktəblərdə təhsil alır. Çex təhsil sistemində, xüsusilə orta məktəblərdə bu tendensiyaların mövcudluğu Çex Respublikası Elmlər Akademiyasının Sosiologiya İnstitutu tərəfindən həyata keçirilmiş geniş tədqiqat işi ilə sübuta yetirilmişdir. Qaraçı uşaqların yalnız çox cüzi bir hissəsi orta məktəblərə daxil olurlar."

104. Monitorinq Mərkəzinin 2006-cı ilin mayında dərc olunmuş və həmin dövrdə Avropa İttifaqının üzvü olmuş 25 dövlət ilə bağlı olan "Dövlət təhsil sistemində qaraçılar və səyyahlar" adlı hesabatında o cümlədən qeyd olunmuşdur ki, qaraçı uşaqların sistematik seqreqasiyası artıq təhsil sahəsində siyasətin bir hissəsi kimi mövcud olmasa da, məktəblər və təhsil müəssisələrinin rəhbərliyi təcrübədə bir sıra müxtəlif, əsasən dolayı yollarla seqreqasiyaya yol verirlər. Bu, bəzən siyasət və təcrübələrin təsadüfi nəticəsi və bəzən də yaşayış yeri üzrə ayrı-seçkiliyin nəticəsi kimi ortaya çıxır. Misal üçün, məktəblər və təhsil müəssisələrinin rəhbərliyi şagirdlərə münasibətdə "müxtəlif ehtiyaclara malik olmaları" mülahizəsi əsasında və (və ya) davranış ilə bağlı məsələlərə və təhsil ilə əlaqədar çətinliklərə cavab kimi ayrı-seçkiliyə yol verə bilərlər. Sonuncu hal həmçinin qaraçı şagirdlərin tez-tez əqli cəhətdən qüsurlu uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərə yerləşdirilməsi ilə nəticələnə bilər ki, bu da Avropa İttifaqının Macarıstan, Slovakiya və Çex Respublikası kimi üzv ölkələrində narahatlıq doğuran hadisədir. Bununla belə, qaraçı uşaqların üzvü olduqları sosial və mədəni mühitin davranış norma və qaydaları nəzərə alınaraq imtahanların keçirilməsi və xüsusi məktəblərdə yerləşdirmə qaydalarına yenidən baxılması üçün tədbirlər görülür.

**B. Lordlar Palatası**

105. "*Kraliça Praqa hava limanının immiqrasiya xidmətinin əməkdaşı və digərlərinə qarşı, ex parte Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzi və digərləri"* (*Regina v. Immigration Officer at Prague Airport and another ex parte European Roma Rights Centre and others)* işi üzrə 2004-cü il 9 dekabr tarixli qərarında Lordlar Palatası yekdilliklə bildirmişdir ki, Praqa hava limanında çalışan Britaniyanın immiqrasiya xidmətinin əməkdaşları hava limanından Böyük Britaniyaya səfər etmək istəyən qaraçıya qarşı ayrı-seçkilik etmişdir, belə ki, əməkdaşlar irqinə görə onunla eyni istiqamətdə səyahət edən digər şəxslərə münasibətdə daha pis rəftar etmişlər.

106. Riçmondlu Baronessa Heyl digər məsələlər ilə yanaşı aşağıdakıları qeyd etmişdir:

> "73. ... İrqinə və cinsinə görə ayrı-seçkiliyə qarşı qanunların əsasında duran konsepsiya ondan ibarətdir ki, istənilən cinsə və bütün irqlərə mənsub olan insanlar onlar ilə bərabər rəftar edilməsini tələb etmək hüququna malikdirlər. Qadınlarla müqayisədə kişilər ilə daha pis rəftar kimi kişilərlə müqayisədə qadınlar ilə pis rəftar etmək də ayrı-seçkilik xarakteri daşıyır; və qara dərililərlə müqayisədə ağ dərililər ilə pis rəftar edilməsi ağ dərililərlə müqayisədə qara dərililər ilə pis rəftar edilməsi kimi ayrı-seçkilik xarakteri daşıyır. Qanunsuz ayrı-seçkilik aşağıdakı tərkib hissələrindən ibarətdir: i) müxtəlif cinsə və ya irqi qrupa mənsub olan iki şəxslə fərqli rəftar edilməsi (real və ya hipotetik); ii) bu rəftardan birinin daha pis olması; iii) müvafiq halların eyni olması və ya faktiki cəhətdən

fərqlənməməsi; və iv) rəftarın cinsinə və ya irqinə görə fərqli olması. Lakin insanlar çox zaman qərəzli münasibətlərini nümayiş etdirmirlər və hətta bəzən bunun olması barədə xəbərdar belə olmurlar. Ona görə də ayrı-seçkiliyin mövcudluğu əsasən birbaşa sübutlar ilə deyil, məntiqi mülahizələr vasitəsilə sübut olunmalıdır. Müqayisə olunan digər şəxsə münasibətdə rəftar daha pis olarsa (i), ii) və iii) hissələri), məhkəmə ayrı-seçkiliyə yol verməsi iddia olunan şəxsdən bunun izahını tələb edəcək. İzah əlbəttə ki, iddiaçının irqi və ya cinsi ilə bağlı olmamalıdır. Əgər belə rəftarın heç bir izahı yoxdursa, yaxud bu izah qənaətbəxş deyilsə, daha pis rəftarın irqi səbəblərə görə edildiyi zənn edilə bilər...

74. Əgər bu cür birbaşa ayrı-seçkilik nümayiş etdirilirsə, deməli məsələ bundadır. Bəzi çox məhdud sayda hallardan başqa, rəftarın obyektiv səbəblərdən əsaslandırılmasına dair arqument qəbul edilə bilməz. Qanunun ümumi məğzi mal və ya xidmətlərin tədarükçülərindən hər bir şəxs ilə qrupun üzvü kimi deyil, fərd kimi rəftar etməyi tələb etməkdir. Qrupun üzvlərinin əksəriyyətinin bu qrupa xas olan xüsusiyyətlərə malik olub-olmamasından asılı olmayaraq, tədarükçü fərdin bu xüsusiyyətlərə malik olmasını fərz etməməlidir; bu prosesə bəzən stereotipləşmə də deyirlər...

75. Hazırkı işdə şikayət qaraçılar əleyhinə birbaşa ayrı-seçkiliyin edilməsi ilə əlaqədardır. Dolayı ayrı-seçkilik o halda mövcud olur ki, işə götürən və ya malı, yaxud xidməti tədarük edən hamı ilə eyni şəkildə rəftar etsin, lakin o, bir cinsi və ya irqi qrupun üzvlərinə onların digər qrupların üzvləri ilə müqayisədə əməl edə bilməyəcəkləri güman edilən tələb və ya şərtləri tətbiq etsin: misal üçün, ağırlıq qaldırma üzrə sınaq, belə ki, güman ki, bu sınaqdan qadınlarla müqayisədə məhz kişilər keçəcəklər. Bu tələb yalnız o zaman qanunsuz hesab edilə bilər ki, ona maraqlı şəxslərin cinsindən və ya irqindən asılı olmayaq müstəqil surətdə haqq qazandırmaq mümkün olmasın....Lakin bu halda da ayrı-seçkiliyə deyil, tələb və ya şərtə haqq qazandırmaq olar. Belə haqq qazandırma ayrı-seçkilik xarakteri daşıyan rəftarın obyektiv səbəblərə görə əsaslandırılması mümkünlüyü ilə səhv salınmamalıdır. Bu halda da belə obyektiv səbəblərin olmadığı təqdirdə rəftar İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 14-cü maddəsinə ziddiyyət təşkil edir.

...

90. Xatırladılmalıdır ki, bərabər imkanlar verilməsi təcrübəsi nə isə təbii bir şey olmaya da bilər. Bir çoxları, hətta bəzilərinə digərləri ilə müqayisədə daha da şübhə ilə yanaşmaq üçün ciddi əsaslar olsa belə, bütün müraciət edənlərlə eyni şəkildə, qərəzlilik olmadan rəftar etməyin sağlam yanaşma olmadığını zənn edə bilər. Lakin qanun məhz bunu tələb edir, belə ki, o, fərdlərin mənsub olduqları qrupa xas xüsusiyyətlərə görə əlverişsiz vəziyyətə salınmamalarını təmin etməyə çalışır. 2001-ci ildə nəzərdən keçirdiyimiz əməliyyat başlayan zaman irqi münasibətlərə dair qanunvericilik yenicə immiqrasiya xidmətləri ilə bağlı fəaliyyəti əhatə etməyə başlamışdı. Məhdud zaman çərçivəsində hərəkət edən əməkdaşların işə götürənlərin iyirmi beş ildən artıq müddət ərzində təsbit etməyə çalışdığı qayda və gözləntilərə hər baxımdan əməl etmələrinin çətin olduğu elə də təəccüb doğurmur.

91. Praqa hava limanında baş vermiş hadisə məhz yuxarıda qeyd olunanlar fonunda qiymətləndirilməlidir. Əməkdaşlar sorğu apardıqları insanların etnik mənşəyi ilə bağlı hər hansı qeyd etmirdilər. Buna görə də cavabdehlər hər qrupdan neçə nəfərdən, neçə dəqiqə ərzində sorğu alınması və bu sorğunun nəticələri barədə məlumat verə bilmirlər. Onların fikrincə bu, onların Təlimata əsaslanmadıqlarını göstərir: əgər əsaslansaydılar, onlar sərnişinin mənşəyi ilə bağlı fərziyyələrini qeydə almalı idilər. Əgər fərziyyə düzgün olardısa, bu, uçuşdan imtinaya haqq qazandırmaq üçün kifayət edərdi. Lakin o da görünür ki, yüksək riskli əməliyyatın ayrı-seçkilik xarakteri daşımayan tərzdə həyata keçirildiyini təsbit edilməsinə kömək edəcək məlumatın toplanması üçün heç bir formal addım atılmamışdır. Bu həm də o deməkdir ki, əldə olan yeganə məlumat iddiaçılar, o cümlədən əməliyyatı monitorinq etməyə çalışmış Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzi tərəfindən təqdim edilmiş məlumatdır. Cavabdehlər bu məlumatın mötəbərliyini şübhə altına ala bilərlər, lakin onlar buna zidd gedə və ya daha mötəbər məlumat təqdim edə bilmirlər...."

### C. Amerika Birləşmiş Ştatlarının Ali Məhkəməsi

107. *"Qriqz Dyuk Pauer Şirkətinə qarşı"* (*Griggs v. Duke Power Co.*, 401 US 424 (1971)) işi üzrə qəbul edilmiş qərarda Ali Məhkəmə nəticələrin uyğunsuzluğu meyarını təsbit etmişdir. Bu işdə elektrik stansiyasının qara dərili işçiləri iddia qaldıraraq bildirmişlər ki, işə götürənin hətta ən aşağı səviyyədə əmək haqqı ödənilən işlərə qəbul olunmaq üçün ali məktəb diplomuna malik olmağı və ya qabiliyyət imtahanı verməyi tələb etməsi ayrı-seçkilik xarakteri daşıyır. Az sayda qara dərili diplom əldə edə və ya standart imtahanlardan keçə bilmişlər. Ali Məhkəmə bildirmişdir:

> "Mülki hüquqların müdafiəsi haqqında 1964-cü il qanunu irqinə görə alçaldıcı ayrı-seçkiliyə yol verən süni, əsassız və zəruri olmayan maneələrin aradan qaldırılmasını tələb edir və burada olduğu kimi qara dərililərin istisna edilməsində ifadə olunan işə götürmə təcrübəsi, əgər bu təcrübənin işin icrası ilə bağlı olduğu göstərilə bilməzsə, işə götürənin ayrı-seçkiliyə yol vermək niyyətinin olub-olmamasından asılı olmayaraq qadağan edilir...
>
> Qanun imtahanlardan və ya qiymətləndirmə prosedurlarından istifadənin qarşısını almır, lakin onların işçilərin vəzifələrinin icrasının təmin olunması üçün ağlabatan tədbir olduğu sübut edilmədiyi təqdirdə, bu imtahan və qiymətləndirmə prosedurlarına nəzarətedici qüvvə verməyi qadağan edir....
>
> Qanun yalnız açıq ayrı-seçkiliyi deyil, eyni zamanda formaca ədalətli, lakin təcrübədə ayrı-seçkilik xarakteri daşıyan təcrübələri də qadağan edir. Burada meyar kimi biznes zərurəti çıxış edir. Əgər qara dərililəri istisna edən işə götürmə təcrübəsinin işin icrası ilə bağlı olduğu sübuta yetirilməzsə, belə təcrübə qadağandır.
>
> ...Konqres irəli sürülən istənilən tələbin mübahisə predmeti olan iş ilə açıq-aşkar əlaqəsi olduğunu sübut etmək vəzifəsini işə götürənin üzərinə qoymuşdur."

# HÜQUQİ MƏSƏLƏLƏR

## I. BÖYÜK PALATANIN YURİSDİKSİYASININ HƏDDİ

108. 2006-cı il 26 sentyabr tarixində Böyük Palataya təqdim etdikləri yekun qeydlərində ərizəçilər yenidən bildirmişlər ki, onların Konvensiyanın 3-cü və 6-cı maddəsinin 1-ci bəndi ilə nəzərdə tutulmuş hüquqları pozulmuşdur.

109. Məhkəmənin presedent hüququna görə Böyük Palataya təqdim edilmiş "iş" dedikdə mahiyyəti üzrə baxılması mümkün hesab edilmiş ərizə başa düşülür (digər mənbələr ilə yanaşı bax: *"Leyla Şahin Türkiyəyə qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Leyla Şahin v. Turkey* [GC], no. 44774/98, § 128, ECHR 2005-XI) və *"Ünər Niderlanda qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Üner v. the Netherlands* [GC], no. 46410/99, § 41, ECHR 2006-XII)). Böyük Palata qeyd edir ki, 2005-ci il 1 mart tarixli qərardadında Palata ərizəçilərin Konvensiyanın 14-cü maddəsi və 1 saylı protokolun 2-ci maddəsi ilə bağlı olmayan, o cümlədən Konvensiyanın 3-cü və 6-cı maddəsinin 1-ci bəndi üzrə şikayətlərinə baxılmasını mümkünsüz hesab etmişdir. Beləliklə, ərizəçilərin irəli sürmək istəyində olduqları bu şikayətlərə Böyük Palata tərəfindən baxılması mümkün deyil.

## II. HÖKUMƏTİN İLKİN ETİRAZI

110. Məhkəmə qeyd edir ki, ərizəyə baxılmasının mümkünlüyü ilə bağlı qərardadında Hökumətin dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməməsinə dair 2004-cü il 15 mart tarixli qeydlərində irəli sürdüyü ilkin etiraza Konvensiyanın 14-cü maddəsi və 1 saylı protokolun 2-ci maddəsi əsasında şikayətin mahiyyəti ilə birgə baxılması müəyyənləşdirilmişdir. 2006-cı il 7 fevral tarixli qərarında (31-ci bənd) Məhkəmə müəyyən etmişdir ki, dövlətdaxili hüquq müdafiə

vasitələrini tükəndirilməməsinə dair tərəflərin izahatları işin mahiyyəti ilə yaxından bağlılığı olan sualların ortaya çıxmasına səbəb olmuşdur. Çex Konstitusiya Məhkəməsi ilə razılaşdırılmışdır ki, ərizədə mühüm əhəmiyyəti olan məsələlər qaldırılmışdır və ortada həyati əhəmiyyətli maraqlar mövcuddur. Bu səbəbdən və işin mahiyyəti ilə bağlı digər məsələlər üzrə pozuntunun olmaması barədə gəldiyi nəticəni nəzərə alaraq, Palata ərizəçilərin hazırkı işdə həmin tələbə əməl edib-etmədiyini araşdırmağı zəruri hesab etmir.

111. Xatırladılmalıdır ki, işin baxılması üçün Böyük Palataya verildiyi hallarda o, ərizənin mümkünlüyü ilə bağlı məsələləri də (misal üçün, bu məsələlərə işin mahiyyəti ilə birgə baxılması qərarı qəbul edilmişdirsə və ya hər hansı başqa səbəbdən onlara işin mahiyyətinə baxılması mərhələsində baxılırsa) araşdıra bilər (bax: *"K. və T. Finlandiyaya qarşı" işi üzrə Böyük Palatanın qərarı* (*K. and T. v. Finland* [GC], no. 25702/94, § 141, ECHR 2001-VII)).

112. Belə olan halda Böyük Palata ərizəçilər tərəfindən hazırkı işdə dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi tələbinə əməl edilib-edilmədiyinin müəyyənləşdirilməsini zəruri hesab edir.

113. Hökumət ərizəçilərin öz hüquqlarını bərpa etmək üçün mümkün olan bütün vasitələrdən istifadə etmədiklərini bildirmişdir. Onlardan heç biri xüsusi məktəblərdə yerləşdirilmələri barədə qərardan şikayət etməmişdir. Altı nəfər konstitusiya şikayəti verməmişdir. Bundan əlavə, Konstitusiya Məhkəməsinə müraciət etmiş ərizəçilərdən yalnız beşi xüsusi məktəblərə yerləşdirilmələri barədə qərarları mübahisələndirmişdir. Ərizəçilərdən heç biri Mülki Məcəllə əsasında iddia qaldıraraq ləyaqətlərini və şəxsi qeyri-əmlak hüquqlarını müdafiə etmək üçün səy göstərməmiş və onların valideynləri məsələ ilə bağlı Təhsil Nazirliyi nəzdindəki Məktəb Müfəttişliyinə müraciət etməmişlər.

114. Ərizəçilər ilk növbədə bildirmişlər ki, Çex Respublikasında təhsil sahəsində irqi ayrı-seçkilik ilə bağlı şikayətlərə baxılması üçün səmərəli və adekvat vasitə mövcud deyil. Xüsusilə, Konstitusiya Məhkəməsi tərəfindən hazırkı iş üzrə mövqeyini ifadə etməsindən və ərizəçilərin istinad etdikləri ümumi təcrübəyə önəm verməkdən imtina etməsindən sonra konstitusiya şikayəti vermək hüququ səmərəsiz vasitəyə çevrilmişdir. Ərizəçilərin sözlərinə görə buna görə də şikayət verməmiş ərizəçilər bununla bağlı tənqid oluna bilməzlər. İnzibati şikayətin verilməməsinə gəlincə, ərizəçilər bildirmişlər ki, onların valideynləri zəruri informasiyanı yalnız bu şikayətin verilmə müddəti başa çatdıqdan sonra əldə etmişlər. Hətta Konstitusiya Məhkəməsi belə bu şikayətlərin edilməməsinə əhəmiyyət verməmişdir. Nəhayət, şəxsi qeyri-əmlak hüquqlarının müdafiə edilməsi üçün iddia icra edilməli olan inzibati qərarlardan şikayət verilməsi üçün vasitə hesab oluna bilməz və Hökumət bu vasitənin səmərəli olması barədə heç bir sübut təqdim etməmişdir.

Bundan əlavə, ərizəçilər bildirmişlər ki, hətta səmərəli vasitənin mövcud olduğu fərz edilərsə belə, Çex Respublikasında mövcud olan xüsusi məktəblər sisteminə bənzər inzibati təcrübənin irqçiliyə yol verməsi və ya onu təşviq etməsi ilə bağlı işlərdə bu vasitələrdən istifadə edilməsi məcburi deyil. Onlar həmçinin Çex Respublikasında qaraçılara qarşı irqi əlamətlərə görə nifrəti və irqçi və ksenofobiya xarakteri daşıyan cinayət əməllərinə münasibətdə tətbiq edilən cəzaların qeyri-qənaətbəxş olmasını Məhkəmənin diqqətinə çatdırmışlar.

115. Məhkəmə bir daha qeyd edir ki, Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndində qeyd edilmiş dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi qaydası ölkə daxili sistemin iddia olunan pozuntular ilə bağlı səmərəli müdafiə vasitəsini təmin etməsi fərziyyəsinə əsaslanır. Məhkəmədə müvafiq zaman çərçivəsində səmərəli vasitənin nəzəri və praktiki baxımdan mövcud olmasını sübut etmək vəzifəsi hüquq müdafiə vasitələrinin tükəndirilmədiyini iddia edən Hökumətin üzərinə düşür; başqa sözlə, Hökumət sübut etməlidir ki, vasitədən istifadə edilməsi, ondan istifadə edərək ərizəçinin şikayəti üzrə hüquqlarının bərpası mümkün olmuş və vasitə uğur qazanmaq üçün ağlabatan perspektiv vəd etmişdir (bax: *"V. Birləşmiş Krallığa qarşı" işi üzrə Böyük Palatanın qərarı (V. v. the United Kingdom* [GC], no. 24888/94, § 57, ECHR 1999-IX)).

116. Dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi qaydasının tətbiqi zamanı bu qaydanın Konvensiyanı ratifikasiya etmiş ölkələrin təsis etməyə razılıq verdikləri insan hüquqlarının müdafiəsi mexanizmləri kontekstində tətbiq edilməsi faktı lazımi qaydada nəzərə alınmalıdır. Buna görə də Məhkəmə qəbul etmişdir ki, Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndi

müəyyən dərəcədə qeyri-sərt formada və həddən artıq formallığa yol verilmədən tətbiq olunmalıdır. Bundan əlavə, Məhkəmə qəbul etmişdir ki, hüquq müdafiə vasitələrinin tükəndirilməsi qaydası mütləq deyil və onun avtomatik şəkildə tətbiqi mümkünsüzdür; bu qaydaya əməl edildiyini araşdırmaq üçün hər bir fərdi işin hallarına baxmaq lazımdır. Bu o deməkdir ki, xüsusilə Məhkəmə yalnız maraqlı iştirakçı dövlətin hüquq sistemində formal vasitələrin mövcudluğunu deyil, onların tətbiq olunduğu ümumi konteksti, həmçinin ərizəçi ilə şəxsən bağlı olan halları real surətdə nəzərə almalıdır. Bundan sonra o, işin bütün hallarında dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi üçün ərizəçidən ağlabatan surətdə gözlənilə biləcək hər bir şeyi edib-etmədiyini araşdırmalıdır (bax: *"İlhan Türkiyəyə qarşı" işi üzrə Böyük Palatanın qərarı (İlhan v.Turkey* [GC], no. 22277/93, § 59, ECHR 2000-VII )).

117. Hazırkı işdə Hökumət ilk növbədə şikayət edərək bildirmişdir ki, ərizəçilərdən heç biri xüsusi məktəbə yerləşdirilmə barədə qərardan şikayət etməmiş və ya şəxsi qeyri-əmlak hüquqlarının müdafiəsi ilə bağlı iddia qaldırmamışdır.

118. Bununla bağlı ərizəçilər kimi Məhkəmə də bildirir ki, Çex Konstitusiya Məhkəməsi qərardan şikayət edilməməsinə əhəmiyyət verməmişdir (28-ci məndə bax). Belə olan halda Məhkəmə hesab edir ki, hətta müvafiq ölkənin ən yuxarı instansiya məhkəməsinin istifadə edilməsini məcburi saymadığı vasitədən istifadəni ərizəçilərdən tələb etmək məsələyə həddən ziyadə formal yanaşma olardı.

119. İkincisi, Hökumət bildirmişdir ki, Konstitusiya Məhkəməsinə şikayət vermiş on iki ərizəçidən əslində yalnız beşi xüsusi məktəblərə yerləşdirilmələri barədə qərarları mübahisələndirmiş və beləliklə də, Konstitusiya Məhkəməsinin bu işlərə baxmasını mümkün etmişlər.

120. Məhkəmə qeyd edir ki, beş ərizəçinin konstitusiya şikayətini lazımı formada təqdim etməsi nəticəsində Konstitusiya Məhkəməsinə ərizəçilərin hazırda Məhkəməyə təqdim etdikləri bütün şikayətlər üzrə qərar qəbul etmək imkanı vermişdir. Eyni zamanda Konstitusiya Məhkəməsi də müəyyən etmişdir ki, şikayətlərin dairəsi ərizəçilərin şəxsi maraqlarının həddini aşmışdır və bu mənada onun qərarı daha ümumi tətbiq dairəsinə malikdir.

121. Bundan əlavə, Konstitusiya Məhkəməsinin 1999-cu il 20 oktyabr tarixli qərarından göründüyü kimi məhkəmə baxışını müvafiq qanunvericilik müddəalarının aidiyyəti dövlət orqanları tərəfindən təfsiri və tətbiqi ilə bağlı məsələlərin araşdırılması ilə məhdudlaşdırmış, bu təfsir və tətbiqin ərizəçilər tərəfindən ayrı-seçkilik xarakteri daşıması iddia olunan nəticələrinə baxmamışdır. İrqi ayrı-seçkilik ilə bağlı şikayətə gəlincə, o həmçinin bildirmişdir ki, ümumi sosial kontekstə qiymət vermək onun vəzifəsi deyil.

122. Bu halda konstitusiya şikayəti verməmiş on üç ərizəçinin işlərinə baxılacağı və ya xüsusi məktəb direktorunun qərarından şikayət veriləcəyi təqdirdə Konstitusiya Məhkəməsinin qərarının fərqli olacağını güman etməyə əsas verən heç bir dəlil yoxdur. Yuxarıda deyilənləri nəzərə alaraq Məhkəmə hazırkı işin xüsusi hallarında bu vasitənin ərizəçilərə pozulmuş hüquqlarını bərpa etməyə imkan verdiyinə və ya uğur qazanmaq üçün ağlabatan perspektiv vəd etdiyinə dair fikirlər ilə razılaşmır.

123. Buna görə də Hökumətin bu iş üzrə ilkin etirazı təmin edilməməlidir.

## III. 1 SAYLI PROTOKOLUN 2-Cİ MADDƏSİ İLƏ BİRLİKDƏ KONVENSİYANIN 14-CÜ MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

124. Ərizəçilər bildirmişlər ki, onlar irqlərinə və sosial mənşələrinə görə ayrı-seçkiliyə məruz qalmış və eyni vəziyyətdə olan digər uşaqlar ilə müqayisədə onlar ilə heç bir obyektiv və ağlabatan əsas olmadan daha pis rəftar edilmişdir. Bununla bağlı onlar 1 saylı protokolun 2-ci maddəsi ilə birlikdə Konvensiyanın 14-cü maddəsinə istinad etmişlər. Burada qeyd edilir:

**Konvensiyanın 14-cü maddəsi**

"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər status kimi hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin edilməlidir."

**1 saylı protokolun 2-ci maddəsi**

"Heç bir şəxsin təhsil hüququndan imtina edilə bilməz. Dövlət təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyaları yerinə yetirərkən, valideynlərin öz dini və fəlsəfi baxışlarına müvafiq olaraq təhsil və tədrisi təmin etmək hüququna hörmətlə yanaşmalıdır."

### A. Palatanın qərarı

125. Palata qərara gəlmişdir ki, 1 saylı protokolun 2-ci maddəsi ilə birlikdə Konvensiyanın 14-cü maddəsinin pozuntusuna yol verilməmişdir. Palatanın qərarına görə Hökumət Çex Respublikasında xüsusi məktəblərə yalnız qaraçı uşaqların göndərilməsinin qarşısını almaq işində uğurlar əldə etmişdir və bu məktəblərdə şagirdlərin müəyyən kateqoriyalarının əsas təhsili almalarına kömək məqsədilə əhəmiyyətli səylər göstərilmişdir. Bu baxımdan Palatanın fikrincə uşaqların xüsusi məktəblərə yerləşdirilməsi ilə bağlı qaydalar şagirdlərin etnik mənşəyi ilə bağlı olmamış, təhsil sisteminin uşaqların ehtiyaclarına, qabiliyyətinə və qüsurlarına uyğunlaşdırılması kimi qanuni məqsədə xidmət etmişdir.

126. Palata xüsusi olaraq qeyd etmişdir ki, ərizəçilər tədris sahəsindəki çətinliklərinin adi ibtidai məktəblərin təhsil proqramlarına uyğun olaraq təhsil almalarına imkan vermədiyi ilə bağlı ekspertlərin gəldikləri nəticəni təkzib edə bilməmişlər. Bundan əlavə qeyd edilmişdir ki, ərizəçilərin valideynləri uşaqlarının xüsusi məktəblərə yerləşdirilməsi və ya bu məktəblərdə təhsillərini davam etdirməsinin qarşısını almaq üçün heç bir tədbir görməmiş, hətta bunu özləri xahiş etmişlər.

127. Palata öz qərarında qəbul etmişdir ki, müxtəlif rəqabət aparan maraqları uzlaşdıran təhsil sistemini seçmək asan iş deyil və bu məsələnin ideal həlli yolu görünmür. Bununla belə, statistik göstəricilərin narahatedici rəqəmlər ortaya çıxardığını və Çex Respublikasında qaraçı uşaqların təhsili ilə bağlı vəziyyətin heç bir halda təkmil olmadığını etiraf etməklə yanaşı, Məhkəmə işdə olan konkret sübutların ərizəçilərin xüsusi məktəblərə yerləşdirilməsinin və ya bəzi hallarda isə burada təhsillərini davam etdirmək üçün saxlanmasının irqi baxımdan qərəzli münasibətin nəticəsi olduğu qənaətinə gəlinməsinə imkan vermədiyini qət etmişdir.

### B. Tərəflərin izahatları

#### *1. Ərizəçilər*

128. Ərizəçilər bildirmişlər ki, Palatanın ayrı-seçkilik anlayışını məhdudlaşdırıcı təfsir etməsi yalnız Konvensiyanın məqsədi ilə deyil, həmçinin Məhkəmənin və Avropada, eyni zamanda onun hüdudlarında kənarda fəaliyyət göstərən digər məhkəmələrin presedent hüququna ziddiyyət təşkil etmişdir.

129. Onlar ilk növbədə Böyük Palatadan ayrı-seçkiliyin olub-olmaması barədə qərar vermək üçün Palata tərəfindən istifadə edilmiş anlaşılmaz və ziddiyyətli meyara düzəliş etməyi xahiş etmişlər. Onlar bildirmişlər ki, Palata dövlət siyasətinin və ya ümumi xarakterli tədbirin bir qrup şəxs üçün qeyri-mütənasib şəkildə mənfi nəticələr doğurduğu hallarda, hətta əgər o, xüsusi olaraq həmin qrupa qarşı yönəlməmişdirsə belə, ayrı-seçkilik xarakteri daşıdığının hesab edilməsi imkanının istisna edilməsinin mümkünsüzlüyü prinsipini təsdiq etsə də, Məhkəmənin əvvəlki presedent hüququndan fərqli mövqe nümayiş etdirərək (bax: *"Tlimmenos Yunanıstana qarşı" işi üzrə Böyük Palatanın qərarı (Thlimmenos v. Greece* [GC], no. 34369/97, § 44, ECHR 2000-IV); *"Huqendeyk Niderlanda qarşı" işi üzrə qərardad* (*Hoogendijk v. the Netherlands* (dec.), no.58641/00, 6 January 2005) və *"Naçova və Digərləri Bolqarıstana qarşı" işi üzrə Böyük Palatanın qərarı* (*Nachova and Others v. Bulgaria* [GC], nos. 43577/98 and 43579/98, § 157, ECHR 2005-VII)), səhvən Çex dövlət orqanlarının ayrı-seçkilik etmək niyyətinin sübut edilməsini ərizəçilərdən tələb etmişdir. Ərizəçilərin izahatlarına görə belə tələbin irəli sürülməsi qeyri-real və məntiqsiz olmuşdur, belə ki, xüsusi məktəblərin etnik qruplar arasında seqreqasiyaya yol vermək üçün nəzərdə tutulub-tutulmadığı sualının ortaya atılmasının məsələyə heç bir aidiyyəti yox idi, çünki bu məktəblərin təcrübədə məhz belə nəticələr doğurması heç kim üçün mübahisə yaratmır. Reallıq ondan ibarətdir ki, xoş niyyətləri olan şəxslər savadsızlıqlarına, etinasızlıqlarına görə və ixtiyarsız olaraq tez-tez ayrı-seçkilik xarakteri daşıyan fəaliyyət ilə məşğul olurlar.

130. Ərizəçilər qeyd etmişlər ki, yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işində (157-ci bənd) sübut etmə vəzifəsinin fərqli tərəfin üzərinə qoyulmasından imtinasını izah edən zaman Məhkəmə irqi motivlər əsasında törədilmiş zorakı cinayət ilə zorakı xarakter daşımayan irqi ayrı-seçkiliyin, misal üçün məşğulluq və ya xidmətlərin tədarükünün fərqləndirilməsinə xüsusi diqqət vermişdir. Onların fikrincə təhsil sahəsində irqi ayrı-seçkilik tam şəkildə ayrı-seçkilik xarakteri daşıyan hərəkətlərin ikinci kateqoriyasına aid edilə bilər ki, burada da onun mövcudluğu qəsd olmadan da sübut edilə bilər. Bu yaxınlarda Məhkəmə *"Zarb Adami Maltaya qarşı"* işi üzrə(*Zarb Adami v. Malta* (no. 17209/02, §§ 75-76, ECHR 2006-VIII)) qəbul edilmiş qərarında bildirmişdir ki, rəftardakı fərqin 14-cü maddənin tələblərini pozması üçün qanunvericilikdə əks etdirilməsi zəruri deyil və "dərin kök salmış təcrübə" və ya "*de facto* vəziyyət" də ayrı-seçkiliyin yaranmasına səbəb ola bilər. Hazırkı işdə olduğu kimi ərizəçilər hesab etmişlər ki, qeyri-mütənasib nəticənin mövcudluğunu mübahisəsiz şəkildə sübut edə bildikləri üçün mübahisə predmeti olan qərarın ərizəçilərin etnik mənşəyi ilə bağlı olmadığını və təcrübədə ayrı-seçkiliyə qarşı kifayət qədər təminatların olduğunu sübut etmək vəzifəsi Hökumətin üzərinə düşməlidir.

131. Bununla bağlı ərizəçilər qeyd etmişlər ki, 7 saylı Ümumi Siyasətə dair Tövsiyəsində İrqçilik və Dözümsüzlük əleyhinə Avropa Komissiyası dövlətləri ayrı-seçkilik salmaq niyyətinin sübut edilməsini tələb etmək konsepsiyası olmadan istər birbaşa, istərsə də dolayı ayrı-seçkiliyin qadağan edilməsinə dəvət etmişdir. Avropa Şurasının üzvü olan dövlətlərin böyük əksəriyyəti milli qanunvericiliklərində ayrı-seçkiliyi aşkar şəkildə qadağan etmişlər və bu zamanda ayrı-seçkiliyin mövcud olmasını sübut etmək üçün belə niyyətin olması tələb olunmur. Bu yanaşma həmin dövlətlərin məhkəmə təcrübəsində də öz əksini tapmışdır. Bu kontekstdə ərizəçilər digər işlər ilə yanaşı Lordlar Palatasının "*Kraliça Praqa hava limanının immiqrasiya xidmətinin əməkdaşı və digərlərinə qarşı, ex parte Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzi və digərləri"* işi üzrə qərarına (105-ci bənd) və Avropa Birliyi Məhkəməsinin təcrübəsinə istinad etmişlər. Son olaraq onlar qeyd etmişlər ki, dolayı ayrı-seçkilik eyni zamanda beynəlxalq hüquq, o cümlədən Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt və İrqi ayrı-seçkiliyin ləğv edilməsi haqqında konvensiya ilə qadağan edilir.

132. Beləliklə, 14-cü maddə ilə təsbit edilmiş müdafiənin və onun səmərəliliyinin təmin olunmasının həyati önəmini nəzərə alaraq ərizəçilər hesab etmişlər ki, digər məsələlər ilə yanaşı ayrı-seçkiliyə yol verilməməsi prinsipinin iki Avropa məhkəməsi tərəfindən təfsiri və tətbiqində ardıcıllığın təmin olunması məqsədilə Məhkəmə tərəfindən belə vəziyyətlərdə tətbiq edilən qaydalara aydınlıq gətirilməsi zəruridir. Bu səbəbdən ərizəçilər Böyük Palatadan irqi motivlərə görə törədilən cinayətlərin tərkib əlaməti kimi çıxış etdiyi hallardan başqa digər hallarda 14-cü maddəyə

uyğun olaraq ayrı-seçkiliyin mövcudluğunun sübut edilməsi üçün qəsdin (niyyətin) olmasının zəruri olmadığı ilə bağlı aydın bir qərar qəbul etməyi xahiş etmişlər.

133. Hazırkı işdə ərizəçilər aidiyyəti dövlət orqanlarının mübahisə predmetinin mövcud olduğu zaman qaraçılara qarşı irqi əlamətlərinə görə qərəzli münasibətdə olduqlarını və ya qaraçılara qarşı ayrı-seçkiliyə yol vermək niyyətlərinin olduğunu, yaxud da müsbət istiqamətdə tədbirlər görmədiyini iddia etmirlər. Ərizəçilər yalnız dövlət orqanlarının heç bir obyektiv və ağlabatan əsaslandırma olmadan onlarla eyni vəziyyətdə olan qeyri-qaraçılarla müqayisədə fərqli və pis rəftar etdiklərini sübut etməli idilər və öz izahatlarında bunu da etmişlər. Ərizəçilərin fikrincə Hökumət tərəfindən qaldırılmış ümumi Avropa standartı məsələsi daha çox siyasi məsələdir və bu standartın mövcud olub-olmamasının işə aidiyyəti yoxdur, belə ki, rəftarda bərabərlik prinsipi beynəlxalq hüququn imperativ normasıdır.

134. Eyni zamanda ərizəçilər Konvensiyanın 14-cü maddəsinin tələblərinin pozulduğunu sübut etmək üçün istifadə oluna bilinəcək statistik məlumatlar və digər sübut növləri ilə bağlı mövqe ifadə etməsini Böyük Palatadan xahiş etmişlər. Ərizəçilər bildirmişlər ki, Palataya təqdim etdikləri böyük sayda statistik məlumatlara, onların düzgünlüyü yoxlanılmadan və bu məlumatların xüsusi hökumətlərarası qurumlar tərəfindən təsdiq edilməsinə (İrqçilik və Dözümsüzlük Əleyhinə Avropa Komissiyası, İrqi Ayrı-Seçkiliyin Ləğv Edilməsi üzrə Komitə, Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitə) və hökumətin özü (41 və 66-cı bəndlərə bax) tərəfindən qəbul edilməsinə baxmayaraq, əhəmiyyət verilməmişdir. Bu məlumatlara görə ərizənin təqdim edildiyi tarix üçün ibtidai məktəblərdə təhsil alan şagirdlərin yalnız 5 faizinin qaraçılar olmasına baxmayaraq, onlar xüsusi məktəblərdə yerləşdirilmiş uşaqların 50 faizindən artığını təşkil etmişlər. Ostravada qeyri-qaraçı uşaqların 2 faizindən də az hissəsi xüsusi məktəblərə getdiyi təqdirdə, qaraçı uşaqların 50 faizindən artığı məhz bu məktəblərdə yerləşdirilmişlər. Ümumiyyətlə, qaraçı uşağın eyni vəziyyətdə olan qeyri-qaraçı uşağa nisbətən xüsusi məktəbə göndərilmək ehtimalı iyirmi yeddi dəfədən artıqdır.

135. Ərizəçilərin fikrincə bu rəqəmlər onu göstərir ki, bilərəkdən, yaxud qınanılmalı olan səhlənkarlıq sayəsində irq və ya etnik mənşə məktəbə yerləşdirmə prosesinə əhəmiyyətli dərəcədə təsir etmiş və ya bu prosedə həlledici amil olmuşdur. Onların Ostrava şəhərindəki digər qaraçı uşaqlar kimi etnik mənşələrinə görə ayrı-seçkiliyin qurbanı olmaları ehtimalı heç vaxt təkzib olunmamışdır. Mübahisə edilə bilməz ki, ərizəçilər xüsusi məktəblərə yerləşdirilmələri nəticəsində qeyri-qaraçı uşaqlarla müqayisədə daha aşağı səviyyədə təhsil almışlar və bu, onları texniki-peşə məktəblərindən başqa hər hansı orta məktəbdə təhsillərini davam etdirmək imkanından əhəmiyyətli dərəcədə məhrum etmişdir.

136. Bu kontekstdə onlar bildirmişlər ki, istər Avropada, istərsə də onun hüdudlarından kənarda ayrı-seçkilik xarakteri daşıyan nəticələr ilə bağlı işlərdə statistik məlumatlardan tez-tez istifadə olunur, belə ki, bu, dolayı ayrı-seçkiliyi sübut etmək üçün yeganə vasitə olmuşdur. BMT çərçivəsində bağlanmış müqavilələrin icrası üzərində nəzarəti həyata keçirən qurumlar və Avropa Birliyi Məhkəməsi statistik məlumatları ayrı-seçkilik faktını sübut etmək üçün vasitə kimi qəbul etmişdir. Avropa İttifaqı Şurasının 2000/43/EC nömrəli direktivində açıq-aydın bildirilmişdir ki, dolayı ayrı-seçkilik istənilən vasitə ilə, o cümlədən “statistik sübutlar əsasında” sübut oluna bilər.

137. Konvensiya ilə yaradılan təsisatlara gəlincə, ərizəçilər qeyd etmişlər ki, *“Şərqi Afrikanın Asiya əsilli sakinləri Birləşmiş Krallığa qarşı”* işində (*East African Asians v. the United Kingdom* (nos. 4403/70-4530/70, Commission’s report of 14 December1973, Decisions and Reports 78-A, p. 5) irqi ayrı-seçkilik faktını təsbit etmək üçün İnsan hüquqları üzrə Komissiya qanunvericiliyin Asiya əsilli Britaniya vətəndaşları üçün yaratdığı qeyri-mütənasib nəticələrə dair əlaqəli halları, o cümlədən statistik məlumatı nəzərə almışdır. Bu yaxınlarda Məhkəmə yuxarıda qeyd edilmiş *Huqendeyk* işi üzrə qərarında göstərmişdir ki, statistik məlumatlar özü-özlüyündə ayrı-seçkilik faktını sübut etmək üçün kifayət etməsə də, xüsusilə mübahisə doğurmadığı hallarda onlar prima facie sübut hesab oluna bilər ki, bu zaman da Hökumətdən fərqli rəftar etmənin obyektiv izahı tələb oluna bilər. Bundan əlavə, yuxarıda qeyd edilmiş *Zarb Adami* işi üzrə qərarında Məhkəmə digər sübutlar ilə yanaşı qeyri-mütənasib nəticələrə dair statistik məlumatlara əsaslanmışdır.

138. Ərizəçilər əlavə etmişlər ki, hazırkı işdə Konvensiyanın 14-cü maddəsinin məqsədləri üçün fərqli rəftarın obyektiv və ağlabatan əsasları olub-olmadığını müəyyən etməklə və qənaətbəxş izah olmadan çıxarılacaq nəticələri dəqiqləşdirməklə Məhkəmənin presedent hüququna aydınlıq gətirilməsi Böyük Palatanın işinə kömək etmiş olar. Ərizəçilər digər qərarlar ilə yanaşı *"Timişev Rusiyaya qarşı"* (*Timishev v. Russia* (nos. 55762/00 and 55974/00, § 56, ECHR 2005-XII)) və *"Moldovan və Digərləri Rumıniyaya qarşı" (no. 2)* (nos. 41138/98 and 64320/01, § 140, 12 July 2005) işlərinə istinad edərək bildirmişlər ki, ərizəçi rəftarda fərqliliyi sübut etdiyi təqdirdə, bu rəftarın əsaslı olmasını sübut etmək vəzifəsi cavabdeh dövlətin üzərinə düşür. İrqi nöqteyi-nəzərdən neytral bir izah olmadıqda, fərqli rəftarın irqi əlamətlərə görə həyata keçirildiyi barədə nəticə çıxarmaq hüquqa uyğundur. Ərizəçilərin izahatlarına görə onların işlərində nə Çex dilini yaxşı bilməmək, nə yoxsulluq, nə də ki, fərqli sosial-iqtisadi statusa malik olma obyektiv və ağlabatan əsas kimi çıxış edə bilməz. Onlar xüsusi məktəblərdə təhsil alan qaraçı uşaqların sayının qeyri-mütənasib dərəcədə çox olmasının intellektual qabiliyyətin yoxlanılması üçün keçirilən imtahanların nəticələri ilə izah edilməsini və ya valideynlərin razılığının olması ilə əsaslandırılmasını inkar etmişlər (həmçinin 141-142-ci bəndlərə bax).

139. Strasburqdakı təsisatların da dəfələrlə təsdiq etdiyi kimi irqi və etnik ayrı-seçkiliyə qarşı mübarizənin əhəmiyyətini nəzərə alaraq, ərizəçilər hesab etmişlər ki, Böyük Palata təhsil sahəsində seqreqasiyaya haqq qazandırmaq üçün dövlətin "təqdir səlahiyyətinə (öz mülahizəsinə uyğun qərar qəbul etmək səlahiyyəti – ***tərcüməçinin qeydi***)" istinad edilməsinin yol verilməzliyini aşkar şəkildə bəyan etməlidir. Bu işdə irqi və etnik ayrı-seçkilik ilə bağlı mövcud olan ciddi iddialar fonunda Çex dövlətinə məhdudiyyətsiz təqdir səlahiyyəti vermiş Palatanın yanaşması əsassız olmuş və Məhkəmənin presedent hüququna ziddiyyət təşkil etmişdir. Bu iş ən mühüm maddi hüquqlardan biri, təhsil hüququ ilə bağlı olduğu üçün Məhkəmənin böyük diqqətini tələb edir.

140. Bundan əlavə, ərizəçilər bildirmişlər ki, Palata iki həlledici məsələ, xüsusilə valideynlərin razılığı və psixoloji imtahanların mötəbərliliyi üzrə əhəmiyyətli sübutları yanlış təfsir etmiş və düzgün olmayan nəticələr çıxarmışdır.

141. Şikayətin təqdim edildiyi zaman təhsil-psixologiya mərkəzləri tərəfindən istifadə olunan imtahanların aparılması və nəticələrin təfsiri qaydasını tənzim edən vahid normalar mövcud deyildi. Beləliklə, çox şey psixoloqların istəyindən asılı idi və irqi zəmində qərəzlilik və mədəniyyətlərdəki fərqlərin nəzərə alınmaması üçün geniş imkan yaranırdı. Bundan əlavə, onların və digər qaraçı uşaqların keçməyə məcbur edildikləri imtahanlar elmi cəhətdən qüsurlu, təhsil baxımından əsassız idilər. Sənədlər sübut edir ki, ərizəçilərin bir qismi əqli qüsurlarına görə deyil, başqa səbəblərə görə (dərs buraxma, pis davranış və hətta valideynlərin pis davranışı) xüsusi məktəblərə yerləşdiriliblər. Çex Hökuməti özü imtahanların ayrı-seçkilik xarakteri daşıyan nəticələr doğurduğunu etiraf etmişdir (66-cı bəndə bax). Hökumət hazırkı iş üzrə qeydlərində eyni zamanda etiraf etmişdir ki, ərizəçilərdən biri yaxşı şifahi ünsiyyət vərdişlərinin olmasına baxmayaraq xüsusi məktəbə yerləşdirilmişdir.

142. Ərizəçilərin fikrincə ayrı-seçkilik xarakteri daşıyan rəftara məruz qalmalarına valideynlərinin xüsusi məktəblərə yerləşdirilmələrinə razılıqları ilə də haqq qazandırıla bilməzdi. Hökumət uşağın ali hüququnu və xüsusilə bütün uşaqların təhsil sahəsində bərabər hüquqluluğunu müdafiə etmək üçün hüquqi öhdəlik daşıyırdı. Nə valideynlərin davranışı, nə də valideynlərin seçimi onları bu hüquqdan məhrum edə bilməzdi.

Ərizəçilərdən bir neçəsinin valideyni tərəfindən verilməsi iddia edilən "razılığın" həqiqiliyi bu məsələnin razılaşdırıldığını şübhə altına alan məktəb sənədlərindəki uyğunsuzluqlar səbəbindən mübahisə doğurmuşdur. Hər bir halda, razılığın bütün valideynlər tərəfindən verildiyi ehtimal edilsə belə, onun heç bir hüquqi dəyəri yoxdur, belə ki, qeyd olunan valideynlərə razılıq verməmək hüququ, xüsusi məktəblərə yerləşdirməyin alternativi və ya bu cür məktəblərdə yerləşdirmə riski və onun nəticələri barədə heç zaman lazımi məlumat verilməmişdir. Prosedur əsas etibarı ilə formal xarakter daşımışdır: valideynlərə əvvəlcədən doldurulmuş forma və psixoloji imtahanların nəticələri təqdim edilmişdir. Valideynlər elə bilirdilər ki, bu nəticələrdən şikayət verə bilməzlər. İddia edilən sonradan ümumtəhsil məktəbinə keçirilməyi xahiş etmək hüququna gəlincə, ərizəçilər qeyd etmişlər

ki, ilk gündən başlayaraq onlara məktəbdə çox aşağı səviyyədə təhsil verilmiş və bu da onların sonradan ümumtəhsil məktəblərinin tələblərinə cavab verməlirini qeyri-mümkün etmişdir.

Bundan əlavə, təhsil sahəsində qaraçıların seqreqasiyası tarixi və qaraçı valideynlərə mövcud seçim imkanları barədə zəruri məlumatın verilməməsi nəzərə alınmadan razılıq məsələsinə baxılması real deyil. Hüquqdan imtinanın müəyyən hüquqlar üçün hüquqa uyğun, digər hüquqlar üçün isə hüquqa zidd olmasının mümkünlüyü və bunun hər hansı mühüm ictimai marağa zidd getməməli olması barədə Məhkəmə tərəfindən ifadə edilmiş mövqeyə (bax: *"Hakansson və Sturesson İsçevə qarşı"* (*Håkansson and Sturesson v. Sweden*, 21 February 1990, § 66, Series A no. 171-A)) istinad edən ərizəçilər bildirmişlər ki, uşağın təhsil sahəsində irqi ayrı-seçkiliyə məruz qalmamaq hüququndan imtina etməsi mümkün deyil.

143. Bu iş "ümumi əhəmiyyətli ciddi məsələ"yə, xüsusilə Avropa hökumətlərinin artmaqda olan irqi və etnik müxtəlifliyin öhdəsindən gələ və zəif azlıqları qoruya bilmələri məsələlərinə toxunur. Bununla əlaqədar olaraq, təhsil sahəsində qaraçılara qarşı ayrı-seçkilik Avropa Şurasının üzvü olan bütün ölkələrdə mövcud olduğu üçün bu sahədə bərabər imkanlara malik olmaq ən mühüm məsələdir. Məktəbdə ayrı-seçkiliyə son qoyulması qaraçılarla ümumiyyətlə bərabər şəkildə rəftar edilməsinə imkan yaradacaq.

144. Ərizəçinin təqdim edilməsindən keçən dövr ərzində Çex məktəblərində qaraçılara qarşı irqi seqreqasiyada əhəmiyyətlə dəyişiklik olmamışdır. Ərizəçilərin öz gələcəkləri və heç bir perspektivin olmaması onların ayrı-seçkilik salınaraq xüsusi məktəblərə yerləşdirilməsinin zərərini ortaya çıxarmışdır. Belə ki, 2006-cı ilin mayında ərizəçilərdən səkkizi xüsusi məktəblərdə təhsillərini davam etdirirdi, xüsusi məktəbi başa vurmuş digər altı nəfər isə iş tapa bilmirdilər. Qabiliyyət imtahanı keçdikdən sonra adi ibtidai məktəbə qəbul olunmasına icazə verilmiş dörd ərizəçidən ikisi hələ də məktəbdə qalmaqda davam edir, digəri iş tapa bilmirdi və dördüncüsü isə texniki-peşə məktəbinə qəbul edilmişdi. Ərizəçilər hesab edirdilər ki, artıq aydın idi ki, onlardan heç biri ümumi orta məktəb təhsili, eləcə də universitet təhsili almayacaqdır.

145. Nəhayət ərizəçilər qeyd etmişlər ki, xüsusi məktəblər sisteminin ləğv edilməsini nəzərdə tutan Məktəblər haqqında yeni qanun 2004-cü ilin sonlarında qəbul edilmişdir. Yeni qanunvericilikdə etiraf edilmişdir ki, sadəcə olaraq məktəblərin adında "xüsusi" sözünün olması bura təhsil alanların üzərinə natamamlıq damğasını vurur. Bununla belə, əslində yeni qanun sadəcə təhsil proqramlarının əsaslandığı meyarı dəyişməklə təcrübədə elə bir yeniliyə səbəb olmamışdır. Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzi tərəfindən 2005 və 2006-cı illərdə həyata keçirilmiş geniş araşdırma göstərmişdir ki, bir çox hallarda xüsusi məktəblər sadəcə adı dəyişdirilərək "islah məktəbləri" və ya "praktiki məktəblər" adlandırılmış və bu zaman bu məktəblərin müəllim heyətinin tərkibində və ya təhsil proqramlarının məzmununda əhəmiyyətli heç bir dəyişiklik edilməmişdir.

*2. Hökumət*

146. Hökumət bildirmişdir ki, hazırkı iş çağdaş cəmiyyətdə qaraçıların mövqeyi ilə bağlı sosial problemə dair kompleks məsələlərə toxunur. Nəzəri cəhətdən qaraçılar digər vətəndaşlar ilə eyni hüquqlardan istifadə etsələr də, reallıqda onların perspektivləri istər obyektiv, istərsə də subyektiv amillər ilə məhdudlaşdırılmışdır. Qaraçı icmasının bütün üzvləri cəlb olunmadan və qətiyyət göstərmədən onların vəziyyətində irəliyə doğru hər hansı dəyişikliyin baş verməsi mümkün deyil. Avropa Şurasının üzvü olan dövlətlər bu bərabərsizliyi aradan qaldırmağa çalışan zaman bir sıra siyasi, sosial, iqtisadi və texniki problemlər ilə üzləşmişdilər ki, bu da əsas hüquqlara hörmət edilməsi məsələsi ilə məhdudlaşdırıla bilməzdi. Məhz bu səbəbdən məhkəmələr, o cümlədən İnsan hüquqları üzrə Avropa Məhkəməsi bu sahədə həyata keçirilmiş tədbirləri araşdıran zaman müəyyən dərəcədə təmkin nümayiş etdirməli olmuş və fəaliyyətlərini aidiyyəti dövlət orqanlarının təqdir səlahiyyətlərinə uyğun hərəkət edib-etmədikləri barədə qərar qəbul etməklə məhdudlaşdırmışlar.

147. Hökumət şifahi və yazılı şəkildə verdiyi əvvəlki qeydlərinə istinad edərək təkrarən bildirmişdir ki, ərizəçilərin təhsili məsələsində irq, dərinin rəngi və ya milli azlığa mənsubiyyət kimi əlamətlər həlledici rol oynamamışdır. Ərizəçilər ilə bu əlamətlərinə görə fərqli rəftar edildiyini

təsdiq edən hər hansı konkret sübut yoxdur. Ərizəçilərin məktəb sənədləri onların xüsusi məktəblərə yerləşdirilməsinin etnik mənşələrinə deyil, təhsil-psixologiya mərkəzləri tərəfindən həyata keçirilmiş psixoloji imtahanların nəticələrinə əsaslandığını açıq şəkildə göstərir. Ərizəçilər əsas etibarı ilə intellektual qabiliyyətləri ilə bağlı olan xüsusi təhsil ehtiyaclarından irəli gəlinərək xüsusi məktəblərə yerləşdirildiklərindən və Palatanın qərarında təsdiq etdiyi kimi meyarlar, meyarların tətbiq edilmə prosesi və xüsusi məktəblər sistemi irqi baxımdan neytral olduğundan bu işdə açıq və ya birbaşa ayrı-seçkilikdən danışmaq mümkün deyil.

148. Sonra Hökumət ərizəçilərin bu işin bəzi hallarda yalnız statistik məlumatların köməyi ilə sübut edilməsinin mümkün olduğu dolayı ayrı-seçkilik faktı ilə bağlı olmasına dair arqumentinə toxunmuşdur. Hökumət bildirmişdir ki, ərizəçilərin istinad etdiyi və Məhkəmənin geniş şəkildə statistik məlumatlara əsaslandığı *Zarb Adami* işi (yuxarıda qeyd edilmişdir) hazırkı iş ilə müqayisə oluna bilməz. İlk növbədə, *Zarb Adami* bu qədər mürəkkəb iş deyildi. İkincisi, o işdə andlı iclasçı kimi fəaliyyət göstərmək üçün dəvət edilən kişi və qadınların sayları arasında müəyyən edilmiş statistik uyğunsuzluqlar dövlət tərəfindən qəbul edilmiş qərarın nəticəsində ortaya çıxdığı halda, hazırkı işdə ərizəçilərin istinad etdikləri statistika dövlət tərəfindən hər hansı hərəkət və ya hərəkətsizliyi deyil, ilk növbədə valideynlərin uşaqlarını xüsusi məktəblərə göndərmək istəklərini əks etdirir. Valideynlər belə bir istək ifadə etməsəydilər (razılıq verməklə), uşaqlar xüsusi məktəblərdə yerləşdirilməzdilər.

Bundan əlavə, hazırkı işdə ərizəçilər tərəfindən təqdim edilmiş statistik məlumat kifayət qədər tam olmamışdır, belə ki, bu məlumatlar məktəblərin direktorları tərəfindən təqdim edildiyi üçün yalnız onların subyektiv fikrini əks etdirmişdir. Şagirdlərin etnik mənşələri barədə rəsmi məlumat olmamışdır. Bundan əlavə, Hökumət hesab etmişdir ki, qaraçıların sosial-mədəni vəziyyəti, onların ailə vəziyyəti və təhsilə münasibətləri qiymətləndirilmədən təqdim edilmiş statistikanın heç bir informativ dəyəri yoxdur. Bununla bağlı Hökumət qeyd etmişdir ki, Ostrava bölgəsi Çex Respublikasında qaraçıların ən çox yaşadığı bölgələrdən biridir.

Üçüncü tərəflərin qeydlərində istinad edilmiş mərkəzi və şərqi Avropa ölkələri və digər ölkələr üzrə müqayisəli araşdırmalara gəlincə, Hökumət bu statistik məlumatlar ilə hazırkı işin mahiyyəti arasında hər hansı müvafiq əlaqənin olduğunu hesab etmir. Onun mövqeyinə görə bu araşdırmalar təsdiq edir ki, qaraçı uşaqlar üçün optimal təhsil sisteminin yaradılması son dərəcə mürəkkəb məsələdir.

149. Lakin, Hökumətin fikrincə, ərizəçilər tərəfindən təqdim edilmiş məlumatın mötəbərliyi və dövlətin mövcud vəziyyətə görə məsuliyyət daşımalı olması fərz edilsə belə, bu vəziyyət Konvensiyaya zidd olan dolayı ayrı-seçkilik kimi qiymətləndirilə bilməz. Mübahisə predmeti olan tədbir ayrı-seçkiliyə yol verilməməsi prinsipinə uyğun idi, belə ki, o, qanuni məqsədə, əsas etibarı ilə təhsil prosesinin xüsusi təhsil ehtiyacları olan uşaqların qabiliyyətinə uyğunlaşdırılması məqsədinə xidmət edirdi.

150. Sonuncu məsələ ilə bağlı Hökumət xüsusi məktəblərdə çoxlu sayda qaraçı uşaqların təhsil alması ilə bağlı qənaətbəxş izahat verilməməsinə dair ərizəçilərin iddiası ilə razılaşmamışdır. Qaraçıların təhsil sahəsindəki vəziyyətinin ideal olmadığını qəbul etməklə yanaşı Hökumət hesab etmişdir ki, xüsusi məktəblərin qaraçı icmasının nümayəndələri üçün nəzərdə tutulmadığını və xüsusi məktəblərə yerləşdirmək üçün etnik mənşənin meyar kimi çıxış etmədiyini nümayiş etdirmişdir. O təkrar etmişdir ki, yalnız fərdi pedaqoji və psixoloji imtahanlardan keçdikdən sonra xüsusi məktəblərə yerləşdirilmək mümkün idi. İmtahan prosesi davamlı elmi araşdırmaların predmeti olan texniki bir vasitə olmuşdur və bu səbəbdən də yalnız ixtisaslı kadrlar tərəfindən həyata keçirilməsi mümkün idi. Məhkəmələr müvafiq ixtisasa malik olmadıqları üçün bu sahədə müəyyən təmkinlilik göstərməli idilər. "Addımbaaddım" Beynəlxalq Assosiasiyasının və digər qurumların qeydlərində istinad edilmiş peşəkar standartlara gəlincə, Hökumət bunların hüquqi qüvvəyə malik olan hüquq normaları deyil, ən yaxşı halda mütəxəssislərin məcburi qüvvəyə malik olmayan tövsiyələri və ya təlimatları olduğunu və onlara əməl edilməməsinin beynəlxalq hüquqi məsuliyyətə səbəb ola bilməyəcəyini vurğulamışdır.

151. Ərizəçilərin hər birinin işində istifadə edilmiş metodlar və imtahanların nəticələri barədə təfsilatı məlumatlar mövcuddur. Vaxtı ilə bunlardan heç birinə ərizəçilər tərəfindən etiraz

edilməmişdir. Belə görünür ki, psixoloqların subyektiv yanaşma nümayiş etdirmələri barədə ərizəçilərin iddiaları qərəzlidir və heç bir sübut ilə təsdiq olunmur.

152. Hökumət yenidən razılaşmışdır ki, nadir hallar ola bilər ki, xüsusi məktəblərdə yerləşdirmə səbəbi qavramadakı çətinliklər ilə sosial-mədəni cəhətdən əlverişsiz mühit arasında olsun. On səkkiz iş arasında bu, yalnız bir işdə, doqquzuncu ərizəçi ilə bağlı işdə bariz şəkildə baş vermişdir. Digər hallarda isə pedaqoji-psixoloji diaqnostika və təhsil-psixologiya mərkəzlərində həyata keçirilmiş imtahanlar ərizəçilərin qavrama ilə bağlı çətinliklərinin olduğunu sübut etmişdir.

153. İmtahanları həyata keçirmiş təhsil-psixologiya mərkəzləri uşaqların yerləşdirilməli olduqları məktəbin növü barəsində tövsiyələr vermişlər. Bu məsələdə mühüm, həlledici amil rolunda valideynlərin istəyi çıxış etmişdir. Hazırkı işdə valideynlərə uşaqlarının xüsusi məktəblərdə yerləşdirilməsinin onların razılıqlarından asılı olması barədə məlumat verilmiş və bu qərarın nəticələri onlara izah edilmişdir. Verdikləri razılığın nəticəsi onlara aydın olmasaydı, valideynlər yerləşdirmə ilə bağlı qərardan şikayət verə və istənilən vaxt uşaqlarının başqa məktəbə köçürülməsini tələb edə bilərdilər. Əgər hazırda onların da iddia etdikləri kimi razılıq barədə onlara məlumat verilməsəydi, bu məlumatı aidiyyəti dövlət orqanlarından ala bilərdilər. Bu baxımdan Hökumət qeyd edir ki, 1 saylı protokolun 2-ci maddəsinə görə valideynlər uşaqlarının təhsilində əsas rol oynayır və məsuliyyət daşıyırlar. Valideynlərin davranışında uşaqları üçün ən münasib təhsil formasını seçə bilmədikləri və ya seçmək istəmədiklərini göstərən heç nə yoxdursa, dövlət bu məsələyə müdaxilə edə bilməz. Belə müdaxilə dövlətin təhsil və tədris ilə bağlı valideynlərin istəklərinə hörmət etməsi prinsipinə müdaxilə etməsi demək olardı.

Hazırkı işdə Hökumət qeyd etmişdir ki, Konstitusiya Məhkəməsinə və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə şikayət etməkdən başqa ərizəçilərin valideynləri uşaqlarını iddia olunan ayrı-seçkilik xarakteri daşıyan rəftardan qorumaq üçün heç bir iş görməmiş və onların təhsillərində nisbətən passiv rol oynamışlar.

154. Hökumət xüsusi məktəblərə yerləşdirilmələrinin onları orta və ya ali təhsil almaq imkanından məhrum etməsi barədə ərizəçilərin dəlillərini qəbul etməmişdir. Ərizəçilərin məcburi təhsillərini Məktəblər haqqında qanunun (561/2004 nömrəli qanun) qüvvəyə minməsindən öncə və ya sonra bitirməsindən asılı olmayaraq, orta təhsillərini davam etdirmək, müvafiq səviyyəyə yetişmək üçün əlavə məşğələlər keçmək və işlə bağlı məşğulluq mərkəzlərinə müraciət etmək üçün imkanları olmuşdur. Lakin ərizəçilərdən heç biri bunları etməyə səy göstərdiyini (uğursuz belə olsa) və ya (iddia etdikləri) çətinliklərinin əvvəllər xüsusi məktəblərə yerləşdirilmələrinin nəticəsində daha məhdud təhsil almaları ilə bağlı olduğunu sübut edə bilməmişdir. Əksinə, ərizəçilərdən bir neçəsi təhsillərini davam etməmək və ya təhsili başa çatdırmamaq qərarına gəlmişdir. Hökumət qəti şəkildə əmindir ki, ərizəçilər maraqlarının olmaması səbəbindən özlərini təhsillərini davam etdirmək imkanından məhrum etmişlər. Onların bir çox hallarda əlverişsiz olan vəziyyəti öz maraqlarının olmamasından irəli gəlmişdir və buna görə dövlət məsuliyyət daşıya bilməz.

155. Hökumət razılaşmışdır ki, ölkənin hakimiyyət orqanları görülən tədbirlərin qeyri-mütənasib nəticələr yaratmaması və əgər buna nail olmaq mümkün deyilsə, belə nəticələrin yüngülləşdirilməsi və əvəzinin verilməsi üçün bütün ağlabatan addımları atmalıdır. Lakin, nə Konvensiyada, nə də hər hansı başqa beynəlxalq sənəddə qaraçı şagirdlərin, yaxud daha geniş şəkildə milli və ya etnik azlıqlara mənsub olan uşaqların təhsili ilə bağlı dövlətlərin pozitiv öhdəliklərinin ümumi anlayışı verilməmişdir. Bununla bağlı Hökumət qeyd etmişdir ki, dövlətlərin pozitiv öhdəliklərini müəyyən edən zaman Məhkəmə bəzən iştirakçı dövlətlərin qanunvericiliyindəki inkişafa istinad etmişdir. Bununla belə, Hökumət bildirmişdir ki, uşaqların xüsusi məktəblərə yerləşdirilməsi və ya xüsusi təhsil ehtiyacları olan uşaqlara necə təhsil verilməsi məsələlərinin həlli üçün istifadə edilə biləcək meyar ilə bağlı hazırda hər hansı Avropa standartı və ya konsensus mövcud deyil və xüsusi məktəblər bu problemin ən mümkün və məqbul həlli yollarından biri olmuşdur.

156. Bundan əlavə, Konvensiyanın 14-cü maddəsində təsbit olunmuş pozitiv öhdəliklər müsbət xarakterli tədbirlər görmək öhdəliyi kimi təfsir oluna bilməz. Bu, bir seçim kimi qalmalıdır. 14-cü maddənin əhalinin müxtəlif təbəqələrinin əziyyət çəkdiyi qüsurları fəal surətdə kompensasiya etmək ilə bağlı dövlətin üzərinə ümumi öhdəlik qoyduğunu təsbit etmək mümkün deyil.

157. Hər bir halda xüsusi məktəblərə aşağı səviyyəli təhsil forması kimi deyil, alternativ kimi baxılmalıdır və Hökumət bildirmişdir ki, hazırkı işdə fərdi vəziyyətləri ilə bağlı xüsusi təhsilə ehtiyacı olmuş ərizəçilərin qüsurlarının kompensasiya edilməsi məqsədilə o, ağlabatan tədbirlər görmüş və bu zaman Konvensiyanın təhsil sahəsində dövlətə verdiyi təqdir səlahiyyətini aşmamışdır. Hökumət qeyd etmişdir ki, dövlət xüsusi məktəblərə adi məktəblər üçün ayırdığı resursların iki dəfə artığını ayırır və yerli dövlət orqanları qaraçı uşaqların təhsili ilə bağlı kompleks məsələlər ilə məşğul olmaq üçün əhəmiyyətli səylər göstərmişlər.

158. Hökumət ərizəçilərin hazırkı vəziyyəti ilə bağlı istər məktəb, istərsə də Ostrava Məşğulluq Mərkəzindən (işsiz ərizəçilər burada qeydiyyata düşmüşlər) əldə etdiyi sənədləri təqdim etməkdə davam etmişdir. İlkin olaraq Hökumət qeyd etmişdir ki, Ostrava bölgəsində işsizlik səviyyəsi yüksəkdir və ümumiyyətlə, sadəcə ibtidai təhsil almış gənclər iş tapmaqda çətinliklərlə üzləşirlər. Dövlət tərəfindən kömək və karyera ilə bağlı məsləhət alınması mümkün olsa da, iş üçün müraciət edənlərin fəallığı mühüm əhəmiyyət kəsb etmişdir.

Konkret olaraq, ərizəçilərdən ikisi hazırda ibtidai təhsilin son sinfindədirlər. Yeddi nəfər 2006-cı ilin sentyabrında orta məktəbdə texniki-peşə təlimi keçməyə başlamışlar. Dörd nəfər orta məktəbdə təhsilə başlamış, lakin sonradan əksəriyyəti marağı olmadığından təhsilinin yarımçıq qoymuş və məşğulluq mərkəzində qeydiyyata düşmüşlər. Nəhayət ərizəçilərdən beşi təhsillərini orta məktəbdə davam etmək istəməmiş və məşğulluq mərkəzində qeydiyyata düşmüşlər. Məşğulluq mərkəzində qeydiyyatdan keçmiş ərizəçilər mərkəzlə əməkdaşlıq etməmiş və ya onlara təklif olunmuş tədrisə və ya işə hər hansı bir şəkildə maraq göstərməmişlər. Nəticədə ərizəçilərdən bəzisi artıq iş axtaranlar üçün reyestrdən çıxarılmışdır (bəzi hallarda bu dəfələrlə baş vermişdir).

159. Nəhayət, Hökumət Məktəblər haqqında qanunun (561/2004 nömrəli) qəbul edilməsi ilə heç nəyin dəyişmədiyi barədə ərizəçilərin iddiasını rədd etmişdir. Qanun ibtidai məktəblərin əvvəllər mövcud olmuş növlərini birləşdirmiş və təhsil proqramlarını standartlaşdırmışdır. O, ciddi əqli qüsurları, autizm xəstəliyi və həm əqli, həm də fiziki qüsurları olan şagirdlər üçün nəzərdə tutulmuş məktəblərdən başqa xüsusi məktəblərin ayrıca, müstəqil sistemini təsbit etmir. Qüsurları olan şagirdlər mümkün olan və arzu edilən hallarda fərdi qaydada adi məktəblərə inteqrasiya ediliblər. Lakin məktəblərə ehtiyaclarına uyğunlaşdırılmış təhsil texnikasına və metodlarına malik xüsusi siniflər yaratmaq səlahiyyəti verilmişdir. Əvvəlki “xüsusi məktəblər” ayrıca təsisatlar kimi fəaliyyət göstərə bilərdilər, lakin hazırda onlar ibtidai təhsil üçün modifikasiya edilmiş təhsil proqramına uyğun şəkildə tədris həyata keçirən “ibtidai məktəblər”dir. Sosial cəhətdən əlverişsiz vəziyyətdə olan şagirdlərin təhsil aldıqları məktəblər uşaqların ünsiyyət vərdişlərini və Çex dilini bilmələrini təkmilləşdirmək məqsədilə tez-tez müəllim köməkçisi vəzifələrinin və hazırlıq siniflərinin təsis edilməsi hüquqlarından istifadə edirdilər. Qaraçı icmasından olan müəllim köməkçiləri çox vaxt məktəb, ailə və bəzən başqa ekspertlər arasında əlaqə rolunu oynayırdılar və şagirdlərin təhsil sisteminə inteqrasiyasına kömək edirdilər. Ərizəçilərin yaşadığı bölgədə qaraçı şagirdlərin əhalinin əksər hissəni təmsil edən uşaqlardan ibarət siniflərə inteqrasiyasına müsbət yanaşılmışdır.

160. Sonda Hökumət ümumi kontekst nəzərə alınmaqla ərizəçilərin təhsil almaq imkanını hər bir fərdi iş üzrə diqqətlə araşdırmağı və Konvensiyanın pozulmadığı barədə qərar çıxarmağı Məhkəmədən xahiş etmişdir.

*3. Üçüncü tərəf kimi çıxış edənlər*

**(a) “Interights” və “Human Rights Watch” təşkilatları**

161. “Interights” və “Human Rights Watch” təşkilatları bildirmişlər ki, Konvensiyanın 14-cü maddəsinin dolayı ayrı-seçkiliyə qarşı səmərəli müdafiə təmin etməsi mühüm əhəmiyyət kəsb edir. Bu konsepsiyaya baxmaq üçün Məhkəmənin o qədər də imkanı olmamışdır. Onlar bildirmişlər ki, Palatanın qərarının əsaslandırma hissəsinin aspektləri *Timişev*, *Zarb Adami* və *Huqendeyk* (hər üç iş yuxarıda qeyd olunmuşdur) işləri ilə müəyyən edilmiş yeni tendensiyalara uyğun gəlmir. Böyük

Palata 14-cü maddənin məqsədyönlü təfsirini gücləndirməli və Məhkəmənin dolayı ayrı-seçkilik ilə bağlı təcrübəsini beynəlxalq standartlara uyğunlaşdırmalıdır.

162. "Interights" və "Human Rights Watch" təşkilatları qeyd etmişlər ki, Məhkəmə özü *Zarb Adami* işində bildirmişdir ki, ayrı-seçkilik heç də hər zaman birbaşa və ya açıq şəkildə olmur və dövlət siyasəti və ya ümumi xarakterli tədbirlər dolayı ayrı-seçkiliyə yol verə bilər. Məhkəmə həmçinin qəbul etmişdir ki, dolayı ayrı-seçkilik faktının mövcudluğunun sübut edilməsi üçün qəsdin olması tələb olunmur (bax: *"Hyu Cordan Birləşmiş Krallığa qarşı"* (*Hugh Jordan v. the United Kingdom*, no. 24746/94, § 154, 4 May 2001)). Onların fikrincə dolayı ayrı-seçkilik ilə bağlı olan işlərdə təcrübənin və ya siyasətin konkret qrupa qeyri-mütənasib dərəcədə mənfi təsir göstərməsi ilə nəticələnməsi kifayətdir.

163. Dolayı ayrı-seçkiliyin sübut edilməsinə gəlincə, Avropada və beynəlxalq aləmdə, o cümlədən Məhkəmə tərəfindən geniş şəkildə qəbul edilmişdir ki, (yuxarıda qeyd edilmiş *Timişev* işi, 57-ci bənd və *Huqendeyk* işi) ayrı-seçkiliyin mövcud olması faktı prima facie sübutlar ilə təsdiq edilmişdirsə, sübut etmə vəzifəsi dövlətin üzərinə düşür. Dolayı ayrı-seçkilik ilə bağlı olan işlərdə konkret siyasət və ya təcrübənin həyata keçirilməsi nəticəsində müəyyən kateqoriyaya mənsub olan əhəmiyyətli sayda çox insanın əlverişsiz vəziyyətə düşdüyü ərizəçi tərəfindən sübut edildiyi təqdirdə, ayrı-seçkilik prezumpsiyası ortaya çıxır. Bu zaman prima facie sübutların mövcudluğu üçün əsas olmuş halların təkzib edilməsi və ya bunun əsaslandırılması vəzifəsi dövlətin üzərinə keçir.

164. Buna görə də Məhkəmənin sübut etmə vəzifəsinin dövlətin üzərinə keçirilməsi məqsədilə təqdim edilə bilən sübut növləri ilə məşğul olması böyük əhəmiyyət kəsb edir. "Interights" və "Human Rights Watch" təşkilatları bu məsələ ilə bağlı bildirmişlər ki, statistik məlumatlardan sübut növü kimi istifadə edilməsi ilə bağlı Məhkəmənin *"Hyu Cordan"* işində ifadə etdiyi mövqe (yuxarıda qeyd edilmişdir, 154-cü bənd) beynəlxalq təcrübə və bir çox ölkələrin milli təcrübəsi ilə ziddiyyət təşkil edir. Avropa İttifaqı Şurasının direktivlərində və beynəlxalq sənədlərdə statistik məlumatlar dolayı ayrı-seçkilik faktının sübut edilməsi üçün əsas vasitə kimi qəbul edilir. Tədbirlər ilk baxışdan neytral göründüyü hallarda, statistik məlumatlar bəzən bu tədbirlərin cəmiyyətin müxtəlif təbəqələri üçün fərqli nəticələr yaratmasının təsbit edilməsinin yeganə səmərəli vasitəsi kimi çıxış edir. Təbii olaraq məhkəmələr statistik məlumatların baxılan işə münasibətdə mötəbərliyi, əhəmiyyəti və aidiyyətini qiymətləndirməli və onların ərizəçinin iddiaları ilə konkret şəkildə bağlı olmasının tələb etməlidirlər.

"Interights" və "Human Rights Watch" təşkilatları bildirmişlər ki, lakin, Məhkəmə statistik məlumatların özü-özlüyündə təcrübənin ayrı-seçkilik xarakteri daşıdığını sübut etmək üçün kifayət etmədiyi mövqeyi üzərində dayanarsa, ümumi sosial kontekst nəzərə alınmalıdır, belə ki, o, tədbirin ərizəçilər üçün yaratdığı nəticələrin nə qədər qeyri-mütənasib olduğu barədə dəyərli bilgi almağa imkan yaradır.

### (b) Azlıqların Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Qrup, İrqçilik Əleyhinə Avropa Şəbəkəsi və Qaraçıların Vəziyyəti üzrə Avropa İnformasiya Ofisi

165. Azlıqların Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Qrup, İrqçilik Əleyhinə Avropa Şəbəkəsi və Qaraçıların Vəziyyəti üzrə Avropa İnformasiya Ofisi bildirmişdir ki, qaraçı uşaqların əqli cəhətdən qüsurlu uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərə qanunsuz olaraq yerləşdirilməsi qaraçılara qarşı ayrı-seçkiliyin ən aşkar və mənfur forması olmuşdur. Bu xüsusi məktəblərdə uşaqlar aşağı əqli inkişaf səviyyələrinə münasib hesab edilən sadələşdirilmiş proqramlar üzrə təhsil alırdılar. Belə ki, Çex Respublikasında ümumtəhsil məktəblərində şagirdlər əlifbanı və ona qədər saymağı birinci sinifdə öyrəndikləri halda, xüsusi məktəblərdə şagirdlər bunu üçüncü və ya dördüncü sinfə qədər öyrənmirdilər.

166. Bu təcrübəyə istər Avropa səviyyəsində, istərsə də BMT-nin insan hüquqları ilə məşğul olan qurumları tərəfindən böyük diqqət yetirilmiş, onlar xüsusi məktəblərdə yerləşdirilmiş qaraçı uşaqların sayının həddindən çox olması, istifadə edilən imtahanların adekvat olmaması və iddia edilən valideyn razılığının keyfiyyəti ilə bağlı narahatlıqlarını müxtəlif hesabatlarda ifadə etmişlər.

Bütün bu qurumlar bildirmişlər ki, heç bir obyektiv və ağlabatan əsas qaraçı uşaqların təhsil sahəsində üzləşdikləri əlverişsiz vəziyyəti qanuniləşdirə bilməz. Qaraçı uşaqlara qarşı geniş miqyaslı ayrı-seçkiliyin mövcud olmasının təsdiqi ilə bağlı təsisatlar və kvazi-məhkəmə orqanlarının fikirlərinin üst-üstə düşməsi inandırıcı səviyyədə olmuşdur.

167. Üçüncü tərəf kimi çıxış edən təşkilatlar əlavə etmişlər ki, həqiqi əqli qüsurları olan uşaqlar üçün ayrıca təhsilin üstünlüklərindən asılı olmayaraq, qaraçı uşaqları xüsusi məktəblərə göndərmək qərarı əksər hallarda hər hansı həqiqi əqli qüsur ilə deyil, daha çox imtahan prosesində nəzərə alınmamış dil və mədəniyyətlərdəki fərqlər ilə bağlı olmuşdur. Təhsil hüquqlarının həyata keçirilməsi zamanı qaraçılarla bərabər rəftar edilməsini təmin etmək öhdəliyinin yerinə yetirilməsi məqsədilə dövlətlərdən ilk növbədə imtahan prosesində dəyişiklik edərək onun qaraçılara qarşı irqi baxımdan qərəzli olmamasını təmin etmək və dil və sosial vərdişlərin tədrisi sahəsində müsbət addımlar atmaq tələb olunur.

### (c) "Addımbaaddım" Beynəlxalq Assosiasiyası, Qaraçıların Təhsil Fondu və Erkən Uşaq Təhsilinin Araşdırılması üzrə Avropa Assosiasiyası

168. "Addımbaaddım" Beynəlxalq Assosiasiyası, Qaraçıların Təhsil Fondu və Erkən Uşaq Təhsilinin Araşdırılması üzrə Avropa Assosiasiyası sübut etməyə çalışmışlar ki, Ostrava bölgəsində qaraçı uşaqların xüsusi məktəblərə yerləşdirilməsi üçün istifadə edilən qiymətləndirmə metodu 1990-cı illərin ortalarına qədər yaxşı tanınmış bir sıra səmərəli və münasib göstəricilərə (44-cü bəndə bax) məhəl qoymamışdır. Onların fikrincə qiymətləndirmə həyata keçirilərkən uşaqların dili və mədəniyyəti, əvvəlki təhsil təcrübələri və ya imtahan tələbləri ilə tanış olmamaları nəzərə alınmamışdır. Bir neçə deyil, bir məlumat mənbəyindən istifadə olunmuşdur. İmtahan müəyyən zaman çərçivəsində deyil, bir dəfə keçirilmişdir. Məlumatlar uşaqların qavrama qabiliyyətlərini nümayiş etdirə biləcəkləri real və autentik kontekstdə əldə edilməmişdir. Normativ baxımdan əhalinin digər kateqoriyaları üçün fərdi, standartlaşdırılmış imtahanlara xüsusi önəm verilmişdir.

169. Üçüncü tərəf kimi çıxış edən təşkilatlar aparılmış müxtəlif araşdırmalara (44-cü bəndə bax) istinad edərək qeyd etmişlər ki, azlığa mənsub olan və zəif ailələrdən olan uşaqların mərkəzi və şərqi Avropanın xüsusi təhsil sferasında sayı həddindən artıqdır. Bu, bir sıra amillərin, o cümlədən məktəb rəhbərliyi tərəfindən yol verilən şüur altı irqi qərəzlilik, resurslardakı geniş bərabərsizlik, əsassız olaraq *IQ* və digər qiymətləndirmə vasitələrinə etibar edilməsi, uşağın gələcək taleyi üçün mühüm olam imtahanının keçirilməsi zamanı yaranan stress vəziyyətinə məktəb əməkdaşlarının qeyri-münasib reaksiyası və azlığa mənsub olan valideynlər ilə məktəb rəhbərliyinin imkanlarındakı fərqin nəticəsində meydana gəlmişdir. Psixoloji imtahanlar vasitəsilə məktəbdə yerləşdirmə əsasən müvafiq cəmiyyətdə mövcud olan irqi qərəzliliyi əks etdirirdi.

170. Çex Respublikası "sosial cəhətdən əlverişsiz vəziyyətdə olan" uşaqların ayrı-seçkilik əsasında məktəblərə yerləşdirilməsi ilə tanınır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 1999-cu ildə on beş ölkə üzrə tərtib etdiyi müqayisəli məlumatlara görə (18-ci bəndin sonuna bax) Çex Respublikası qavrama ilə bağlı qüsurları olan uşaqların xüsusi məktəblərə yerləşdirilməsinə görə üçüncü yeri tutur. Sosial amillərə görə şagirdlərin məktəblərə yerləşdirilməsi barədə məlumat təqdim etmiş səkkiz ölkə içərisində yalnız Çex Respublikası xüsusi məktəblərə malikdir; digər ölkələrdə belə şagirdlər təhsilini demək olar ki, yalnız ümumtəhsil məktəblərində alırlar.

171. Bundan əlavə, aşağı qabiliyyətə malik olduğu bildirilən uşaqların erkən yaşlarında xüsusi məktəblərə yerləşdirilməsi (təhsil nəzarəti) qəsdən edilib-edilməməyindən asılı olmayaraq tez-tez irqi seqreqasiya ilə nəticələnirdi və bu da əlverişsiz vəziyyətdə olan uşaqların təhsilinə xüsusilə mənfi təsir göstərirdi. Bunun istər onlar, istərsə də cəmiyyət üçün uzun müddətli zərərli nəticələri olurdu. Bura təhsil sistemindən erkən kənarlaşdırmalar da daxildir ki, bunun da nəticəsində maraqlı şəxslər iş tapmaq imkanlarını itirirdilər.

### (d) Beynəlxalq İnsan Hüquqları Federasiyası (BİHF)

172. BİHF hesab etmişdir ki, Palata öz qərarında Məhkəməyə təqdim etdikləri şikayətlərinin predmetini formalaşdıran vəziyyət ilə bağlı ərizəçilərin valideynlərinin verdikləri iddia edilən razılıq məsələsinə əsassız olaraq böyük önəm vermişdir. O, qeyd etmişdir ki, Məhkəmənin presedent hüququna görə elə vəziyyətlər mövcuddur ki, bu zaman hüquqdan imtina edilməsi dövləti yurisdiksiyası altında olan hər bir şəxsin Konvensiyada nəzərdə tutulmuş hüquq və azadlıqlardan istifadəsini təmin etmək öhdəliyindən azad etmir. Bu, xüsusi ilə o halda baş verir ki, hüquqdan imtina mühüm ictimai marağa zidd olsun, aşkar ifadə olunmasın və ya birmənalı olmasın. Bundan əlavə, fərdin hüquq və azadlıqlarının məhdudlaşdırılmasına haqq qazandırıla bilinməsi üçün maraqlı şəxsin hüququndan imtinası elə bir şəraitdə baş verməlidir ki, həmin şəxsin bu imtinanın nəticələri, xüsusilə seçiminin hüquqi nəticələri barədə tam məlumata malik olduğu müəyyən edilsin. *"R. Bordenə qarşı"* (*R. v. Borden* ([1994] 3 RCS 145, p. 162)) işində Kanadanın Ali Məhkəməsi bu məsələ ilə bağlı aşağıdakı prinsipi dəqiq olaraq təsbit etmişdir: "hüquqdan imtinanın....səmərəli olması üçün razılıq vermək istəyən şəxs hüquqdan imtina üçün zəruri məlumat bazasına malik olmalıdır. Seçmək hüququ yalnız başqası ilə müqayisədə bir seçimə üstünlük vermək iradəsini deyil, eyni zamanda bu üstünlük vermənin şüurla həyata keçirilməsi üçün kifayət qədər məlumata malik olmanı tələb edir."

173. Buna görə də rəftarda bərabərlik prinsipinin təbiəti və irqi ayrı-seçkiliyin qadağan edilməsi ilə geniş mənada insan ləyaqəti konsepsiyası arasındakı əlaqə fonunda ayrı-seçkilikdən müdafiə olunmaq hüququndan imtina edilməsi imkanının ümumiyyətlə istisna edilib-edilməməsi ilə bağlı məsələ ortaya çıxır. Hazırkı işdə ərizəçilərin valideynlərindən alınmış razılıq yalnız ərizəçilər üçün deyil, qaraçı icmasından olan bütün uşaqlar üçün məcburi idi. BİHF-ə görə tam şəkildə mümkün idi ki, bütün qaraçı valideynlər uşaqları üçün birgə təhsili seçmək istərdilər, lakin digər valideynlərin eyni vəziyyətdə edəcəkləri seçimdən əmin olmadıqları üçün onlar xüsusi təhsilin təklif etdiyi "təhlükəsizliyə" üstünlük vermişlər və nəticədə də qaraçı uşaqların böyük əksəriyyəti bu məktəblərdə təhsil alırlar. Qaraçılara qarşı ayrı-seçkiliyin həyata keçirilməsi tarixi ilə xarakterizə olunan kontekstdə qaraçı uşaqların valideynlərinin iki seçimi olmuşdur: a) uşaqlarını məktəb rəhbərliyinin qəbul etməyə meyl göstərmədikləri və digər şagirdlər və müəllimlər tərəfindən müxtəlif formalarda alçaldılacaqlarından və ya düşmənçilik təzahürlərinə məruz qoyulacaqlarından qorxduqları məktəblərə göndərmək; və ya b) uşaqlarını qaraçı uşaqların böyük əksəriyyət təşkil etdiyi və beləliklə də, belə qərəzli münasibətə məruz qalacaqlarından qorxmadıqları xüsusi məktəblərə göndərmək. Əslində ərizəçilərin valideynləri qaraçıları qeyd-şərtsiz qəbul edəcək birgə təhsil almaq üçün hər hansı real imkanın olmadığı şəraitdə iki pis seçim arasında daha yaxşı gördüklərini seçmişlər. Bu iki alternativ arasında qeyri-mütənasiblik elə bir şəkildə olmuşdur ki, ərizəçilərin valideynləri hazırda Hökumətin onları cavabdeh hesab elədiyi seçimi etməyə məcbur olmuşlar.

174. Yuxarıda qeyd edilmiş səbəblərə görə BİHF hesab etmişdir ki, hazırkı işin hallarında ərizəçilərin valideynlərinin uşaqlarının normal məktəblərdə təhsil almaq hüququndan güman edilən imtinası Çex Respublikasını Konvensiya ilə nəzərdə tutulmuş öhdəliklərinə əməl etməkdən azad olunmasına haqq qazandıra bilməz.

## C. Məhkəmənin qiymətləndirməsi

### *1. Əsas prinsiplərin qısa xülasəsi*

175. Məhkəmə presedent hüququnda təsbit etmişdir ki, ayrı-seçkilik dedikdə demək olar ki, eyni vəziyyətdə olan şəxslər ilə obyektiv və ağlabatan əsas olmadan fərqli rəftar edilməsi başa düşülür (bax: *"Uilis Birləşmiş Krallığa qarşı" (Willis v. the United Kingdom*, no. 36042/97, § 48, ECHR 2002-IV) *və "Okpists Almaniyaya qarşı" (Okpisz v. Germany*, no. 59140/00, § 33, 25 October 2005)). Lakin 14-cü maddə "faktiki mövcud olan qeyri-bərabərliyi" aradan qaldırmaq üçün qruplara fərqli münasibət göstərməyi dövlətə qadağan etmir; təbii ki, müəyyən şəraitdə fərqli rəftar vasitəsilə

qeyri-bərabərliyi aradan qaldırmaq səyinin uğursuzluğu özü-özlüyündə Konvensiyanın müvafiq maddəsinin pozuntusu məsələsini qaldıra bilər (bax: *"Belçikada təhsil sahəsində dillərdən istifadəyə dair qanunun bəzi aspektləri ilə bağlı" iş Belçikaya qarşı" (işin mahiyyəti) (Case "relating to certain aspects of the laws on the use of languages in education in Belgium" v. Belgium* (merits), 23 July 1968, p. 34, § 10, Series A no. 6*); "Tlimmenos Yunanıstana qarşı" (Thlimmenos v. Greece* [GC], no. 34369/97, § 44, ECHR 2000-IV*) və "Stek və Digərləri Birləşmiş Krallığa qarşı"* (*Stec and Others v. the United Kingdom* [GC], no. 65731/01, § 51, ECHR 2006-VI)). Məhkəmə həmçinin qəbul etmişdir ki, konkret qrup üçün qeyri-mütənasib mənfi nəticələrə səbəb olmuş ümumi dövlət siyasəti və ya tədbiri məxsusi olaraq bu qrupa qarşı yönəldilməməsindən asılı olmayaraq ayrı-seçkilik xarakteri daşıyan siyasət və ya tədbir hesab oluna (yuxarıda qeyd edilmiş *Hyu Cordan* və *Huqendeyk* işləri) və Konvensiyaya potensial şəkildə ziddiyyət təşkil edən ayrı-seçkilik *de facto* vəziyyətdən irəli gələ bilər (yuxarıda qeyd edilmiş *Zarb Adami* işi).

176. Digər əlamətlər ilə yanaşı şəxsin etnik mənşəyi əlamətinə görə ayrı-seçkilik qoyulması irqi ayrı-seçkiliyin bir formasıdır. İrqi ayrı-seçkilik ayrı-seçkiliyin xüsusilə qərəzli formasıdır və təhlükəli nəticələri baxımından dövlət orqanlarının xüsusi ilə sayıq olmasını və qətiyyətli reaksiya nümayiş etdirməsini tələb edir. Məhz buna görə də dövlət orqanları irqçilik ilə mübarizə aparmaq üçün bütün mümkün vasitələrdən istifadə etməli, bununla da müxtəlifliyin təhlükə kimi deyil, zənginləşmə mənbəyi kimi qəbul edildiyi cəmiyyətin demokratiya düşüncəsini gücləndirməlidirlər (yuxarıda qeyd edilmiş *Naçova* və *Timişev* işləri). Məhkəmə həmçinin qərara gəlmişdir ki, plüralizm və müxtəlif mədəniyyətlərə hörmət prinsipləri üzərində qurulmuş çağdaş demokratik cəmiyyətdə müstəsna olaraq və ya həlledici dərəcədə şəxsin etnik mənşəyi əlamətinə görə hər hansı fərqli rəftara obyektiv olaraq haqq qazandırmaq mümkün deyil (bax: yuxarıda qeyd edilmiş *Timişev* işi, 58-ci bənd).

177. Bu sahədə sübut etmə vəzifəsinə gəlincə, Məhkəmə müəyyən etmişdir ki, ərizəçi rəftarda fərqliliyi sübut etdiyi təqdirdə, bunun əsaslı olduğunu sübut etmək vəzifəsi Hökumətin üzərinə düşür (digər mənbələr ilə yanaşı bax: *"Şasanyu və Digərləri Fransaya qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Chassagnou and Others v. France* [GC], nos. 25088/94, 28331/95 and 28443/95, §§ 91-92, ECHR 1999-III) və yuxarıda qeyd edilmiş *Timişev* işi, 57-ci bənd).

178. Sübut etmə vəzifəsinin cavabdeh dövlətin üzərinə qoyulması üçün hansı sübutların prima facie sübut hesab oluna bilməsi məsələsinə gəlincə, Məhkəmə *Naçova və Digərləri* (yuxarıda qeyd edilmişdir, 147-ci bənd) işi üzrə qərarında bildirmişdir ki, işə Avropa Məhkəməsində baxılması zamanı sübutların qəbul edilməsi üçün hər hansı prosessual maneə və ya onların qiymətləndirilməsi üçün əvvəlcədən müəyyən edilmiş formula yoxdur. Məhkəmə bütün sübutların, o cümlədən işin faktiki hallarından və tərəflərin izahatlarından irəli gələn nəticələrin sərbəst şəkildə qiymətləndirilməsinə əsaslanaraq qərarlar qəbul edir. Məhkəmənin mövcud presedent hüququna görə kifayət qədər inandırıcı, aşkar və bir-biri ilə uzlaşan nəticələr, yaxud faktlara dair təkzib edilməsi mümkün olmayan oxşar ehtimallar sübut kimi qiymətləndirilə bilər. Bundan əlavə, konkret nəticəyə gəlmək üçün zəruri olan inandırıcılıq səviyyəsi və bununla bağlı sübut etmə vəzifəsinin tərəflər arasında bölünməsi faktiki halların səciyyəvi xüsusiyyətləri, irəli sürülən iddiaların təbiəti və Konvensiyada nəzərdə tutulmuş pozulması ehtimal edilən hüquq ilə ayrılmaz şəkildə bağlıdır.

179. Məhkəmə eyni zamanda qəbul etmişdir ki, Konvensiyanın müddəalarının pozulması ilə bağlı işlərə baxılan zaman *affirmanti incumbit probatio* prinsipi (hər bir kəs irəli sürdüyü iddianı sübut etməlidir – bax: *"Aktaş Türkiyəyə qarşı"* (*Aktaş v. Turkey*, no. 24351/94, § 272, ECHR 2003-V)) heç də bütün hallarda hökmən tətbiq edilmir. İş üzrə araşdırılan hadisələr barəsində tam və ya onların böyük hissəsi ilə bağlı məlumata müstəsna olaraq dövlət orqanları malik olduqları bəzi hallarda sübut etmə vəzifəsi dövlət orqanlarının üzərinə qoyula bilər ki, bu zaman da onlar qənaətbəxş və inandırıcı izahat verməlidirlər (bax: *"Salman Türkiyəyə qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Salman v. Turkey* [GC], no. 21986/93, § 100, ECHR 2000-VII) və *"Anqelova Bolqarıstana qarşı"* (*Anguelova v. Bulgaria*, no. 38361/97, § 111, ECHR 2002-IV)). Yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işində (157-ci bənd) Məhkəmə müəyyən hallarda mübahisə doğuran ayrı-seçkilik ilə bağlı iddianın təkzib edilməsini cavabdeh dövlətdən tələb etmək imkanını istisna

etməmişdir. Bununla belə Məhkəmə hesab etmişdir ki, zorakılıq aktının irqi əlamətlərinə görə qərəzli münasibətlə bağlı olduğu iddia edilən bu konkret işdə bunu etmək çətin olardı. O bununla bağlı qeyd etmişdir ki, bir çox ölkələrin hüquq sistemlərində siyasətin, qərarın və ya təcrübənin ayrı-seçkilik xarakteri daşıyan nəticələr doğurduğunun sübut edilməsi iş yerində və ya xidmətlərin göstərilməsində güman edilən ayrı-seçkiliyə yol verilməsində qəsdin olmasını sübut etmək zərurətini aradan qaldırır.

180. Statistik məlumatlardan sübut kimi istifadə olunmasının mümkünlüyü məsələsinə gəlincə, Məhkəmə əvvəllər bildirmişdir ki, belə məlumatlar özü-özlüyündə ayrı-seçkilik kimi qiymətləndirilə biləcək təcrübənin mövcudluğunu sübut etmir (yuxarıda qeyd edilmiş *"Hyu Cordan"* işi, 154-cü bənd). Lakin ərizəçilərin ümumi tədbirin və ya *de facto* vəziyyətin nəticəsində fərqliliyin ortaya çıxdığını iddia etdikləri ayrı-seçkilik məsələsi ilə bağlı ən yeni işlərdə (yuxarıda qeyd edilmiş *Huqendeyk* və *Zarb Adami* işləri, 77-78-ci bəndlər) Məhkəmə tərəflərin eyni vəziyyətlərdə olan iki qrup (kişilər və qadınlar) ilə rəftarın fərqli olduğunu sübut etmək üçün təqdim etdikləri statistik məlumatlara geniş şəkildə istinad etmişdir.

Belə ki, *Huqendeyk* işində Məhkəmə bildirmişdir: "Ərizəçi təkzib edilə bilməyən rəsmi statistik məlumatlar əsasında neytral şəkildə ifadə edilmiş xüsusi qaydanın əslində kişilərlə müqayisədə açıq-aşkar daha çox qadına təsir etdiyini təsdiq edən prima facie göstəricilərin olduğunu sübut edə bilərsə, bunun cinsinə görə hər hansı ayrı-seçkilik ilə əlaqəsi olmayan obyektiv amillərin nəticəsi olduğunu sübut etmək vəzifəsi cavabdeh dövlətin üzərinə düşür. Kişi və qadınlar üçün fərqli nəticələrin təcrübədə ayrı-seçkilik xarakteri daşımadığını sübut etmək vəzifəsi cavabdeh dövlətin üzərinə qoyulmazsa, ərizəçilərin dolayı ayrı-seçkilik faktını sübut etmələri reallıqda son dərəcə çətin olacaq."

181. Son olaraq, əvvəlki işlərdə də qeyd edildiyi kimi qaraçıların həssas mövqelərə malik olması o deməkdir ki, istər müvafiq tənzimləmə mexanizmi çərçivəsində, istərsə də konkret işlər üzrə qərarlar qəbul edilən zaman onların ehtiyacları və fərqli yaşam tərzləri xüsusilə nəzərə alınmalıdır (*"Çəpmən Birləşmiş Krallığa qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Chapman v. the United Kingdom* [GC], no. 27238/95, § 96, ECHR 2001-I) və *"Konnors Birləşmiş Krallığa qarşı"* (*Connors v. the United Kingdom*, no. 66746/01, § 84, 27 May 2004)).

Yuxarıda qeyd edilmiş *Çəpmən* işində (93-94-cü bəndlər) Məhkəmə həmçinin qeyd etmişdir ki, demək olar ki, Avropa Şurasının üzvü olan dövlətlər arasında yalnız azlıqların özlərinin maraqlarının müdafiəsi deyil, bütün cəmiyyət üçün dəyərli olan mədəni müxtəlifliyi qoruyub saxlamaq məqsədi ilə azlıqların xüsusi ehtiyaclarının və onların təhlükəsizliyi, özünəməxsusluğu və həyat tərzinin qorunması öhdəliyinin tanınması ilə bağlı beynəlxalq konsensus meydana gəlmişdir.

*2. Yuxarıda qeyd edilmiş prinsiplərin hazırkı işə tətbiqi*

182. Məhkəmə qeyd edir ki, çətin tarixləri və daimi köç etmələri nəticəsində qaraçılar azlıqların əlverişsiz vəziyyətdə olan və həssas xüsusi kateqoriyasını təşkil edirlər (həmçinin bax: yuxarıda, 56-cı bənddə istinad edilmiş Avropa Şurası Parlament Assambleyasının Avropada qaraçıların vəziyyətinə dair 1203 (1993) nömrəli Tövsiyəsində əks olunmuş ümumi qeydlər və yuxarıda, 58-ci bənddə istinad edilmiş Avropada qaraçıların hüquqi vəziyyətinə dair 1557 (2002) nömrəli Tövsiyəsinin 4-cü bəndi). Məhkəmənin əvvəlki işlərdə də qeyd etdiyi kimi bu səbəbdən qaraçıların xüsusi müdafiəyə ehtiyacı var (181-ci bənd). Bir sıra Avropa və beynəlxalq təşkilatların fəaliyyəti ilə və Avropa Şurasını təsisatları tərəfindən təsdiq edildiyi kimi (bax: yuxarıda 54-61-ci bəndlər) bu müdafiə təhsil sahəsini də əhatə edir. Buna görə də hazırkı iş xüsusi diqqət tələb edir, xüsusilə ona görə ki, ərizələr Məhkəməyə təqdim olunan zaman ərizəçilər azyaşlı uşaqlar idilər və onlar üçün təhsil almaq hüququ birinci dərəcəli əhəmiyyətə malik idi.

183. Hazırkı işdə ərizəçilərin iddiaları qeyri-qaraçı uşaqlar ilə müqayisədə fərqli vəziyyətdə olmaları və bunun fərqli rəftar tələb etməsi və ya cavabdeh dövlətin onlar arasındakı faktiki qeyri-bərabərliyi və ya fərqləri aradan qaldırmaq üçün müsbət xarakterli tədbirlər görməməsi ilə bağlı deyil (yuxarıda qeyd edilmiş *Tlimmenos* işi (44-cü bənd) və *Stek və Digərləri* işi (51-ci bənd)). Ərizəçilərin fikrincə təsdiq edilməli fakt ondan ibarətdir ki, heç bir obyektiv və ağlabatan əsas

olmadan onlarla analoji vəziyyətdə olan qeyri-qaraçı uşaqlar ilə müqayisədə daha pis rəftar edilmişdir ki, bu da hazırkı işdə dolayı ayrı-seçkiliyə bərabərdir.

184. Məhkəmə artıq əvvəlki işlərdə qəbul etmişdir ki, rəftarda fərqlilik neytral formada ifadə olunsa da, müəyyən qrupa qarşı ayrı-seçkilik salan ümumi dövlət siyasəti və ya tədbirinin qeyri-mütənasib zərərli nəticəsi formasında ola bilər (bax: yuxarıda qeyd edilmiş *Hyu Cordan* işi, 154-cü bənd və *Huqendeyk* işi). Misal üçün Avropa İttifaqı Şurasının 97/80/EC və 2000/43/EC nömrəli direktivlərinə (yuxarıda 82-84-cü bəndlər) və İDAK tərəfindən verilmiş anlayışa görə (yuxarıda 60-cı bəndə bax) belə vəziyyət "dolayı ayrı-seçkilik" hesab oluna bilər və bu zaman ayrı-seçkilik salmaq niyyətinin mövcudluğu tələb olunmur.

### (a) Hazırkı işdə dolayı ayrı-seçkilik prezumpsiyasının yaranması məsələsi ilə bağlı

185. Tərəflər razıdırlar ki, mübahisə olunan rəftarda fərqlilik xüsusi məktəblərdə təhsil ilə bağlı şikayətin təqdim edildiyi zaman qüvvə olan qanunvericilik normalarından irəli gəlmirdi. Deməli hazırkı işdə əsas məsələ qanunvericiliyin təcrübədə tətbiqi qaydasının ərizəçilər də daxil olmaqla qeyri-mütənasib sayda qaraçı uşaqların əsassız olaraq xüsusi məktəblərdə yerləşdirilməsi ilə nəticələnin-nəticələnmədiyinin və bununla da bu uşaqların xeyli dərəcədə əlverişsiz vəziyyətə salınıb-salınmadıqlarının müəyyən edilməsidir.

186. Yuxarıda qeyd edildiyi kimi Məhkəmə əvvəlki işlərdə bildirmişdir ki, ərizəçilər rəftarın ayrı-seçkilik xarakteri daşıdığını sübut etməkdə çətinlik çəkə bilərlər (yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işi, 147 və 157-ci bəndlər). Maraqlı şəxslərin hüquqlarının səmərəli müdafiəsini təmin etmək məqsədilə dolayı ayrı-seçkiliyin mövcudluğunun iddia olunduğu işlərdə sübutların qiymətləndirilməsi üçün sərt qaydalar tətbiq edilməməlidir.

187. Bununla bağlı Məhkəmə qeyd edir ki, Avropa İttifaqı Şurasının 97/80/EC və 2000/43/EC nömrəli direktivlərinə görə ona münasibətdə bərabər rəftar prinsipi tətbiq edilmədiyi üçün ziyan çəkdiyini hesab edən şəxslər yerli dövlət orqanı qarşısında ayrı-seçkiliyin mövcudluğunu güman etmək üçün əsas verə biləcək faktları istənilən vasitə ilə, o cümlədən statistik məlumatlara istinad edərək sübut edə bilərlər (yuxarıda 82-83-cü bəndlərə bax). Avropa Birliyi Məhkəməsinin son zamanlardakı məhkəmə təcrübəsi göstərir ki, (yuxarıda 88-89-cu bəndlərə bax) o, iddiaçılara statistik məlumatlara istinad etməyə, milli məhkəmələrə isə mötəbər və iş üçün əhəmiyyətli olduğu təqdirdə belə sübutları nəzərə almağa icazə verir.

Böyük Palata daha sonra üçüncü tərəf kimi çıxış edən təşkilatların bir çox ölkələrin məhkəmələri və BMT çərçivəsində bağlanmış müqavilələr üzrə nəzarət funksiyasını həyata keçirən orqanların adətən zərər çəkmişin prima facie sübut təqdim etmək işini asanlaşdırmaq məqsədilə dolayı ayrı-seçkilik faktını sübut etmək üçün statistik məlumatları qəbul etmələrinə dair məlumatlarını qeyd edir.

Məhkəmə həmçinin yuxarıda qeyd edilmiş *Huqendeyk* və *Zarb Adami* işləri üzrə rəsmi statistikanın önəmini qəbul edir və o bildirmişdir ki, müxtəlif sübut növlərini qəbul etməyə və nəzərə almağa hazırdır (yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işi, 147-ci bənd).

188. Belə olan halda Məhkəmə hesab edir ki, tədbirin və ya təcrübənin fərd və ya qrup üçün doğurduğu nəticəni qiymətləndirən zaman tənqidi yanaşıldıqda etibarlı və əhəmiyyətli görünən statistik məlumatların ərizəçidən təqdim etməsi tələb olunan prima facie sübut kimi irəli sürülməsi kifayətdir. Bununla belə bu, o demək deyil ki, dolayı ayrı-seçkilik statistik məlumatlar olmadan sübut edilə bilməz.

189. Dolayı ayrı-seçkiliyin baş verdiyini iddia edən ərizəçi tədbir və ya təcrübənin nəticəsinin ayrı-seçkilik xarakteri daşımasına dair təkzib edilməsi mümkün olan prezumpsiyanın mövcudluğunu sübut edə bilirsə, rəftardakı fərqliliyin ayrı-seçkilik xarakteri daşımadığını sübut etmək vəzifəsi cavabdeh dövlətin üzərinə düşür (bax: *mutatis mutandis,* yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işi, 157-ci bənd). Bu cür işlərdə faktların xüsusiyyətləri və irəli sürülən iddiaların təbiəti nəzərə alınarsa (yenə orada, 147-ci bənd), sübut etmə vəzifəsi dövlətin üzərinə qoyulmayacağı təqdirdə dolayı ayrı-seçkilik faktının sübut edilməsi ərizəçilər üçün təcrübədə son dərəcədə çətin olardı.

190. Hazırkı işdə ərizəçilər tərəfindən təqdim edilmiş statistik məlumatlar 1999-cu ildə Ostrava şəhərindəki xüsusi və ibtidai məktəblərin direktorlarına göndərilmiş sorğulara cavablardan əldə edilmişdir. Bu məlumatlara görə o zaman Ostravada xüsusi məktəblərə yerləşdirilmiş şagirdlərin 56 faizi qaraçılar olmuşdur. Bunun əksinə olaraq qaraçılar Ostravada ibtidai məktəblərdə təhsil alan şagirdlərin ümumi sayının yalnız 2,26 faizini təşkil edirdilər. Bundan əlavə, qeyri-qaraçı uşaqların sadəcə 1,8 faizi xüsusi məktəblərə göndərildikləri halda, Ostravada xüsusi məktəblərə yerləşdirilən qaraçı şagirdlərin faiz nisbəti 50,3 faiz olmuşdur. Hökumətin mövqeyinə görə bu məlumatlar sadəcə direktorların subyektiv fikirlərini əks etdirdiyi üçün kifayət qədər qəti rəqəmlər deyil. Hökumət həmçinin bildirmişdir ki, şagirdlərin etnik mənşəyi ilə bağlı heç bir rəsmi məlumat mövcud deyil və Ostrava bölgəsi qaraçı əhalisinin ən çox yaşadığı bölgələrdən biridir.

191. Böyük Palata qeyd edir ki, bu rəqəmlər ilə bağlı Hökumət mübahisə etmir və o, hər hansı alternativ statistik məlumat da təqdim etməmişdir. Şagirdlərin etnik mənşəyi ilə bağlı heç bir rəsmi məlumatın olmamasına dair Hökumətin qeydi fonunda Məhkəmə qəbul edir ki, ərizəçilər tərəfindən təqdim edilmiş statistika tam şəkildə mötəbər olmaya bilər. Bununla belə, Məhkəmə hesab edir ki, bu rəqəmlər istər cavabdeh dövlət, istərsə də məsələ ilə məşğul olmuş müstəqil nəzarət orqanları tərəfindən təsdiq edilmiş hakim mövqe tutan meyli ortaya çıxarır.

192. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyanın 25-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq təqdim etdiyi hesabatında Çex hakimiyyət orqanları qəbul etmişlər ki, 1999-cu ildə xüsusi məktəblərdə təhsil almış şagirdlərin ümumi sayının 80 faizindən 90 faizinə qədərini qaraçı şagirdlər təşkil etmişlər (yuxarıda 66-cı bəndə bax) və 2004-cü ildə "böyük sayda" qaraçı uşaqlar hələ də xüsusi məktəblərdə təhsil alırdılar (yuxarıda 67-ci bəndə bax). Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitə 2005-ci il 26 oktyabr tarixli hesabatında qeyd etmişdir ki, qeyri-rəsmi hesablamalara görə qaraçılar xüsusi məktəblərə qəbul olunmuş şagirdlərin 70 faizinə qədərini təşkil etmişlər. İDAK tərəfindən 2000-ci ildə dərc edilmiş hesabata görə xüsusi məktəblərdə təhsil alan qaraçı uşaqların sayı "həddindən artıq olmuşdur". İrqi Ayrı-Seçkiliyin Ləğv Edilməsi üzrə Komitə 1998-ci il 30 mart tarixli yekun qeydlərində bildirmişdir ki, xüsusi məktəblərə qeyri-mütənasib dərəcədə çox sayda qaraçı uşaqlar yerləşdiriliblər (yuxarıda 99-cu bəndə bax). Nəhayət, İrqçilik və Ksenofobiya üzrə Avropa Monitorinq Mərkəzi tərəfindən təqdim edilmiş rəqəmlərə görə Çex Respublikasında qaraçı uşaqların yarıdan çoxu xüsusi məktəblərdə təhsil alırlar.

193. Məhkəmənin mövqeyinə görə yalnız Ostrava bölgəsi ilə bağlı olmayan və buna görə də ümumi mənzərəni əks etdirən bu rəqəmlər göstərir ki, şikayətin təqdim edildiyi zaman xüsusi məktəblərdə təhsil almış qaraçı uşaqların sayını müəyyənləşdirmək çətin olsa da, bu say qeyri-mütənasib şəkildə yüksək olmuşdur. Bundan əlavə, qaraçı uşaqlar xüsusi məktəblərdə təhsil alan şagirdlərin əksəriyyətini təşkil etmişlər. Buna görə də neytral formada ifadə olunmalarına baxmayaraq müvafiq qanunvericilik normaları təcrübədə qeyri-qaraçı uşaqlardan çox qaraçı uşaqlara təsir göstərmiş və statistik baxımdan qeyri-mütənasib sayda qaraçının xüsusi məktəblərə yerləşdirilməsi ilə nəticələnmişdir.

194. Qanunvericiliyin belə ayrı-seçkilik xarakteri daşıyan nəticələr doğurduğu sübut edildiyi hallarda Böyük Palata məşğulluq və ya xidmətlərin tədarükü ilə bağlı olan işlərdə (bax: *mutatis mutandis,* yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işi, 157-ci bənd ) olduğu kimi hesab edir ki, təhsil sahəsi ilə bağlı işlərdə müvafiq dövlət orqanı tərəfindən ayrı-seçkiliyə yol vermək niyyətinin olduğunu sübut etmək zəruri deyil (yuxarıda 184-cü bəndə bax).

195. Belə olan halda ərizəçilər tərəfindən təqdim edilmiş sübuta dolayı ayrı-seçkiliyin baş verdiyinə dair ciddi prezumpsiyanı yaradan kifayət qədər mötəbər və iş üçün əhəmiyyətli sübut kimi baxıla bilər. Buna görə də sübut etmə vəzifəsi Hökumətin üzərinə düşür və o, qanunvericiliyin doğurduğu nəticələrdəki fərqin etnik mənşə ilə bağlı olmayan obyektiv amillərdən irəli gəldiyini sübut etməlidir.

**(b) Obyektiv və ağlabatan əsaslandırılma**

196. Məhkəmə təkrar edir ki, rəftardakı fərqlilik o zaman ayrı-seçkilik hesab edilir ki, onun "obyektiv və ağlabatan əsaslandırılması" olmasın, başqa sözlə, o, "qanuni məqsədə" nail

olunmasına yönəlməsin və ya istifadə edilmiş vasitələr ilə nail olunmasına səy göstərilən məqsəd arasında "ağlabatan mütənasiblik əlaqəsi" mövcud olmasın (digər mənbələr ilə yanaşı bax: *"Larkos Kiprə qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Larkos v. Cyprus* [GC], no. 29515/95, § 29, ECHR 1999-I) və yuxarıda qeyd edilmiş *Stek və Digərləri* işi, 51-ci bənd). Rəftardakı fərqlilik irq, dərinin rəngi və ya etnik mənşə əlamətləri ilə bağlı olduğu hallarda obyektiv və ağlabatan əsaslandırılma anlayışı mümkün olduğu qədər sərt təfsir olunmalıdır.

197. Hazırkı işdə Hökumət qeyri-qaraçı uşaqlarla müqayisədə qaraçı uşaqlar ilə fərqli rəftar edilməsini təhsil sisteminin xüsusi ehtiyacları olan uşaqların qabiliyyətlərinə uyğunlaşdırılması zərurəti ilə izah etməyə çalışmışdır. Hökumətin bildirdiyinə görə ərizəçilər xüsusi təhsil ehtiyacları nəzərə alınaraq, əsas etibarı ilə təhsil-psixologiya mərkəzləri tərəfindən keçirilmiş psixoloji test imtahanlarının köməyi ilə intellektual qabiliyyətlərinin aşağı səviyyədə olmasının müəyyən edilməsi nəticəsində xüsusi məktəblərə yerləşdirilmişlər. Mərkəzlər ərizəçilərin göndərilməli olduqları məktəbin növü ilə bağlı tövsiyələrini verdikdən sonra yekun qərarı qəbul etmək ərizəçilərin valideynlərinin üzərinə düşürdü və onlar övladlarının bu məktəblərdə yerləşdirilməsinə razılıqlarını vermişlər. Buna görə də ərizəçilərin etnik mənşə əlamətinə görə xüsusi məktəblərə yerləşdirilmələri barədə dəlilləri əsassızdır.

Öz növbəsində ərizəçilər xüsusi məktəblərdə yerləşdirilmiş qaraçı uşaqlarının sayının qeyri-mütənasib şəkildə yüksək olmasının intellektual qabiliyyəti müəyyən etmək üçün keçirilmiş imtahanının nəticəsi ilə izah edilməsi və ya buna valideynlərin razılığının olması ilə haqq qazandırılması fərziyyəsini fəal surətdə təkzib etmişlər.

198. Məhkəmə qəbul edir ki, Hökumətin xüsusi məktəblər sisteminin saxlanılması ilə bağlı qərarı xüsusi təhsil ehtiyacları olan uşaqların problemlərinin həllini tapmaq istəyindən irəli gəlmişdir. Bununla belə, o, bu məktəblərdə təhsilin daha aşağı səviyyəli proqramlar əsasında həyata keçirilməsi və xüsusilə bu sistemin yaratdığı seqreqasiya ilə bağlı Avropa Şurasının digər təsisatları tərəfindən ifadə edilmiş narahatlığı paylaşır.

199. Bundan əlavə, Böyük Palata qeyd edir ki, uşaqların qavrama qabiliyyətlərinin və ya bu sahədə üzləşdikləri çətinliklərin qiymətləndirilməsi məqsədilə istifadə olunan imtahanlar ziddiyyətli fikirlərin ortaya çıxmasına səbəb olmuşdur və elmi müzakirələr və araşdırmaların predmeti kimi qalmaqda davam edir. Böyük Palata onun rolunun bu imtahanların mötəbərliyi ilə bağlı mühakimə yürütmək olmadığını qəbul edir, lakin bununla yanaşı bildirir ki, hazırkı işdə mövcud olan müxtəlif amillər belə bir nəticəyə gəlməyə əsas verir ki, şikayətin verildiyi tarixdə həyata keçirilmiş imtahanların nəticələri Konvensiyanın 14-cü maddəsinin məqsədləri üçün obyektiv və ağlabatan əsaslandırılma hesab oluna bilməz.

200. İlk növbədə, tərəflər mübahisə etmirlər ki, uşaqlar etnik mənşəyindən asılı olmayaraq eyni imtahanı verirdilər. Çex hakimiyyət orqanları özləri 1999-cu ildə etiraf etmişlər ki, "orta və ya ortadan artıq səviyyədə intellektə malik olan qaraçı uşaqlar" əsasən psixoloji imtahanların nəticələrinə uyğun olaraq belə məktəblərə yerləşdirilirdilər və bu imtahanlar əhalinin əksər hissəsi üçün nəzərdə tutulmuş, qaraçıların xüsusiyyətlərini nəzərə almamışdır (yuxarıda 66-cı béndə bax). Nəticədə onlar imtahanların və istifadə olunmuş metodların "qaraçı uşaqların ziyanına istifadə edilməsinə yol verməmək üçün" bu imtahanlar və metodlarda dəyişiklik etmişlər (yuxarıda 72-ci bəndə bax). Bundan əlavə, müxtəlif müstəqil qurumlar imtahanların adekvatlığı ilə bağlı şübhələrini ifadə etmişlər. Belə ki, Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya üzrə Məşvərətçi Komitə qeyd etmişdir ki, əqli cəhətdən qüsuru olmayan uşaqlar "qaraçılar ilə əhalinin əksər hissəsi arasındakı real və ya ehtimal edilən dil və mədəniyyət fərqinə görə" çox zaman xüsusi məktəblərdə yerləşdirilmişlər. O, həmçinin imtahanların "ardıcıl, obyektiv və hərtərəfli" olmasının zəruriliyini vurğulamışdır (yuxarıda 68-ci bəndə bax). İDAK qeyd etmişdir ki, əldə edilən məlumatlara görə qaraçı uşaqların əqli qüsurları olan uşaqlar üçün nəzərdə tutulmuş məktəblərə göndərilməsi çox zaman "yarı-avtomatik" xarakter almış və istənilən imtahanın "ədalətli" keçirilməsi və hər bir uşağın qabiliyyətinin "lazımı qaydada qiymətləndirilməsi"nin təmin olunması üçün bu prosesin yoxlanılması zəruridir (yuxarıda 63-64-cü bəndlərə bax). Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı qeyd etmişdir ki, qaraçı uşaqlar çox zaman "zəruri psixoloji və ya pedaqoji

qiymətləndirmə aparılmadan, real olaraq etnik mənşə meyarı əsasında" xüsusi ehtiyacları olan uşaqlar üçün nəzərdə tutulmuş siniflərə yerləşdirilmişlər (yuxarıda 77-ci bəndə bax).

Nəhayət, üçüncü tərəf kimi işdə iştirak edən bəzi təşkilatların bildirdiklərinə görə psixoloji imtahanların nəticələrinə uyğun olaraq məktəblərdə yerləşdirmə müvafiq cəmiyyətdə mövcud olan irqi qərəzliliyi əks etdirirdi.

201. Məhkəmə hesab edir ki, ən azından imtahanların qərəzli keçirilməsi və nəticələrin bu imtahanları vermiş qaraçı uşaqların xüsusiyyətləri və xüsusi cəhətləri nəzərə alınmaqla təhlil edilməməsi ilə bağlı risk mövcuddur. Belə olan halda müzakirə olunan imtahanlar rəftarda fərqliliyə haqq qazandırmaq üçün əsas kimi çıxış edə bilməz.

202. Valideynlərin razılı məsələsinə gəlincə Məhkəmə qeyd edir ki, Hökumətin bildirdiyinə görə belə razılıq həlledici amil kimi çıxış etmişdir və o, alınmadan ərizəçilərin xüsusi məktəblərə yerləşdirilməsi mümkün deyildi. Hazırkı işdə rəftarda fərqliliyin təsbit edildiyi nəzərə alınarsa, belə çıxır ki, istənilən belə razılıq hətta ayrı-seçkilik xarakteri daşıyan fərqli rəftarın qəbul edilməsi, başqa sözlə ayrı-seçkiliyə məruz qalmamaq hüququndan imtina edilməsi demək olardı. Lakin Məhkəmənin presedent hüququna görə Konvensiya ilə təmin edilmiş hüquqdan imtina mümkün hesab edildiyi halda belə imtina birmənalı şəkildə təsbit edilməli və bütün faktlar barədə məlumata malik olaraq, başqa sözlə, "məlumatlı razılıq" əsasında (*"Pfayfer və Plankl Avstriyaya qarşı"* (*Pfeifer and Plankl v. Austria*, 25 February 1992, §§ 37-38, Series A no. 227)) və heç bir məcburiyyət olmadan (*"Deveer Belçikaya qarşı"* (*Deweer v. Belgium*, 27 February 1980, § 51, Series A no. 35)) verilməlidir.

203. Hazırkı işin hallarında Məhkəmə əlverişsiz vəziyyətdə olan icmanın üzvləri olmuş və çox zaman aşağı səviyyəli təhsil almış qaraçı uşaqların valideynlərinin mövcud vəziyyətin bütün aspektlərini və verdikləri razılığın nəticələrini qiymətləndirə bilmək iqtidarında olmaları fikri ilə razılaşmır. Hökumət özü qəbul etmişdir ki, bu halda razılıq əvvəlcədən doldurulmuş formanın imzalanması vasitəsilə verilirdi və bu formada mövcud alternativlər və ya xüsusi məktəblərin təhsil proqramı ilə digər məktəblərin təhsil proqramları arasında fərqlər ilə bağlı heç bir məlumat əks etdirilmirdi. Eyni zamanda belə görünür ki, dövlət orqanları qaraçı valideynlərin məlumatlı qərar qəbul etmək üçün zəruri olan bütün informasiyanı almalarını və ya verdikləri razılığın uşaqlarının gələcəkləri üçün doğuracağı nəticələrdən xəbərdar olmalarını təmin etmək məqsədilə hər hansı əlavə tədbir görməmişlər. Eyni zamanda qaraçı valideynlərin belə bir dilemma ilə üzləşmələri mübahisə doğurmur: uşaqlarının sosial və mədəniyyət baxımından fərqlərini nəzərə ala bilmək üçün pis təchiz olunmuş və uşaqlarının təcrid və incidilmə təhlükəsi ilə üzləşə biləcəkləri ümumtəhsil məktəbləri ilə şagirdlərin əksəriyyətinin qaraçı uşaqlar olduğu xüsusi məktəblər arasında seçim.

204. İrqi ayrı-seçkiliyin qadağan edilməsinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq (bax: yuxarıda qeyd edilmiş *Naçova və Digərləri* işi, 145-ci bənd və *Timişev* işi, 56-cı bənd) Böyük Palata hesab edir ki, hətta yuxarıdakı 202-ci bənddə istinad edilmiş şərtlərə əməl edildiyi güman edilərsə belə, irqi ayrı-seçkiliyə məruz qalmamaq hüququndan hər hansı formada imtina edilməsi qəbul edilə bilməz, əks halda bu, mühüm ictimai marağa zidd getmiş olardı (bax: *mutatis mutandis*, *"Hermi İtaliyaya qarşı"* işi üzrə Böyük Palatanın qərarı (*Hermi v. Italy* [GC], no. 18114/02, § 73, ECHR 2006-XII)).

### (c) Nəticə

205. İDAK tərəfindən təqdim edilmiş sənədlərdən və Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının hesabatından da göründüyü kimi Çex Respublikası qaraçı uşaqların təhsili sahəsində çətinliklər ilə üzləşən yeganə ölkə deyil: digər Avropa dövlətlərində də eyni çətinliklər mövcuddur. Məhkəmə məmnuniyyət hissi ilə qeyd edir ki, bəzi ölkələrdən fərqli olaraq Çex Respublikası problemi həll etməyə səy göstərmişdir. Məhkəmə qəbul edir ki, əlverişsiz vəziyyətdə olan qaraçı qrupunun sosial və təhsil sahələrində inteqrasiyasına nail olmaq üçün səy göstərən zaman Çex Respublikası digər amillər ilə yanaşı azlığın mədəniyyəti ilə bağlı xüsusiyyətləri və qeyri-qaraçı valideynlərin düşmənçilik mövqeyindən irəli gələn bir sıra çətinliklər ilə mübarizə aparmalı

olmuşdur. İşə baxılmasının mümkünlüyü ilə bağlı qərardadında Palata qeyd etmişdir ki, hər kəs üçün vahid məktəb, yüksək dərəcədə ixtisaslaşmış strukturlar və xüsusi bölmələri olan birləşdirilmiş strukturlar arasında seçim etmək asan iş deyil. Burada rəqabət aparan maraqlar arasında mürəkkəb tarazlıq yaradılmalıdır. Təhsil proqramının hazırlanması və planlaşdırılması məsələsinə gəlincə, burada əsas məsələ məqsədəuyğunluq məsələsidir ki, Məhkəmə də bununla bağlı qərar qəbul edə bilməz (bax: *"Valsamis Yunanıstana qarşı"* (*Valsamis v. Greece*, 18 December 1996, §28, *Reports of Judgments and Decisions* 1996-VI)).

206. Bununla belə, Konvensiyada yerli dövlət orqanın diskresiyasının Konvensiyada nəzərdə tutulmuş hüququn həyata keçirilməsinə müdaxilə ilə nəticələnə bildiyi hallarda dövlətin qanunvericilik bazasını qəbul edən zaman təqdir səlahiyyətini aşıb-aşmadığı məsələsinin müəyyən edilməsi üçün fərdin malik olduğu prosessual təminatlar xüsusi önəm daşımış olur (bax: *"Bakli Birləşmiş Krallığa qarşı"* (*Buckley v. the United Kingdom*, 25 September 1996, § 76, *Reports* 1996-IV) və yuxarıda qeyd edilmiş *Konnors* işi, 83-cü bənd).

207. Hazırkı işin faktiki halları göstərir ki, qaraçı uşaqlar üçün mövcud olmuş məktəb təhsili sistemində dövlətin təqdir səlahiyyətini həyata keçirən zaman onların əlverişsiz vəziyyətdə olan kateqoriyaya mənsub üzvlər kimi xüsusi ehtiyaclarını nəzərə almasını təmin edəcək təminatlar (yuxarıda 28-ci bənd) olmamışdır (bax: *mutatis mutandis,* yuxarıda qeyd edilmiş *Bakli* işi, 76-cı bənd və *Konnors* işi, 84-cü bənd). Bundan əlavə, bu sistemin fəaliyyəti nəticəsində ərizəçilər əqli cəhətdən qüsurları olan uşaqlar üçün nəzərdə tutulmuş məktəblərə yerləşdirilmişlər ki, burada da tədris ümumtəhsil məktəbləri ilə müqayisədə daha aşağı səviyyədə olan təhsil proqramı əsasında həyata keçirilmiş və onlar əhalinin əksəriyyətini təşkil edən şagirdlərdən təcrid olunmuşlar. Nəticədə onların aldığı təhsil həqiqi problemlərini həll etmək və ya ümumtəhsil məktəblərinə inteqrasiya etmək və əhalinin əksəriyyətini təşkil edən insanlar arasında həyatlarını asanlaşdıracaq vərdişləri inkişaf etdirmək əvəzinə, çətinliklərini bir qədər də dərinləşdirilmiş və onların şəxsiyyət kimi gələcək inkişafını təhlükə altında qoymuşdur. Əlbəttə Hökumət açıq-aşkar olmasa da, xüsusi məktəbləri bitirmiş şagirdlərin iş tapmaq imkanının məhdud olmasını qəbul etmişdir.

208. Məhkəmə işin hallarını nəzərə alaraq Çex hakimiyyət orqanlarının qaraçı uşaqların təhsil almasını təmin etmək üçün səy göstərdiyini qəbul etsə də, qaraçı uşaqlar ilə qeyri-qaraçılar arasında rəftarda fərqliliyin obyektiv və ağlabatan şəkildə əsaslandırıldığı və istifadə edilmiş vasitələr ilə nail olunmasına səy göstərilən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsinin olduğu ilə bağlı fikirlərlə razılaşmır. Bununla bağlı Məhkəmə maraq hissi ilə qeyd edir ki, yeni qanun xüsusi məktəbləri ləğv etmişdir və xüsusi təhsil ehtiyacları olan uşaqların, o cümlədən sosial baxımdan əlverişsiz vəziyyətdə olan uşaqların ümumtəhsil məktəblərində təhsil almalarını nəzərdə tutur.

209. Nəhayət, şikayətin təqdim edildiyi zaman təcrübədə tətbiq edilmiş müvafiq qanunvericiliyin qaraçı icmasının üzvləri üçün qeyri-mütənasib dərəcədə mənfi nəticələr doğurduğu sübut edildiyindən, Məhkəmə hesab edir ki, bu icmanın üzvləri olan ərizəçilər təbii olaraq ayrı-seçkilik xarakteri daşıyan eyni rəftardan əziyyət çəkmişlər. Buna görə də onların hər birinin işinin fərdi şəkildə araşdırılmasına zərurət yoxdur.

210. Beləliklə, hazırkı işdə hər bir ərizəçiyə münasibətdə Konvensiyanın 14-cü maddəsi və 1 saylı protokolunun 2-ci maddəsinin tələbləri pozulmuşdur.

## IV. KONVENSİYANIN 41-Cİ MADDƏSİNİN TƏTBİQİ

211. Konvensiyanın 41-ci maddəsində bildirilir:

> "Əgər Məhkəmə Konvensiyanın və ona əlavə protokolların pozulduğunu müəyyən edərsə və əgər Yüksək Razılığa Gələn Tərəfin daxili hüququ kompensasiyanın yalnız qismən ödənilməsini mümkün hesab edirsə, Məhkəmə, zəruri olduğu təqdirdə, zərərçəkmiş tərəfə ədalətli təzminatın ödənilməsi barədə qərar çıxarır."

### A. Ziyan

212. Ərizəçilər maddi ziyana görə hər hansı kompensasiya ödənilməsini tələb etməmişlər.

213. Ərizəçilər vurulmuş mənəvi ziyana, o cümlədən təhsil sahəsində aldıqları zərərə, psixoloji və emosional zərərə, ayrı-seçkiliyə məruz qoyularaq xüsusi məktəblərdə yerləşdirilmələri nəticəsində keçirdikləri narahatlıq, məyusluq və alçalma hisslərinə görə kompensasiya kimi hər birinə 22000 avro (ümumilikdə 396000 avro) məbləğində vəsaitin ödənilməsini tələb etmişlər. Onlar bu pozuntunun nəticələrinin ciddi və davamlı olduğunu və həyatlarının bütün sahələrinə təsir göstərdiyini vurğulamışlar.

214. Bundan əlavə, ərizəçilər *"Broniovski Polşaya qarşı"* (*Broniowski v. Poland* ([GC], no. 31443/96, § 189, ECHR 2004-V) və *"Hutten-Çapska Polşaya qarşı"* (*Hutten-Czapska v. Poland* ([GC], no. 35014/97, §§ 235-37, ECHR 2006-VIII) işləri üzrə Böyük Palatanın qərarlarına istinad edərək bildirmişlər ki, hüquqlarının pozuntusu "ayrıca bir hadisə və ya hadisələrin müəyyən ardıcıllığı nəticəsində deyil, dövlət orqanları tərəfindən müəyyən vətəndaşlar kateqoriyasına qarşı yönəlmiş inzibati və tənzimləyici təcrübənin nəticəsində meydana gəlmişdir". Buna görə də onların fikrincə milli səviyyədə mövcud vəziyyətin təsirinə məruz qalan çox saylı insanların hüquqlarının həyata keçirilməsi qarşısında duran istənilən maneənin və ya ekvivalent şəkildə pozuntunun nəticələrinin aradan qaldırılmasını təmin edəcək ümumi xarakterli tədbirlər həyata keçirilməlidir.

215. Hökumət psixoloji zərər və təhsillə bağlı zərər barədə xüsusi olaraq qeyd etmişdir ki, bu tələblər ayrılıqda Konvensiyanın 3-cü və 1 saylı protokolun 2-ci maddəsinin pozulması ilə bağlı şikayətlərlə əlaqəlidir və bu şikayətlərə baxılması Məhkəmənin 2005-ci il 1 mart tarixli qərardadı ilə mümkünsüz hesab edilmişdir. Buna görə də Hökumətin fikrincə Konvensiyanın pozuntusu ilə iddia olunan mənəvi ziyan arasında heç bir səbəbiyyət əlaqəsi mövcud deyil. Bundan əlavə, o bildirmişdir ki, ərizəçilərin tələb etdiyi məbləğ həddən artıq çoxdur və istənilən pozuntu faktının tanınması kifayət edici ədalətli kompensasiya olacaqdır.

216. Məhkəmə ilk növbədə təkrar edir ki, Konvensiyanın 46-cı maddəsinə görə Yüksək Razılığa Gəlmiş Dövlətlər tərəf olduqları işlər üzrə Məhkəmə tərəfindən qəbul edilən yekun qərarları icra etmək öhdəliyini üzərilərinə götürürlər və icraya nəzarəti Nazirlər Komitəsi həyata keçirir. Buradan o cümlədən belə çıxır ki, Məhkəmənin pozuntunun olmasına dair qərarı cavabdeh dövlətin üzərinə yalnız maraqlı şəxslərə 41-ci maddədə nəzərdə tutulmuş ədalətli kompensasiya kimi müəyyən edilmiş məbləği ödəmək ilə bağlı deyil, eni zamanda Nazirlər Komitəsinin nəzarəti altında Məhkəmə tərəfindən təsbit edilmiş pozuntuya son qoymaq və mümkün olduğu dərəcədə bu pozuntunun nəticələrini aradan qaldırmaq məqsədilə ölkə daxili hüquq sistemində ümumi, müvafiq hallarda isə fərdi xarakterli tədbirlər görməklə bağlı hüquqi öhdəlik qoyur. Lakin dövlət Konvensiyanın 46-cı maddəsi əsasında üzərinə qoyulmuş hüquqi öhdəliyinin icra edilməsi üçün vasitəni seçməkdə sərbəstdir, bir şərtlə ki, bu vasitələr Məhkəmənin qərarında təsbit edilmiş nəticələrə uyğun olsun (bax: yuxarıda qeyd edilmiş *Broniovski* işi, 192-ci bənd və *"Çonka Belçikaya qarşı"* (*Čonka v. Belgium*, no. 51564/99, § 89, ECHR 2002-I)). Bununla bağlı Məhkəmə qeyd edir ki, hazırkı işdə mübahisə predmeti olan qanun ləğv edilmişdir və Nazirlər Komitəsi bu yaxınlarda Avropada qaraçı uşaqların təhsili ilə bağlı üzv dövlətlərə tövsiyələr vermişdir (yuxarıda 54-55-ci bəndlərə bax). Buna görə də Məhkəmə bu məsələyə baxılmasını təxirə salmağı məqsədəuyğun hesab etmir.

217. Məhkəmə xüsusi məktəblərə yerləşdirilməyəcəkləri təqdirdə ərizəçilərin vəziyyətinin necə olacağı barədə mülahizə yürüdə bilməz. Bununla belə aydındır ki, onlara, xüsusilə qurbanı olduqları dolayı ayrı-seçkiliyin yaratdığı alçalma və məyusluq nəticəsində mənəvi ziyan vurulmuşdur və sadəcə Konvensiyanın pozuntusu faktının tanınması bu pozuntunun nəticələrinin aradan qaldırılması üçün kifayət deyil. Bununla belə ərizəçilər tərəfindən tələb olunan məbləğ həddən artıq çoxdur. Məhkəmə ədalətli qiymətləndirmə apararaq hər bir ərizəçiyə dəymiş mənəvi ziyana görə 4000 avro məbləğində kompensasiyanın ödənilməsini qət edir.

**B. Məhkəmə xərcləri**

218. Ərizəçilər Palataya təqdim etdikləri ilkin tələbə dəyişiklik etməmişlər. Buna görə də Böyük Palataya müraciət ilə bağlı çəkilmiş xərclər bu məbləğə daxil deyil.

Məhkəmə qeyd edir ki, ərizəçilərin bütün nümayəndələri tərəfindən imzalanmış vəsatətdə tələb olunan ümumi məbləğ 10737 avro olmuşdur. Bunun 2550 avrosunun (1750 funt sterlinq) Hern Hilldən olan vəkil Lord Lesterə və 8187 avrosunun isə ölkə daxili məhkəmələrdə və Palatada işə baxılan zaman təmsilçiliyə görə cənab D.Strupekə ödənilməsi nəzərdə tutulmuşdu. Lakin Lord Lester tərəfindən tərtib edilmiş və ədalətli kompensasiya tələbinə əlavə edilmiş xərclərə dair hesabda 11750 Böyük Britaniya funtu (təxminən 17000 avro) məbləği göstərilmiş, bura həmçinin 45 saatlıq hüquqi işə görə əlavə dəyər vergisi (ƏDV) kimi ödənilməli olan 1750 funt da daxil edilmişdir. Ərizəçilərin digər nümayəndələri cənab C.Qoldston və Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzi xidmətlərinə görə xərcin ödənilməsini tələb etməmişlər.

219. Hökumət qeyd etmişdir ki, göstərdiyi hüquqi xidmətlərin ətraflı siyahısını təqdim etmiş cənab Strupek iddia etdiyi xərclərin ərizəçilər tərəfindən ona həqiqətən də ödənildiyini sübut etmək üçün hər hansı hesab-faktura təqdim etməmişdir. Onlar ərizəçilər tərəfindən müəyyən edilmiş ədalətli kompensasiya tələbi ilə Lord Lester tərəfindən təqdim edilmiş hesab arasındakı fərq ilə bağlı izah verməmişlər. Hökumət bundan başqa bildirmişdir ki, ərizənin yalnız bir hissəsinə baxılması mümkün hesab edilmiş və məhz həmin hissə Məhkəmə baxışının predmeti olmuşdur. Buna görə də Hökumət bildirmişdir ki, ərizəçilərə tələb olunan məhkəmə xərclərinə görə ağlabatan məbləğdən (3000 avrodan çox olmayan) artıq vəsait ödənilməməlidir.

220. Məhkəmə təkrar edir ki, məhkəmə xərclərinə görə kompensasiya yalnız təsbit edilmiş pozuntuya aidiyyəti olduğu həddə ödənilə bilər (*"Beyeler İtaliyaya qaşı (ədalətli kompensasiya)"* işi üzrə Böyük Palatanın qərarı (*Beyeler v. Italy* (just satisfaction) [GC], no. 33202/96, § 27, 28 May 2002)). Hazırkı işdə yalnız Konvensiyanın 14-cü maddəsi və 1 saylı protokolun 2-ci maddəsinin pozuntusu müəyyən edilmişdir. Məhkəmə qeyd edir ki, Lord Lester peşəkar xidmətlərinə görə Qaraçıların Hüquqları üzrə Avropa Mərkəzindən istədiyi xərclərin siyahısını təqdim etmişdir. Cənab Strupek saatı 40 avro olmaqla 172 saat ərzində göstərdiyi hüquqi xidmətlərə görə tələb etdiyi məbləği təqdim etmiş və bura 19 faizlik ƏDV-ni də əlavə etmişdir.

Bütün müvafiq amilləri və Məhkəmənin Prosedur Qaydalarının 60-cı maddəsinin 2-ci bəndini nəzərə alaraq, Məhkəmə çəkilmiş bütün xərclərə görə ərizəçilərə 10000 avro məbləğində kompensasiyanın ödənilməsini qət edir.

### C. Ödəmənin gecikdirilməsi zamanı faiz dərəcəsi

221. Məhkəmə ödənilməsi gecikdirilən məbləğə görə faiz dərəcəsinin Avropa Mərkəzi Bankının illik son faiz dərəcəsinə uyğun olaraq hesablanmasını və bura üç faiz əlavə edilməsini məqbul hesab edir.

## YUXARIDAKILARI NƏZƏRƏ ALARAQ, MƏHKƏMƏ

1. Yekdilliklə Hökumətin ilkin etirazını *rədd edir*;

2. Dörd səs əleyhinə, on üç səs lehinə olmaqla 14-cü maddənin və 1 saylı protokolun 2-ci maddəsinin pozulduğunu q*ət edir*;

3. Dörd səs əleyhinə, on üç səs lehinə olmaqla *qərara alır ki*,
   (a) cavabdeh dövlət ödənilməli olan vergilər də daxil olmaqla aşağıdakı məbləğlərdə vəsaiti üç ay ərzində ərizəçilərə ödəməlidir:
      (i) on səkkiz ərizəçidən hər birinə dəymiş mənəvi ziyana görə ödənilmənin həyata keçirilməsi zamanı mövcud olan məzənnəyə uyğun olaraq 4000 (dörd min) avro məbləğində vəsaiti Çex kronu ilə;

(ii) çəkilmiş məhkəmə xərclərinə görə bütün ərizəçilərə birlikdə ödənilmənin həyata keçirilməsi zamanı mövcud olan məzənnəyə uyğun olaraq 10000 (on min) avro məbləğində vəsaiti Çex kronu ilə;

(b) yuxarıda qeyd edilən üç ayın keçməsindən sonra ödəmənin həyata keçirilməsinə qədər gecikdirilən müddət üçün yuxarıda göstərilən məbləğdən Avropa Mərkəzi Bankının illik son faiz dərəcəsinə uyğun olaraq faizlər ödənilməli və buna üç faiz də əlavə edilməlidir;

4. Yekdilliklə ərizəçilərin ədalətli kompensasiya tələbinin digər hissələrdə rədd edilməsini *qət edir*.

Qərar ingilis və fransız dillərində tərtib edilmiş və 2007-ci il 13 noyabrda Strasburqda İnsan Hüquqları Sarayında açıq iclasda elan edilmişdir.

Maykl O'Boyl — Nikolas Bratsa
Məhkəmə katibin müavini — Sədr

Konvensiyanın 45-ci maddəsinin 2-ci bəndi və Məhkəmənin Prosedur Qaydalarının 74-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq bu qərara aşağıdakı xüsusi rəylər əlavə olunur:

(a) hakim Zupançiçin xüsusi rəyi;
(b) hakim Yunqvirtin xüsusi rəyi;
(c) hakim Borreqo Borreqonun xüsusi rəyi;
(ç) hakim Şikutanın xüsusi rəyi.

N.B.
M.O'B

**© Avropa Şurası/İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, 2012.**

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin rəsmi dilləri ingilis və fransız dilləridir. Bu tərcümə Avropa Şurasının "Hyuman Rayts Trast Fondu"nun dəstəyi ilə həyata keçirilmişdir (www.coe.int/humanrightstrustfund). O, Məhkəmə üçün məcburi deyil və Məhkəmə tərcümənin keyfiyyətinə görə hər hansı məsuliyyət daşımır. Tərcüməni İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin HUDOC presedent hüququ məlumat bazasından (http://hudoc.echr.coe.int) və ya Məhkəmənin onu bölüşdüyü istənilən digər məlumat bazasından yükləmək olar. Bu tərcümə işin tam adının, yuxarıda qeyd edilmiş müəlliflik hüququna dair məlumatın göstərilməsi və "Hyuman Rayts Trast Fondu"na istinad edilməsi şərti ilə qeyri-kommersiya məqsədləri üçün çoxaldıla bilər. Tərcümənin hər hansı bir hissəsindən kommersiya məqsədləri üçün istifadə etmək istəyi olduqda, bu ünvanla əlaqə saxlaya bilərsiniz: publishing@echr.coe.int.

**© Council of Europe/European Court of Human Rights, 2012.**

The official languages of the European Court of Human Rights are English and French. This translation was commissioned with the support of the Human Rights Trust Fund of the Council of Europe (www.coe.int/humanrightstrustfund). It does not bind the Court, nor does the Court take any responsibility for the quality thereof. It may be downloaded from the HUDOC case-law database of the European Court of Human Rights (http://hudoc.echr.coe.int) or from any other database with which the Court has shared it. It may be reproduced for non-commercial purposes on condition that the full title of the case is cited, together with the above copyright indication and reference to the Human Rights Trust Fund. If it is intended to use any part of this translation for commercial purposes, please contact publishing@echr.coe.int.

**© Conseil de l'Europe/Cour europeenne des droits de l'homme, 2012.**

Les langues officielles de la Cour europeenne des droits de l'homme sont le francais et l'anglais. La presente traduction a ete effectuee avec le soutien du Fonds fiduciaire pour les droits de l'homme du Conseil de l'Europe (www.coe.int/humanrightstrustfund'). Elle ne lie pas la Cour, et celle-ci decline toute responsabilite quant a sa qualite. Elle peut etre telechargee a partir de HUDOC, la base de jurisprudence de la Cour europeenne des droits de l'homme (http://hudoc.echr.coe.int), ou de toute autre base de donnees a laquelle HUDOC l'a communiquee. Elle peut Itre reproduite a des fins non commerciales, sous reserve que le titre de l'affaire soit cite en entier et s'accompagne de l'indication de copyright ci-dessus ainsi que de la reference au Fonds fiduciaire pour les droits de l'homme. Toute personne souhaitant se servir de tout ou partie de la presente traduction a des fins commerciales est invitee a le signaler a l'adresse suivante: publishing@echr.coe.int